Xalqın qəzeti!
# Xalq qəzeti
№ 178 (30872) 24 avqust 2025-ci il, bazar
Gündəlik ictimai-siyasi qəzet
1919-cu ildən çıxır
Təsisçi: Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi və qəzetin redaksiya heyəti

## Möhtəşəm "Üçlük"

*Azərbaycan–Türkmənistan–Özbəkistan bölgədə sülh platforması yaradır*



**Müstəqil Azərbaycanın xarici siyasətində Mərkəzi Asiya ölkələri ilə münasibətlər həmişə xüsusi önəm kəsb edib. Ələlxüsus da İkinci Qarabağ müharibəsindən sonra ölkəmizin xarici siyasətində əsas prioritetlərdən biri Mərkəzi Asiya ilə əlaqələri dərinləşdirmək olub. Bu xüsusda son illər Azərbaycan Prezidenti İlham Əliyevin region ölkələrinə çoxsaylı rəsmi, dövlət, işgüzar səfərlərinin, eyni zamanda, region ölkələrin liderlərinin Azərbaycana səfərlərinin intensiv zarakter alması təsadüfi deyil.**

Bu münasibətlər ölkələrarası maraqlara xidmət etməklə yanaşı, Xəzər hövzəsində sülh, təhlükəsizlik və əməkdaşlığın dərinləşdirməsinə öz töhfəsini verir. Azərbaycanın Qazaxıstan, Özbəkistan, Qırğızıstan və Türkmənistanla yaxın əməkdaşlığında, ilk növbədə, bu ölkələrin coğrafi mövqeləri böyük rol oynayır. Türkmənistan Mərkəzi Asiyaya giriş qapısı rolunu oynayan iki ölkədən (digəri Qazaxıstandır – red.) biridir. Eyni soykökə malik bu qardaş ölkə ilə əlaqələri dərinləşdirmək Azərbaycanın geosiyasi, geoiqtisadi, bütövlükdə geostrateji maraqlarına tamamilə cavab verir.

*(ardı 3-cü səhifədə)*

## Tarix yazan sülh memarı



Səhifə ⇨ 7

## Mehriban Əliyeva – nüfuzlu dövlət xadimi, humanist insan



Səhifə ⇨ 6

## TANAP 83,4 milyard kubmetr qaz nəql edib




Səhifə ⇨ 8

## III MDB Oyunları Gəncənin adını beynəlxalq idman tarixinə yazacaq



Səhifə ⇨ 9

## Sənət vəfalısı



Səhifə ⇨ 10

## Bu gün gülə-gülə qayıdır geri – ağlaya-ağlaya köçən Kəlbəcər

*Bu diyarın təkcə təbiəti deyil, insanları da sərvətdir*



**Dövlət başçımızın və birinci xanım Mehriban Əliyevanın işğaldan azad edilmiş ərazilərə növbəti səfərindən hazırlanmış videomateriala baxanda istər-istəməz ulu öndər Heydər Əliyevin kəlbəcərli məcburi köçkünlərlə görüşdə səsləndirdiyi "Bu diyarın təkcə təbiəti deyil, insanları da sərvətdir" ifadəsi yadıma düşdü. Bu qısa yazıda həmin "sərvət adamların" ikisi barədə ötəri də olsa, söz açmaq istəyirəm. Onların birincisi şair Sücaət Əhmədovdur.**

*(ardı 5-ci səhifədə)*

## Qarabağ Zəfəri ədalətsiz vasitəçiliyə son qoydu



Səhifə ⇨ 4

## Reallıq, yoxsa siyasi ritorika?



Səhifə ⇨ 5

## Azərbaycan–Türkmənistan dostluğu əməkdaşlığın strateji mərhələsinə daxil olur

Səhifə ⇨ 3

## Rusiya Federasiyası Federal Məclisi Federasiya Şurasının sədri Valentina Matviyenkodan

## Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyevaya

**Hörmətli Mehriban Arif qızı!**

Doğum gününüz münasibətilə səmimi təbriklərimi qəbul edin.

Rusiya Federasiyasında Sizi Azərbaycan Respublikasında və onun hüdudlarından kənarda böyük nüfuza malik təcrübəli və müdrik rəhbər, istedadlı təşkilatçı kimi tanıyırlar.

Səmimiyyət və mehribanlıq şəraitində keçən görüşlərimizi məmnuniyyətlə və dərin minnətdarlıq hissi ilə xatırlayıram. Ümidvaram ki, biz gələcəkdə də qarşılıqlı faydalı Rusiya-Azərbaycan əlaqələrinin, o cümlədən parlamentlərarası əməkdaşlığın inkişaf yollarını açıq şəkildə müzakirə etmək, ölkələrimizin maraqlarına cavab verən layihələrin reallaşdırılmasına kömək göstərmək imkanına malik olacağıq.

Bu əlamətdar gündə Sizin tükənməz həyat enerjinizə və həqiqətən də müstəsna cazibənizə, həmçinin məsul dövləti vəzifənizdə uğurlu fəaliyyətinizə və qayğıkeş, mehriban həyat yoldaşı və ana rolunu vəhdətdə yaşatmaq bacarığınıza ehtiramımı bildirmək istərdim.

Əziz Mehriban xanım! İcazə verin, Sizə dünyanın bütün nemətlərini, möhkəm cansağlığı, uğurlar və yaxınlarınızın dəstəyini arzulayım. Qoy, doğmalarınız Sizi ruhlandıraraq və qoruyaraq həmişə yanınızda olsunlar, evinizdə harmoniya, sevgi və xoşbəxtlik hökm sürsün. Hər yeni gün sizə sevinc, nur, insanlar və ölkəniz naminə gördüyünüz bütün işlərdə dərin məmnunluq hissi gətirsin.

Sizə olan ən yüksək ehtiramımı qəbul edin.

***Valentina MATVİYENKO,***
***Rusiya Federasiyası Federal Məclisi Federasiya Şurasının sədri***

# Gənclərin II Beynəlxalq Multikulturalizm Forumu






**Bugünlərdə ölkəmizdə Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin ICESCO ilə birgə təşkil etdiyi II Beynəlxalq Multikulturalizm Gənclər Forumu keçirilir.**

"Gənclər çoxmədəniyyətli mühitdə sülh quruculuğunun elçiləri kimi" mövzusunda məclisin məramı müxtəlif ölkələrin gənclərini bir araya gətirərək multikultural dəyərlərin təşviqinə, mədəniyyətlərarası dialoqun inkişafına və dinlərarası anlaşmanın möhkəmləndirilməsinə töhfə verməkdir. Forumda dünyanın 50-dən çox ölkəsindən 70-dək təmsilçi iştirak edir.

Dünən beynəlxalq məclisin açılış mərasimində Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin icraçı direktoru Rəvan Həsənov Azərbaycanın tarixən müxtəlif mədəniyyətlərin, dillərin və dinlərin qovuşduğu məkan olduğunu vurğulayıb. O qeyd edib ki, ulu öndər Heydər Əliyevin əsasını qoyduğu, Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilən multikulturalizm siyasəti bu gün ölkəmizi dünyada mədəniyyətlərarası dialoqun, tolerantlığın və birgəyaşayış ənənələrinin nümunəsinə çevirib.

İcraçı direktor diqqətə çatdırıb ki, Forumun "Gənclər çoxmədəniyyətli mühitdə sülh quruculuğunun elçiləri kimi" mövzusuna həsr olunması təsadüfi deyil. Çünki bu gün dünyada sülhün, dialoqun və qarşılıqlı anlaşmanın təmin edilməsində gənclərin rolu həlledici əhəmiyyət daşıyır. Gənclər yalnız gələcəyin deyil, həm də bu günün aparıcı qüvvəsidir.

Sonra ICESCO və onun Bakıda Regional Ofisinin rəhbərliyi, Afrika İttifaqının Afrika Miqrasiya Müşahidə Mərkəzinin və Şimali Avropa Münaqişə Transformasiyası Mərkəzinin tərəfdaşlığı ilə "Müxtəlifliyin gücü: Gənclər sülh və anlaşmanın hərəkətverici qüvvəsi kimi " mövzusunda seminar keçirilib. iştirakçılaar mədəni və identiklik müxtəlifliyinin sülh quruculuğu proseslərində rolunu müzakirə edib və bu istiqamətdə gənclərin hərəkətverici qüvvə olduğunu vurğulayıblar.

Növbəti günlərdə Bakı, Xankəndi və Şuşa şəhərlərində keçiriləcək panel müzakirələrində, interaktiv sessiyalarda və təlim proqramlarında dünya gənclərinin çoxmədəniyyətli mühitdə sülh quruculuğuna töhfəsi, multikutural dəyərlərin təşviqi məsəsələri diqqət mərkəzində olacaq. İştirakçılar Azərbaycanın işğaldan azad edilən tarixi torpaqlarında mədəni irsin vəziyyəti və aparılan quruculuq işləri ilə də yaxından tanış olacaqlar.

Xatırladaq ki, I Beynəlxalq Multikulturalizm Gənclər Forumu 2019-cu ildə "Bakı Mədəniyyətlərarası Gənclər Forumu: Dinlərarası dialoqdan fəaliyyətə doğru" adlı IX Beynəlxalq Multikulturalizm Yay Məktəbi çərçivəsində təşkil olunub. Panel müzakirələr, interaktiv sessiyalar, seminarlar və təqdimatlar vasitəsilə iştirakçılar müxtəlif multikultural təcrübələrlə tanış olur, birgə layihələr üçün təşəbbüslər irəli sürür və sosial həmrəylik ruhunda yeni əməkdaşlıqlar qururlar.

***T.RÜSTƏMLİ***
***XQ***

# Ceyhun Bayramovun rusiyalı həmkarı ilə telefon danışığı




**Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov ilə Rusiya xarici işlər naziri Sergey Lavrov arasında telefon danışığı baş tutub.**

Telefon danışığı zamanı Azərbaycan-Rusiya ikitərəfli və çoxtərəfli gündəliyində duran bir sıra məsələlər, siyasi, iqtisadi və humanitar əməkdaşlığın müxtəlif aspektləri, habelə regional və beynəlxalq təhlükəsizlik məsələləri müzakirə olunub.

Tərəflər Azərbaycan ilə Rusiya arasında iqtisadi əməkdaşlıq məsələləri üzrə Hökumətlərarası Dövlət Komissiyasının cari il avqustun 22-də Həştərxan şəhərində keçirilmiş son iclası barədə fikir mübadiləsi apararaq, iclasın nəticələrini yüksək qiymətləndiriblər.

Telefon danışığı zamanı, həmçinin qarşılıqlı maraq doğuran digər mövzular ətrafında fikir mübadiləsi aparılıb.

# İtaliyanın "RAI" telekanalı Azərbaycan barədə reportaj yayımlayıb







**İtaliyanın "RAI" telekanalı Azərbaycanın kosmik və innovasiya ekosistemi sahələrində qazandığı uğurlardan bəhs edən reportaj yayımlayıb.**

Kanalın ölkəmizə ezam olunan jurnalisti Barbara Karfanya Azərbaycanın texnoloji cəhətdən inkişaf edən ölkə olduğunu bildirib. Qeyd edib ki, Azərbaycan kosmik sənayenin inkişafında önəmli rol oynayır, orbitə buraxdığı müxtəlif təyinatlı peyklər ölkənin informasiya təhlükəsizliyinin təmin olunmasına töhfələr verib, eyni zamanda, telekommunikasiya sahəsində xarici tərəfdaşlardan asılılığını aradan qaldırıb.

Reportajda "Azərkosmos"un regionda ilk peyk operatoru olduğu, peykləri vasitəsilə telekommunikasiya və Yerin müşahidəsi xidmətlərini təqdim etdiyi bildirilir.

Eyni zamanda bildirilir ki, İnnovasiya və Rəqəmsal İnkişaf Agentliyi yerli sahibkarlara müasir texnologiya və texnoloji avadanlıqların əldə olunmasında yardım göstərir. Agentlik innovasiyaya əsaslanan elmi tədqiqatları dəstəkləyir, innovativ layihələri, o cümlədən startapları stimullaşdırır, onları qrant, güzəştli kredit və vençur vasitəsilə maliyyələşdirir.

# Azərbaycan–Suriya təhlükəsizlik əməkdaşlığı



**Suriyanın daxili işlər naziri Ənəs Xəttab Azərbaycanın Dəməşqdəki müvəqqəti işlər vəkili Elnur Şahhüseynov ilə görüşüb.**

Görüş zamanı tərəflər ikitərəfli əməkdaşlığın genişləndirilməsi imkanlarını, o cümlədən təhlükəsizlik və daxili işlər orqanlarının fəaliyyətini müzakirə ediblər.

Tərəflərin fikrincə, sabitliyin möhkəmləndirilməsinə və iki ölkənin ümumi maraqlarına nail olunmasına töhfə verəcək təcrübə mübadiləsinə xüsusi diqqət yetirilib.

***XQ***

# Norveç nəşri Cənubi Qafqazda sülh prosesini işıqlandırıb

**Norveçin "Utrop" nəşrində Azərbaycanın İsveçdəki səfiri Zaur Əhmədovun Cənubi Qafqazda sülh prosesinə həsr olunmuş məqaləsi dərc edilib.**

Diplomat məqalədə norveçli yazıçı Terye Holmedalin təxminən iyirmi il əvvəl yazdığı "Mən bacaracağam" kitabına istinad edir. Kitabda Birinci Qarabağ müharibəsi zamanı evini tərk etmiş və təhsil almaq imkanından məhrum olan cəbrayıllı Lalə adlı qız haqqında bəhs edilir.

Z.Əhmədov yazır ki, bu gün Lalə və bir çox digər azərbaycanlı məcburi köçkünlər nəhayət ki, onilliklər ərzində xarabalığa çevrilmiş doğma kəndlərinə qayıtmaq şansı əldə ediblər.

Məqalədə avqustun 8-də Vaşinqtonda ABŞ Prezidenti Donald Trampın iştirakı ilə əldə edilmiş tarixi sazişə xüsusi diqqət yetirilir.

Səfirin fikrincə, Cənubi Qafqazda sabitlik təkcə region ölkələrinə deyil, həm də Avropaya, o cümlədən Norveçə də fayda gətirəcək. Skandinaviya ölkələri inteqrasiya və sülhməramlı təcrübələri ilə etimadın möhkəmlənməsinə və əməkdaşlığın inkişafına mühüm töhfə verə bilər.

Sonda diplomat vurğulayır ki, Lalənin hekayəsi sülh prosesinin insani ölçüsünü xatırladır: hər bir razılaşmanın arxasında Vətənə qayıtmaq və yeni həyata başlamaq arzusunda olan insanlar dayanır.




"Cənubi Qafqaz üçün bu, yeni başlanğıcdır. Norveç üçün bu, növbəti fəslin yazılmasında kömək etmək dəvətidir", – deyə müəllif sonda qeyd edir.

# Rumıniya mediası Zəngəzur dəhlizindən yazıb

**Rumıniya mediası, o cümlədən "G4Media" xəbər portalı yazır ki, Türkiyə İğdır şəhərində keçirilən rəsmi mərasimdə Bakı ilə yeni dəmir yolu əlaqəsini təmin edəcək strateji layihənin tikintisinə start verib. Dəmir yolu xətti Qarsdan başlayaraq Ermənistan ərazisindən keçərək Zəngəzur dəhlizi vasitəsilə Naxçıvana, daha sonra isə Bakıya qədər uzanacaq.**

Xəttin illik daşıma gücü 5,5 milyon sərnişin və 15 milyon ton yük olacaq. Tikinti çərçivəsində 5 tunel, 3 viadukt və 10 körpü inşa ediləcək. Layihənin ümumi dəyəri 2,4 milyard avrodur və maliyyələşmə beynəlxalq kreditlər vasitəsilə həyata keçiriləcək. Layihənin 4-5 ilə tamamlanması planlaşdırılır.

Naxçıvan ərazisində 150 kilometrlik dəmir yolu yenidən qurulacaq, sərhədə çıxışı təmin etmək üçün əlavə 20 kilometrlik yeni xətt çəkiləcək. Bu hissənin icrası Azərbaycan tərəfindən həyata keçiriləcək.




# Kür çayında araşdırma aparılır

**Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyi yanında Suların İstifadəsinə və Mühafizəsinə Dövlət Nəzarəti Xidməti (SİMDNX) tərəfindən həyata keçirilən nəzarət tədbirləri zamanı Kür çayının Azərbaycan Respublikasına daxil olan hissəsində balıq və digər su bioloji resurslarının məhv olması faktı aşkar edilib.**



SİMDNX-dən AZƏRTAC-a verilən məlumata görə, qeyd olunan hallarla əlaqədar, Xidmət tərəfindən ilkin araşdırmalara başlanılıb. Sözügedən ərazidən su nümunələri götürülərək, analizlərin aparılması üçün Mərkəzi Laboratoriyaya təqdim edilib.

Analizlərin nəticələri əldə olunduqdan sonra ictimaiyyətə əlavə məlumat veriləcək.

(əvvəli 1-ci səhifədə)

# Möhtəşəm “Üçlük”




Qeyd etdiyimiz kimi, ortaq tarix, mənəvi yaxınlıq, etnik soy-kök birliyi də iki xalq, iki dövlət arasında münasibətlərin dərinləşməsində böyük rol oynayır. Son illərin iqtisadi göstəricilərə nəzər yetirsək görərik ki, ticarət dövriyyəsi xeyli artıb. Azərbaycan–Mərkəzi Asiya münasibətləri yalnız ölkələrarası maraqlara xidmət etmir, böyük bir regionda – Xəzər hövzəsində Mərkəzi Asiyada, Cənubi Qafqazda sülhün, əmin-amanlığın, təhlükəsizliyin, o cümlədən əməkdaşlığın dərinləşməsinə töhfə verir.

Tarix, mədəniyyət, dil və din kimi ortaq dəyərlərə əsaslanan qardaşlıq münasibətlərinə, dərin və çoxşaxəli əlaqələrə söykənən Azərbaycan – Türkmənistan – Özbəkistan birliyini əminliklə “Möhtəşəm üçlük” adlandıra bilərik. Bu “üçlüy”ün münasibətləri yalnız diplomatik əməkdaşlıqla məhdudlaşmır, həm də xalqlar arasında səmimi və strateji tərəfdaşlıq ruhunda inkişaf edir. Dövlətimizin başçısının dəfələrlə vurğuladığı kimi, bu üç ölkə arasında münasibətlər təkcə diplomatik səviyyədə deyil, həm də “qardaşlıq” telləri üzərində qurulub. Biz bunun əyani şəkildə isbatını Prezident İlham Əliyevin Türkmənistana işgüzar səfəri zamanı gördük.

*

Avqustun 22-də Türkmənbaşıda keçirilən üçtərəfli sammitin yekunları üzrə Azərbaycan Prezidenti İlham Əliyev, Özbəkistan Prezidenti Şavkat Mirziyoyev və Türkmənistan Xalq Məsləhətinin sədri Qurbanqulu Berdiməhəmmədovun qəbul etdikləri Birgə Bəyanat bərabərlik, qarşılıqlı fayda və bir-birinin maraqlarının nəzərə alınması prinsipləri əsasında ölkələr arasında ticari-iqtisadi əməkdaşlığı gücləndirmək məqsədini daşıyır.

Türkmənbaşı şəhərində baş tutan görüşdə liderlər üç ölkə arasında mövcud dostluq və tərəfdaşlıq münasibətlərinin daha da möhkəmləndirilməsi və əməkdaşlığın yeni perspektivlər üzrə inkişaf etdirilməsi ətrafında fikir mübadiləsi apardılar. Onlar regional və beynəlxalq məsələlərdə qarşılıqlı dəstək və əməkdaşlığın əhəmiyyətini qeyd ediblər. Azərbaycan, Türkmənistan və Özbəkistan kimi Mərkəzi Asiya və Cənubi Qafqaz ölkələri coğrafi baxımdan strateji bir mövqedə yerləşir və bu, onlara Şərqlə Qərb, həmçinin Şimal ilə Cənub arasında körpü rolu oynamağa imkan verir.

Üçtərəfli görüşün yekunları ilə bağlı Türkmənistan Xarici İşlər Nazirliyinin saytında dərc olunan məlumatda qeyd edilir ki, tərəflər dövlətlər arasında iqtisadi əməkdaşlığın gələcək inkişafı üçün əlverişli şəraitin yaradılmasının zəruriliyi barədə ümumi rəyə gəliblər. Bu kontekstdə tərəflər öz ölkələrinin işgüzar dairələri arasında birbaşa əlaqələri, o cümlədən üç dövlətin ərazilərində sərgilər və biznes forumlar keçirmək yolu ilə əlaqələri aktivləşdirmək qərarına gəliblər.

Azərbaycan Prezidenti İlham Əliyev mətbuat üçün verdiyi açıqlamada çoxtərəfli dialoq çərçivəsində humanitar əlaqələri gücləndirmək barədə razılığa gəlindiyini, xüsusən, təhsil, elm, idman, səhiyyə, incəsənət, xalçaçılıq və digər sahələrdə yüksək potensialın mövcudluğunu vurğulayıb: “Bu sahələrdə yaxşı əməkdaşlıq təcrübəmiz var. Ümumiyyətlə, bu görüş üçtərəfli əlaqələri gücləndirmək üçün bizə yeni imkanlar açır və bu kontekstdə qarşıya qoyduğumuz məqsədlərə çatmaq üçün çox çalışmalıyıq”.

*

Xatırladaq ki, keçən ay Türkmənistan Xalq Məsləhətinin sədri Qurbanqulu Berdiməhəmmədov Azərbaycanda işgüzar səfərdə oldu. Bu barədə danışan İlham Əliyev həmin səfərin son dərəcə səmərəli keçdiyini, Bakıda əhatəli danışıqlar apardıqdan sonra Azərbaycanın işğaldan azad olunmuş ərazilərinə, o cümlədən Füzuli və Şuşa şəhərlərini birlikdə ziyarət etdiklərini diqqətə çatdırdı: “Füzuli şəhərində məscidin inşa olunması barədə qərara görə Qurbanqulu Məlikquliyeviçə xüsusi təşəkkürümü bildirmək istəyirəm. Bu səmimi qardaşlıq dəstəyi, jesti həmrəyliyin və mənəvi birliyin rəmzi kimi xalqımızın yaddaşında əbədi qalacaqdır. Eyni zamanda, Füzuli və Arxadağ şəhərləri arasında qardaşlaşma əlaqələrimizin yaradılması mədəni və humanitar əməkdaşlığa yeni imkanlar açır. Bütün bunlar göstərir ki, Azərbaycan–Türkmənistan münasibətləri yüksəliş dövrünü yaşayır. Biz bu münasibətlərin bütün sahələrdə inkişafı üçün birgə səylərimizi davam etdirəcəyik”.

Azərbaycan, türkmən və özbək xalqları əsrlər boyu bir ailə kimi, qardaşlar kimi yanaşı yaşayıb-yaratmışlar. Hazırda bu üç müstəqil respublika keçmiş ənənələrə sadiqdir və onları yaşadırlar. Qarşıda duran əsas məsələ odur ki, Azərbaycan, Özbəkistan və Türkmənistanın üç qardaş ölkə kimi bundan sonra da çiyin-çiyinə irəliyə gedəcək, bütün məsələləri dostluq, qardaşlıq şəraitində həll edəcək və nəinki üçtərəfli, çoxtərəfli, beynəlxalq əməkdaşlıq imkanlarını daha da genişləndirəcəklər.

Yeri gəlmişkən, üçtərəfli görüşdə liderlərin humanitar məsələlərə xüsusi həssaslıqla yanaşması diqqətdən yayınmadı. Füzuli şəhəri ilə Arxadağ şəhəri arasında qardaşlaşma əlaqələrinin qurulması haqqında Protokol iki qardaş xalqın mədəni-mənəvi bağlarının daha da möhkəmlənməsinə xidmət edəcək.

Çıxışında tərəfləri qarşıda gözləyən böyük işlərdən danışan Azərbaycan lideri onların rellaşması üçün zəruri inzibati-hüquqi prosedurlara start verildiyini bildirdi: “Bir şeyi deyə bilərəm, artıq müvafiq dövlət qurumlarına göstərişlər verildi ki, üçtərəfli əməkdaşlıq formatı yaradılsın və bizim növbəti görüşümüzə konkret istiqamətlər üzrə təkliflər verilsin. Bütün göstərişlər verildi. Yenə də deyirəm, burada səslənmişdi – nəqliyyat, tranzit, logistika, elektroenergetika, neft, qaz sahələri və mədəni əlaqələr. Qaldı ki, bütün bu göstərişlərin vaxtında yerinə yetirilməsinə, mənim buna da şübhəm yoxdur”.

Bugünədək ortaq layihələrin tezliklə icra edilməsində hər üç ölkənin liderinin siyasi iradə və qətiyyət göstərməsinin şahidi olmuşuq. Buna nümunə olaraq, üstündən cəmi bir ay keçməsinə baxmayaraq, Füzulidə inşa ediləcək məscidin layihə eskizinin artıq hazırlandığını deyə bilərik. Yaxın gələcəkdə bu dini məbədin təməlinin qoyulacağı gözlənilir. Azərbaycan Prezidentinin dediyi kimi, bu, türkmən xalqının, Türkmənistan liderinin Azərbaycan xalqına, Azərbaycana olan dəstəyinin nümunəsidir, bizim qardaşlığımızın təcəssümüdür.

Bu sözlər isə İlham Əliyevin üçtərəfli görüşə verdiyi qiymət baxımından uzun müddət yaddaşlarda qalacaq: “Bu, sözdə yox, əməldə dostluqdur, qardaşlıqdır. Bizim üçün ən vacib, ən çətin məsələlərdə həmişə qardaşlarımız yanımızda olub. Bu gün də bu, belədir. Bu gün artıq burada səsləndi, bu, tarixi görüşdür, tarixi sammitdir, tarixi Zirvə görüşüdür”.

Həqiqətən də iki gün bundan əvvəl Türkmənistan paytaxtında yaşananları, orada qəbul edilən qərarları tarix və coğrafiya baxımından “Möhtəşəm üçlüy”ün günü adlandıra bilərik. Bunu isə birmənalı olaraq deyə bilərik ki, bölgəmizdə uzaq perspektivə, sülhə və tərəfdaşlığa yönəlik tamamilə yeni əməkdaşlıq formatı yaranır.

Sonda onu da qeyd edək ki, Füzuli və Arxadağ şəhərləri arasında qardaşlaşma əlaqələrinin yaradılması mədəni və humanitar əməkdaşlıq üçün yeni səhifələr açır. Bu faktın özü də onu göstərir ki, Azərbaycan–Türkmənistan münasibətləri özünün yüksəliş dövrünü yaşayır. İndi bu münasibətləri bütün sahələr üzrə inkişaf etdirməkdən ötrü səylərimizi birləşdirməli və yoluмuza bərabər davam etməliyik.

Bəli, hər şeydən göründüyü kimi, Azərbaycan–Türkmənistan–Özbəkistan “üçlüy”ünün əsas məqsədi bölgədə yeni sülh, əmin-amanlıq və əməkdaşlıq platforması yaratmaqdır. Qardaşlıq təməlləri üzərində ucalan bu dayanıqlı “üçlüy”ün faydasını tezliklə bölgənin bütün ölkələrinin görəcəyinə əminik.

***İmran BƏDİRXANLI***
***XQ***

---

**Avqustun 22-də Türkmənbaşı şəhərində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Türkmənistan Xalq Məsləhətinin sədri Qurbanqulu Berdiməhəmmədov ilə geniş tərkibli görüşündə də bu barədə ətraflı bəhs edilib. Azərbaycan lideri çıxışında bu barədə bildirib: “Şərq-Qərb nəqliyyat dəhlizi Türkmənistan və Azərbaycan ərazilərindən keçir. Əlbəttə ki, bizim bu sahədəki birgə fəaliyyətimiz, koordinasiyaya yönəlmiş addımlar böyük coğrafiyaya xeyir gətirəcək. Çünki bu gün Avropanı Uzaq Şərqlə birləşdirən ətibarlı nəqliyyat bağlantısı bizim ölkələrimizin ərazisindən keçir. Mən bilirəm ki, Türkmənistanda çox böyük işlər görülüb – müasir dəniz limanı, hava limanları, dəmir yolları. Bütün bunlar Sizin rəhbərliyinizlə həyata keçirilən layihələrdir ki, Türkmənistanda ən müasir infrastruktur yaradılıb. Belə infrastrukturlar Azərbaycanda da yaradılıb. Ona görə bu istiqamətdə səylərimizin birləşməsində çox böyük fayda var”.**

# Azərbaycan–Türkmənistan dostluğu əməkdaşlığın strateji mərhələsinə daxil olur



Ümumiyyətlə, hər iki ölkə rəhbəri arasında keçirilən görüşdə səslənən fikirlər yalnız Azərbaycan–Türkmənistan əməkdaşlığının dinamik inkişafını deyil, həm də daha geniş regional və qlobal miqyasda strateji əhəmiyyət daşıyan məsələləri özündə ehtiva edir. Prezident İlham Əliyevin vurğuladığı kimi, Şərq–Qərb nəqliyyat dəhlizi həm Azərbaycanın, həm də Türkmənistanın iqtisadi və geosiyasi rolunu gücləndirən əsas strateji xətt kimi diqqət çəkir.

Qeyd edək ki, bu gün dünyada baş verən geosiyasi dəyişikliklər, enerji və nəqliyyat təhlükəsizliyi ilə bağlı yeni çağırışlar Orta Asiya və Cənubi Qafqaz regionunun nəqliyyat və logistika potensialını ön plana çıxarıb. Belə bir şəraitdə Azərbaycan və Türkmənistanın səylərinin birləşdirilməsi isə təkcə regional deyil, qlobal miqyasda da yeni imkanlar yaradır. Bu reallığın əsasında isə bir sıra mühüm məqamlar dayanıb. Bu, ilk növbədə, hər iki ölkənin tarixən ortaq mədəniyyətə, dilə, ənənələrə malik xalqlarının məskunlaşdığı dövlətlər olmasından irəli gəlib. İkitərəfli münasibətlərin təməlində isə qarşılıqlı hörmət, bərabərhüquqlu əməkdaşlıq və strateji maraqlar dayanıb. Xüsusilə son illərdə dövlət başçılarının qarşılıqlı səfərləri və yüksək səviyyəli danışıqları əlaqələrin yeni müstəviyə keçməsini şərtləndirib.

Xatırladaq ki, hər iki ölkə enerji ehtiyatları, nəqliyyat – logistika imkanları və iqtisadi potensial baxımından bir-birini tamamlayan mövqeyə malikdir. Türkmənistanın zəngin qaz ehtiyatları, Azərbaycanın isə inkişaf etmiş neft – qaz infrastrukturu və beynəlxalq bazarlara çıxış imkanları qarşılıqlı əməkdaşlıq üçün əlverişli zəmin yaradır.

Prezident İlham Əliyevin görüşdə səsləndirdiyi fikirlərdən də aydın görünür ki, Azərbaycanın prioritetlərindən biri Şərq – Qərb Nəqliyyat Dəhlizinin inkişafıdır. Bu dəhliz Avropanı Uzaq Şərqlə birləşdirən mühüm arteriyadır. Hazırda dünya ticarətində Asiya ilə Avropa arasında yükdaşımaların həcmi ildən-ilə artır. Ənənəvi marşrutların geosiyasi səbəblərdən risklərlə üzləşməsi Orta Dəhlizə marağı daha da artırır. Azərbaycan və Türkmənistanın coğrafi mövqeyi isə bu prosesdə mühüm üstünlüklər yaradır. Xəzər dənizi üzərindən iki ölkəni birləşdirən marşrut həm yükdaşımaların sürətli, həm də təhlükəsiz şəkildə həyata keçirilməsinə şərait yaradır.

Beləliklə, Şərq – Qərb nəqliyyat dəhlizi Çindən başlayıb Qazaxıstan, Xəzər dənizi, Azərbaycan, Gürcüstan vasitəsilə Türkiyəyə və oradan Avropaya uzanan, Şərq ilə Qərbi birləşdirən magistraldır. Bu dəhliz Asiya və Avropa arasında yüklərin daşınması üçün əsas magistral xətt rolunu oynayır. Başqa sözlə, Çindən Türkiyəyə, eləcə də Avropa Birliyi ölkələrinə, eləcə də əks istiqamətdə təşkil olunan dəhliz yükdaşımaları artmasına fayda verir. Avropaya nəql edilən yüklər Gürcüstanın Poti, Batumi limanları və ya Bakı – Tbilisi – Qars dəmir yolu vasitəsilə ötürülür. Yeri gəlmişkən, bu dəmir yolu yük daşımalarında xərclərin azaldılmasına xidmət edir.

Dövlətimizin başçısının qeyd etdiyi kimi, son illərdə hər iki ölkədə müasir nəqliyyat infrastrukturunun qurulması istiqamətində böyük işlər görülüb. Türkmənistanın Türkmənbaşı şəhərində inşa olunan müasir dəniz limanı, həmçinin hava limanları və dəmir yolları ölkənin regiondakı tranzit imkanlarını xeyli genişləndirib. Azərbaycan da son illərdə Bakı Beynəlxalq Dəniz Ticarət Limanı, Bakı – Tbilisi – Qars dəmir yolu, genişlənmiş magistral yollar və hava limanları vasitəsilə nəqliyyat şəbəkəsini gücləndirib. Bundan başqa, Qarabağ və Şərqi Zəngəzurda inşa olunan hava limanları da ölkənin logistika mərkəzinə çevrilməsinə önəmli töhfə verib. Bu infrastruktur şəbəkələrinin inteqrasiyası Azərbaycan – Türkmənistan iqtisadi əməkdaşlığının praktiki nəticələrini şərtləndirib.

İki ölkə arasında regional əməkdaşlıq və geosiyasi şərait barədə danışarkən, bir məqam xüsusi qeyd olunmalıdır. Belə ki, Şərq – Qərb dəhlizi təkcə iki ölkənin maraqlarına xidmət etmir, həm də geniş regionun inkişafına təkan verir. Burada Qazaxıstan, Gürcüstan, Türkiyə və digər tərəfdaş ölkələrin rolu da böyükdür. Orta Dəhlizin uğurla fəaliyyət göstərməsi isə Mərkəzi Asiyadan Avropaya yükdaşımaların daha səmərəli şəkildə həyata keçirilməsinə imkan verir. Bu, həm də geosiyasi balans baxımından mühüm əhəmiyyət kəsb edir. Bir sözlə, Azərbaycanın təşəbbüsləri və Türkmənistanın dəstəyi nəticəsində formalaşan əməkdaşlıq platformaları regionda sabitlik, qarşılıqlı etimad və iqtisadi inkişaf üçün yeni şərait yaradır.

Yeni iqtisadi imkanlara gəldikdə isə qeyd edək ki, Azərbaycan – Türkmənistan əməkdaşlığı yalnız nəqliyyat – logistika ilə məhdudlaşmır. Dəhliz üzərindən daşınan yüklərin həcminin artması ilə yanaşı, yeni iqtisadi sahələrdə əməkdaşlıq da reallaşır. Bu, xüsusilə:

*– enerji resurslarının nəqli;*
*– ticarət dövriyyəsinin artımı;*
*– sənaye və kənd təsərrüfatı məhsullarının ixracı;*
*– turizm və xidmət sektorunun inkişafı istiqamətlərində özünü göstərir. Azərbaycan və Türkmənistanın bu istiqamətlərdə koordinasiyalı fəaliyyəti isə həm ikitərəfli, həm də regional iqtisadi inteqrasiyanı gücləndirir.*

Bütün bu məsələlərdə respublikamızın strateji baxışı da diqqət çəkir. Prezident İlham Əliyevin çıxışında bununla bağlı vurğuladığı əsas məqam isə ondan ibarətdir ki, Azərbaycan təkcə öz milli maraqlarını deyil, həm də region ölkələrinin ümumi rifahını nəzərə alır. Nəqliyyat dəhlizlərinin inkişafının Azərbaycanın uzunmüddətli strateji xəttinin əsas tərkib hissəsi olması da məhz bununla bağlıdır.

Ölkəmiz Orta Dəhlizin reallığa çevrilməsi üçün çoxşaxəli diplomatik və praktiki addımlar atır. Bu baxımdan Türkmənistanla əməkdaşlıq xüsusi əhəmiyyət daşıyır. Avqustun 22-də Türkmənbaşı şəhərində keçirilən görüş də bir daha göstərdi ki, Azərbaycan və Türkmənistan münasibətləri yeni strateji mərhələyə qədəm qoyur. Şərq – Qərb nəqliyyat dəhlizi bu əməkdaşlığın mərkəzində dayanır və onun uğurla həyata keçirilməsi həm ikitərəfli əlaqələrin möhkəmlənməsinə, həm də regionun qlobal ticarət xəritəsində rolunun güclənməsinə xidmət edir.

Xəzər dənizi regionunda yerləşən Türkmənistan və Azərbaycan enerji resursları baxımından zəngin ölkələrdir. Xüsusilə qaz ixracı sahəsində əməkdaşlıq ölkələrimizi birləşdirən əsas sahələrdən biridir. 2021-ci ildə Türkmənistan və Azərbaycan arasında Xəzər dənizindəki “Dostluq” neft yatağının birgə işlənilməsinə dair razılıq əldə olunub. Bu razılaşma Xəzərin hüquqi statusu məsələlərinin həllindən sonra energetika sahəsində yeni imkanların açılmasına təkan verib. Məhz həmin sənəd yalnız iqtisadi deyil, həm də siyasi inamın rəmzidir.

Azərbaycan – Türkmənistan iqtisadi əlaqələri son illər ərzində çoxşaxəli xarakter alıb. 2007-ci ildə yaradılmış Hökumətlərarası birgə Komissiya bu sahədə əməkdaşlığın strukturlaşdırılmasına imkan yaradıb. 2024-cü ildə iki ölkə arasında ticarət dövriyyəsi 383,7 milyon ABŞ dolları təşkil edib ki, bunun 80,2 milyon dolları Azərbaycan məhsullarının ixracına, 303,5 milyon dolları isə Türkmənistan məhsullarının idxalına aiddir. Bu rəqəmlər tərəflər arasında iqtisadi əməkdaşlığın dinamik və davamlı şəkildə artdığını göstərir. Cari ilin ilk beş ayında isə xarici ticarət dövriyyəsi 118,5 milyon dollar olub.

Geosiyasi qeyri – sabitlik fonunda nəqliyyat və logistika Şərqlə Qərb arasında birləşdirici amilə çevrilir. Bu baxımdan Xəzər dənizi də xüsusi məna daşıyır. Son dövrlərdə Bakı – Türkmənbaşı marşrutu üzrə konteyner daşımalarının həcmi 2,9 dəfə artaraq 2362 TEU-ya çatıb.

Prezident İlham Əliyevin sözləri Azərbaycan və Türkmənistanın nəqliyyat əməkdaşlığının gələcəkdə böyük coğrafiyada iqtisadi inkişaf, sabitlik və əməkdaşlıq üçün mühüm baza olacağını təsdiqləyir. Bu əməkdaşlıq həm də bir daha göstərir ki, Azərbaycan regionda etibarlı tərəfdaş və strateji oyunçu olaraq öz mövqeyini möhkəmləndirir.

***V.BİNYATOĞLU***
***XQ***

# Azərbaycan Şimal qonşusu ilə ortaq dəyərlərə sadiqdir

*Rusiyadan Azərbaycana gələn turistlərin sayı durmadan artır*

**Son illər Azərbaycan turizm və müvəqqəti miqrasiya baxımından regionun əsas mərkəzlərindən birinə çevrilib. Xüsusilə 2022-ci ildə Rusiya–Ukrayna müharibəsinin başlamasından sonra postsovet məkanında sosial-siyasi sabitlik və təhlükəsizlik baxımından əlverişli məkan axtarışı bir çox rusiyalını və ukraynalını Azərbaycana yönəldib. Nəticədə, həm turist, həm də müvəqqəti məskunlaşmaq niyyətilə gələn rusiyalıların sayı artır.**



Rəsmi statistika bu artımı təsdiqləyir. Dövlət Statistika Komitəsinin məlumatına əsasən, son üç ildə Azərbaycana səfər edən xarici vətəndaşlar arasında rusiyalılar üstünlük təşkil edib. Bu müddətdə 2 milyon 67 min 278 rusiyalı və 109 min 158 ukraynalı ölkəmizə gəlib. Yalnız 2025-ci ilin yanvar-iyun ayları ərzində 314 min 549 rusiyalı və 17 min 138 ukraynalı Azərbaycana səfər edib. Bu göstəricilər bir daha sübut edir ki, Azərbaycan rusiyalılar üçün həm turizm, həm də müvəqqəti məskunlaşma baxımından hələ də cazibədar və təhlükəsiz bir məkandır.

Şimal qonşumuzun bəzi sosial media platformalarında, müəyyən dairələrdə rusiyalı turistlərin, guya, Azərbaycanda hüquqlarının pozulması, diskriminasiyaya məruz qalmaları barədə iddialar irəli sürülür. Fəqət bu iddialar heç biri rəsmi məlumat və sübutlarla təsdiqlənmir. Əgər bu tip hallar real olsaydı, bu, ilk növbədə Rusiya rəsmiləri tərəfindən dərhal gündəmə gətirilər, beynəlxalq platformalarda səsləndirilərdi. Əlavə olaraq, Azərbaycanda fəaliyyət göstərən beynəlxalq təşkilatlar, həmçinin yerli və xarici media nümayəndələri tərəfindən indiyə qədər rusiyalı turist və ya sakinlərin hüquqlarının pozulması ilə bağlı heç bir fakt qeydə alınmayıb. Bu faktın özü ittihamların əsassız və fərdi mülahizəyə söykəndiyini göstərir.

Azərbaycana gələn rusiyalıların sosial şəbəkələrdə paylaşdıqları təəssürat və rəylər onların burada özlərini təhlükəsiz və rahat hiss etdiklərini göstərir. Paylaşımlarda yerli əhalinin səmimiliyi və qonaqpərvərliyi xüsusi vurğulanır. İnsanlar gündəlik həyatda onlara göstərilən diqqət və mehriban münasibətdən məmnun olduqlarını qeyd edirlər. Bakı və digər şəhərlərin təmizliyi, müasir infrastrukturu və gözoxşayan mənzərələri fotolarla paylaşılır. Rus dilində ünsiyyətin geniş yayılması, xüsusən yaşlı nəsil üçün əlavə üstünlük kimi qiymətləndirilir. Gecə saatlarında belə küçədə təhlükəsiz gəzmək imkanı onların təəccüb və məmnuniyyətinə səbəb olur. Azərbaycanın hüquq sistemi bu məsələdə şəffaflıq və bərabərlik prinsipinə əsaslanır. Konstitusiyanın 69-cu maddəsinə əsasən, əcnəbilər və vətəndaşlığı olmayan şəxslər Azərbaycan Respublikasında olduqları müddətdə, qanunla başqa hal nəzərdə tutulmayıbsa, Azərbaycan vətəndaşları ilə eyni hüquqlardan istifadə edə və eyni vəzifələri yerinə yetirə bilərlər. Bu normativ baza Azərbaycanda müvəqqəti və ya daimi yaşayan əcnəbilərin, o cümlədən rusiyalı turistlərin hüquqlarını tam şəkildə təmin edir. Bu, təkcə daxili hüquqi normativ deyil, eyni zamanda, beynəlxalq insan hüquqları konvensiyasına riayət edilməsi deməkdir.

*

Amma biz eyni sözləri Rusiya ərazisində yaşayan azərbaycanlılarla bağlı deyə bilmərik. Orada vəziyyətin tam fərqli olduğu hamıya məlumdur. Yekaterinburqda baş verən və iki azərbaycanlının polis zorakılığı nəticəsində həyatını itirməsi bu sahədəki acınacaqlı durumun göstəricisidir. Rusiya Federasiyasında 2 milyona yaxın azərbaycanlı yaşayır. Onlar əsasən tikinti, kənd təsərrüfatı, ticarət və xidmət sahələrində çalışırlar. Amma tez-tez "qonaq işçi" stereotipi ilə üzləşir, sosial və hüquqi cəhətdən "ikinci növ vətəndaş" kimi qəbul olunurlar. Bu hal artıq sistematik xarakter daşıyır.

Beləliklə, Azərbaycanda rusiyalıların hüquqlarının pozulması ilə bağlı iddiaların hüquqi və faktiki heç bir əsası yoxdur. Əksinə, statistik göstəricilər, rəsmi sənədlər və ictimai rəy göstərir ki, rusiyalı turistlər və müvəqqəti qonaqlar ölkəmizdə təhlükəsiz, hüquqi baxımdan qorunan, sosial baxımdan isə hörmətli mühitdə yaşayır və özlərini rahat hiss edirlər. Bu, Azərbaycan dövlətinin insan hüquqlarına və beynəlxalq hüquq normalarına sadiqliyinin bariz təzahürüdür. Azərbaycan bu prinsipləri rəhbər tutaraq, vətəndaşlığından, milliyyətindən və dini mənsubiyyətindən asılı olmayaraq öz ərazisindəki bütün insanlara bərabər və ədalətli münasibət göstərir. Bu, sivil və tolerant Azərbaycan dövləti və cəmiyyəti üçün xarakterik cəhətdir.

***Pünhan ƏFƏNDİYEV***
***XQ***

**Ekspert rəyi**

**Əmir ƏLİYEV,**
**hüquq elmləri doktoru, professor**



Ölkəmizə gələn bütün əcnəbilər, o cümlədən Rusiya Federasiyası vətəndaşları Azərbaycan Respublikasının Konstitusiyası və qüvvədə olan qanunvericiliklə qorunan hüquq və azadlıqlara malikdirlər. Heç bir halda onların milli mənsubiyyətinə, dilinə, dini etiqadına və ya vətəndaşlığına görə ayrı-seçkiliyə məruz qalması mümkün deyil. Konstitusiyanın 69-cu maddəsinə əsasən, əcnəbilər və vətəndaşlığı olmayan şəxslər Azərbaycan Respublikasında olarkən, qanunla və ya Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilə ilə başqa hal nəzərdə tutulmayıbsa, Azərbaycan vətəndaşları ilə bərabər bütün hüquqlardan istifadə edə bilər və bütün vəzifələri yerinə yetirməlidirlər.

Yəni, Azərbaycan ərazisində olan hər bir əcnəbi – istər turist, istər iş adamı, istərsə də tələbə yerli vətəndaşlarla eyni hüquqlara malikdir. Bu norma birbaşa Konstitusiyada təsbit olunub və heç bir subyektiv münasibətlə dəyişdirilə bilməz.

Azərbaycanda əcnəbilərin hüquqları həm də Miqrasiya Məcəlləsi, Turizm haqqında Qanun və digər normativ aktlarla dəqiq tənzimlənir. Bu qanunvericilik onların sərbəst hərəkət etmək, yaşayış yeri seçmək, mülkiyyətə sahib olmaq, məhkəmələrə müraciət etmək, mədəni və sosial həyatda iştirak etmək və digər əsas hüquqlarını təmin edir. Bundan əlavə, turizm fəaliyyəti ilə bağlı hüquqi münasibətlər dövlət orqanlarının daimi nəzarəti altındadır.

Ölkəmiz regionda turizmin inkişafına xüsusi əhəmiyyət verir. Bu gün Bakıda, Qarabağ bölgəsində və digər şəhərlərdə turistlərin rahatlığı üçün yaradılan şərait, sərmayə yatırılan infrastruktur bunun bariz nümunəsidir. Eyni zamanda, Azərbaycanın beynəlxalq öhdəlikləri də əcnəbilərin, o cümlədən turistlərin hüquqlarının qorunmasına təminat verir:

Azərbaycan İnsan hüquqları və əsas azadlıqların müdafiəsi haqqında Avropa Konvensiyasına (1950) qoşulub. Konvensiyanın 14-cü maddəsində ayrı-seçkiliyin yolverilməzliyi təsbit edilib. Həmçinin Konvensiyanın 4 saylı Protokolunun 2-ci maddəsinə əsasən, hər kəsin, o cümlədən əcnəbilərin və turistlərin sərbəst hərəkət etmək və istədikləri zamana qanuni yollarla dövlət sərhədini tərk etmək hüququ var. Bundan başqa, Azərbaycan BMT-nin 1966-cı il "Mülki və siyasi hüquqlar haqqında Beynəlxalq Pakt"ın tərəfdaşıdır. Paktın 12-ci maddəsi hansısa dövlətin ərazisində olan hər bir kəsin bu ərazinin hüdudları daxilində sərbəst hərəkət etmək və yaşayış yerini sərbəst seçmək hüququnu tanıyır. 13-cü maddəyə görə isə əcnəbilər yalnız qanuni əsaslarla ölkədən çıxarıla bilər, başqa sözlə, turistlərin əsassız deportasiyası yolverilməzdir.

Azərbaycan qoşulduğu 1965-ci tarixli irqi ayrı-seçkiliyin bütün formalarının ləğv edilməsi haqqında Konvensiyanın 5-ci maddəsinə görə isə Azərbaycan ərazisində olan bütün şəxslərə qarşı irqi ayrı-seçkiliyin bütün formalarını qadağan və ləğv etməyi və irqinə, dərisinin rənginə, milli, yaxud etnik mənşəyinə görə fərq qoyulmadan hər bir insanın hüquqlarını təmin etməyi özü öhdəsinə götürmüşdür.

Azərbaycan həm də turistlərin hüquqlarının daha səmərəli qorunması və onların ölkəmizdə rahatlığının təmin edilməsi üçün konkret addımlar atır. Məsələn, 2024–2026-cı illər üzrə Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasında imzalanmış "Turizmin İnkişafı Yol Xəritəsi" məhz bu məqsədə xidmət edir. Sözügedən sənəd qarşılıqlı turizm əlaqələrinin genişləndirilməsini, regionlararası əməkdaşlığı, turizm infrastrukturunun inkişafını, eləcə də vətəndaşların qarşılıqlı səfərlərinin daha təhlükəsiz və əlverişli təşkilini nəzərdə tutur.

Bütün bu hüquqi çərçivə göstərir ki, Azərbaycan əcnəbilərin və turistlərin hüquqlarının qorunması məsələsində həm milli qanunvericiliyə, həm də beynəlxalq öhdəliklərə söykənən sistemli təminatlar yaradıb.

Odur ki, rus turistlərin ölkəmizdə, guya, hüquqlarının pozulması barədə yayılan iddiaların reallıqla heç bir əlaqəsi yoxdur. Bunu Azərbaycanın beynəlxalq imicinə kölgə salmağa yönələn təbliğat kampaniyasının elementi hesab edirəm.

# Qarabağ Zəfəri ədalətsiz vasitəçiliyə son qoydu

**Erməni işğalına son qoyulması üçün rəsmi Bakının İrəvanla uzun illər ərzində beynəlxalq vasitəçilərin iştirakı ilə apardığı danışıqlar təəssüf ki, heç bir real nəticə vermədi. İndi son günlərini yaşayan ATƏT-in mənfur Minsk qrupu çərçivəsində keçirilən saysız-hesabsız görüşlər, irəli sürülən həll variantları, verilən bəyanatlar və qəbul edilən qərarlar kağız üzərində qaldı. Azərbaycan hər zaman beynəlxalq hüquq normalarına əsaslanan ədalətli həll yolunu tələb etsə də, qarşı tərəf buna əməl etmədi. Ermənistan tərəfi qeyri-konstruktiv mövqeyi ilə prosesi daim uzatdı və sülh imkanlarını boşa çıxardı. İşğal altında inləyən torpaqların azad olunması istiqamətində atılacaq addımlar hər dəfə süni şəkildə dalana dirəndi. Bu səbəbdən danışıqlar prosesi illərlə status-kvonun qorunub saxlanılmasına xidmət edən bir vasitəyə çevrildi. Nəticədə, sülh yolu ilə həll edilməsi mümkün olan problem rəsmi İrəvanın destruktiv siyasəti ucbatından müharibə mərhələsinə qədəm qoydu.**

Bu məsələ Prezident İlham Əliyevin avqustun 21-də Kəlbəcər şəhərinə köçən sakinlərlə görüşündə toxunduğu məsələlərdən biri oldu. Dövlətimizin başçısı çıxışında bildirdi ki, uzun sürən danışıqlar heç bir nəticə verməmişdi, verə də bilməzdi: "Çünki birincisi, Ermənistan bir qarış torpaq qaytarmaq fikrində deyildi və danışıqlarda, sadəcə olaraq, görüntü yaratmaq naminə iştirak edirdi. Bu məsələ ilə məşğul olmalı olan üç ölkə – Fransa, Rusiya və Amerika məsələni həll etmək əvəzinə, münaqişəni dondurmaq istiqamətində işlər aparırdı və faktiki olaraq erməni işğalına hüquqi don geyindirmək üçün dəridən-qabıqdan çıxırdı. Məhz buna görə münaqişə sülh yolu ilə həll olunmadı".



Bəli, Prezident İlham Əliyev hər bir məsələdə olduğu kimi, danışıqlar prosesi ilə də bağlı olduqca doğru-düzgün mühakimə yürüdür. Bu da təbiidir. Çünki zəngin dövlətçilik təcrübəsinə malik Prezident İlham Əliyev 17 il ərzində danışıqların bilavasitə iştirakçısı olub. Həqiqətən də həm Ermənistanın, həm də üç həmsədr dövlətin özəl maraqlarının mövcudluğu şəraitində aparılan danışıqlar heç bir nəticə verə bilməzdi. Proses real nəticə əldə etmək üçün yox, görüntü xatirinə aparılırdı. Ermənistanın hərbi-siyasi rəhbərliyi, əlbəttə, torpaq qaytarmaq fikrindən çox-çox uzaq idi. Onlar nəinki keçmiş Dağlıq Qarabağ Muxtar Vilayətindən hansısa əraziləri, vilayətə heç vaxt daxil olmayan ətraf 7 rayonun (Ağdam, Füzuli, Kəlbəcər, Laçın, Cəbrayıl, Qubadlı və Zəngilan) bir santimetr ərazisini də əzəli sahiblərinə geri vermək niyyətində deyildilər. Ermənilər bu rayonlardan müdafiə xəttinin möhkəmləndirilməsi, fortifikasiya qurğularının qurulması, bir sözlə, bufer zonasının yaradılması üçün istifadə edirdilər. Müxtəlif dövrlərdə danışıqlar prosesində işğal altındakı ətraf rayonlardan əvvəlcə beşinin, sonra isə ikisinin (Laçın və Kəlbəcərin) qaytarılması barədə müzakirələrin getməsinə baxmayaraq, son nəticədə heç vaxt razılaşma əldə etmək mümkün olmadı. Bu da maraqlıdır ki, rəsmi İrəvan heç vaxt torpaqları qaytarmayacağını açıq mətnlə bildirmirdi. Xüsusilə ölkənin birinci, ikinci və üçüncü prezidentləri hər zaman hansısa qarşılıqlı güzəştlərdən, sülh və sabitlikdən danışır, münaqişəni gələcək nəsillərə saxlamamağın vacibliyini bildirirdilər. Ancaq real kompromisə getmək lazım gələndə, sülh üçün addım atmaq zəruri olanda onların maskaları yırtılır, əsl simaları nümayiş olunurdu. Yaxud da Ermənistan rəhbərləri həlledici məqamlarda sivişib aradan çıxırdılar. Biz bunun bariz nümunəsini şərti olaraq Rambuye danışıqları adlanan proses zamanı görmüşdük. 2006-cı il fevralın 10-11-də Paris yaxınlığındakı Rambuye şəhərində eyniadlı qəsrdə aparılan danışıqlar zamanı Robert Koçaryan heç kəsə xəbər vermədən qəsri tərk edərək Parisdən İrəvana uçmuşdu. Sonradan o, bunu həmin vaxt müdafiə naziri işləyən Serj Sarkisyanın qayınanasının ölümü ilə əlaqələndirsə də, əslində, həmin addım münaqişənin həlli üçün təklif olunan şərtləri qəbul etməkdən yayınmaqla bağlı idi.

Digər mühüm məsələ üç həmsədr dövlətin prosesdə oynadıqları rolla bağlı idi. Azərbaycanın haqlı olaraq tənqid etdiyi əsas məsələ ondan ibarətdir ki, uzun illər vasitəçi qismində çıxış edən Fransa, Rusiya və ABŞ ədalətli mövqe sərgiləmədilər. Əksinə, hər üç dövlət öz geosiyasi maraqlarını önə çəkərək münaqişənin həllini uzatmağa çalışdılar. Rusiya açıq-aşkar Ermənistanı hərbi-siyasi cəhətdən dəstəkləyir, ona silah satır və bu ölkəni bölgədə öz forpostu kimi saxlayırdı. Fransa isə erməni diasporunun təsiri altında daim birtərəfli mövqe tutaraq, Azərbaycanın legitim tələblərini görməzdən gəlirdi. ABŞ da bu məsələdə real vasitəçilik missiyasını yerinə yetirmək əvəzinə, bölgədə balans yaratmaq adı altında faktiki olaraq mövcud vəziyyətin qalmasına çalışırdı. Prezident İlham Əliyevin qeyd etdiyi kimi, məhz bu səbəbdən danışıqlar nəticəsiz qaldı və münaqişənin sülh yolu ilə həlli mümkünsüz oldu.

Prezident haqlı olaraq bildirir ki, əgər o vaxt Ermənistana qarşı ciddi sanksiyalar tətbiq edilsəydi, əgər işğalçı dövlət böyük dövlətlər tərəfindən cəzalandırılsaydı, əlbəttə, Ermənistan bizim torpaqlarımızı sülh yolu ilə qaytara bilərdi: "Sadəcə olaraq, onlara zərrə qədər təzyiq göstərilmədi, əksinə, onlar üçün bütün imkanlar açılmışdı. Bəzi ölkələr onlara milyardlarla dollar dəyərində pulsuz silahlar verirdi. İkinci Qarabağ müharibəsi və antiterror əməliyyatı nəticəsində məhv etdiyimiz və hərbi qənimət kimi götürdüyümüz Ermənistan ordusuna xaricdən verilən silahların qiyməti təqribən 5-6 milyard dollar dəyərindədir. Təbii ki, Ermənistanın bu qədər silah almaq üçün pulu yox idi. Bütün bu silahlar onlara pulsuz verilirdi, bir məqsədlə ki, işğal davam etsin, bir məqsədlə ki, azərbaycanlılar heç vaxt öz dədə-baba torpaqlarına qayıtmasınlar, bir məqsədlə ki, Ermənistanla Azərbaycan arasında bu münaqişə sülh yolu ilə həll olunmasın. Mən bunu dəfələrlə demişəm və bu, tam həqiqətdir".

Dövlətimizin başçısının fikirləri beynəlxalq ədalətsizliyin aydın təsviridir. Əgər vaxtında Ermənistana qarşı ciddi sanksiyalar tətbiq edilsəydi, işğalçı dövlətin manevr imkanları minimuma enərdi və münaqişə sülh yolu ilə həllini tapa bilərdi. Lakin böyük dövlətlərin ikili standartlara əsaslanan siyasəti nəticəsində Ermənistan nəinki cəzalandırılmadı, əksinə, hərtərəfli dəstəkləndi. Ona pulsuz verilən milyardlarla dollar dəyərində silahlar faktiki olaraq işğalın möhkəmlənməsinə xidmət edirdi.

Prezident İlham Əliyev görüş zamanı onu da bildirdi ki, bu məsələni həll etmək mandatı olan ölkələr faktiki olaraq işğalı əbədi etmək istəyirdilər: "Hər gün, hər saat biz bu müqəddəs Zəfər günümüzü yaxınlaşdırırdıq. Güclü iqtisadiyyat qurduq, beynəlxalq müstəvidə Ermənistanı işğalçı dövlət kimi ifşa etdik. Bir çox aparıcı beynəlxalq təşkilatlar bizim səylərimiz nəticəsində mövqeyimizi qəbul etməyə məcbur olmuşdur. Güclü ordu yaratdıq, ən müasir silahlar aldıq və gənc nəsil yetişdirdik. O gənc nəsil ki, Vətən müharibəsində sinəsini qabağa verib torpaqlarımızı düşməndən azad etdi. Allah bütün şəhidlərimizə rəhmət eləsin. Biz bu Zəfərə görə onlara, onlar kimi 10 minlərlə Azərbaycan əsgər və zabitinə borcluyuq".

Bəli, dövlətimizin başçısının 2003-cü ildən bəri səsləndirdiyi fikirlər – torpaqların mütləq azad ediləcəyinə inam – siyasi kursun dəyişməz prinsipi oldu. Bu illər ərzində ölkəmiz güclü iqtisadiyyat qurdu, beynəlxalq aləmdə haqlı mövqeyini tanıtmaq üçün məqsədyönlü fəaliyyət apardı və Ermənistanın işğalçı simasını ifşa etdi. Paralel olaraq, ən müasir silahlarla təchiz olunmuş qüdrətli ordu formalaşdırıldı, vətənpərvər gənc nəsil yetişdirildi. Nəticədə, 2020-ci ildə Azərbaycan əsgəri və zabiti canı, qanı bahasına torpaqlarımızı azad edərək tarixi Zəfəri təmin etdi. Bu uğur həm xalqımızın səbrinin, həm də dövlətimizin strateji iradəsinin nəticəsi oldu.



**Dövlət İdarəçilik Akademiyasının müşaviri, politoloq Zaur Məmmədov XQ-yə açıqlamasında bildirdi ki,** Ermənistanla Azərbaycan arasında onilliklər boyu aparılan danışıqların nəticəsiz qalması, əslində, həm işğalçı dövlətin destruktiv mövqeyindən, həm də vasitəçi ölkələrin ədalətsiz siyasətindən qaynaqlanırdı: "Prezident İlham Əliyevin qeyd etdiyi kimi, Ermənistan bir qarış torpaq qaytarmaq niyyətində deyildi, Minsk qrupunun həmsədrləri isə real həll yolları axtarmaq əvəzinə, status-kvonu möhkəmləndirmək üçün çalışırdılar. Bu ölkələrin biri Ermənistana silah verirdi, digəri siyasi dəstək göstərirdi, üçüncüsü isə beynəlxalq müstəvidə imtiyazlar tanıyırdı. Nəticədə işğal faktiki olaraq legitimləşdirilməyə cəhd edilirdi. Əgər vaxtında Ermənistana qarşı sanksiyalar tətbiq edilsəydi, əgər ona milyardlarla dollar dəyərində pulsuz silahlar verilməsəydi, münaqişə çoxdan sülh yolu ilə həll edilə bilərdi. Lakin beynəlxalq güclərin ikili standartları Azərbaycanın haqq işini çətinləşdirdi".

Politoloq dedi ki, buna baxmayaraq, güclü iqtisadiyyatın qurulması, ordunun modernləşdirilməsi və xalqın sarsılmaz iradəsi sayəsində 2020-ci ildə tarixi Zəfər əldə olundu. Bu gün həmin ədalətsiz mövqelər iflasa uğrayıb, Azərbaycan isə ərazi bütövlüyünü və suverenliyini təmin edib.

***Səxavət HƏMİD***
***XQ***

**Doğrudan da, Kəlbəcər Azərbaycanın çox dəyərli bir guşəsidir. Həm təbiətinə – dağlarına, meşələrinə, çaylarına, bulaqlarına görə, həm də orada olan çox qiymətli yeraltı sulara, mərmər, qızıl, başqa əlvan metalların yataqlarına görə çox qiymətli bir yerdir. O vaxtlar, keçmişdə biz Kəlbəcərin inkişafı üçün çox səylər göstərmişdik. İstisuda böyük kompleks tikilmişdi. Bu, neçə-neçə nəsillərin yaratdığı abidələr, yaşayış binaları idi. Təəssüf ki, vaxtilə qızıl yataqlarından istifadə edilməsi ilə məşğul olmamışdılar.**

***Ümummilli lider Heydər Əliyevin Kəlbəcərin işğalının üçüncü ildönümündə bu rayondan olan məcburi köçkünlərlə görüşdəki çıxışından***

# Bu gün gülə-gülə qayıdır geri – ağlaya-ağlaya köçən Kəlbəcər

**Kəlbəcər şəhəri indi dünyanın ən gözəl mənzərəli şəhərlərindən birinə çevrilir. Siz artıq birinci yaşayış kompleksində evlərlə təmin olunursunuz, amma inşaat işləri bununla bitmir. Bu gün təməlini qoyduğum növbəti yaşayış komplekslərində yaxın gələcəkdə sizin qohumlarınız, dostlarınız gəlib yerləşəcək. Birinci mərhələdə "Böyük Qayıdış" Proqramı çərçivəsində Kəlbəcər şəhərində dörd yaşayış kompleksinin inşası nəzərdə tutulur və bu binalarda 10 mindən çox insan yaşayacaq.**

***Azərbaycan Prezidenti İlham Əliyevin Kəlbəcərdəki birinci yaşayış kompleksinin ərazisində fərdi və çoxmərtəbəli evlərə köçən sakinlərlə görüşdəki çıxışından***



**(əvvəli 1-ci səhifədə)**

Bu rəhmətlik (Allah atası Yunis kişiyə də rəhmət eləsin!) işğalın ilk illərində soydaşlarına və həmyerlilərinə təsəlli vermək məqsədilə yazdığı şeirlərdən birində olduqca mükəmməl uzaqgörənlik eləmişdi:

***Sücaət, neyləyək, baxt belə baxtdır,***
***Darıxma, hər şeyi həll edən vaxtdır.***
***Bir gün gülə-gülə qayıdacaqdır,***
***Ağlaya-ağlaya köçən Kəlbəcər.***

Çox təəssüf ki, şair Kəlbəcərin bugünkü cah-cəlalını görmədi. Ancaq xoşbəxtliyi odur ki, bu günün gələcəyini görmüş və qələmə almışdı. "Hər şeyi vaxt həll edəndən" sonra – avqustun 21-də dövlət başçımızla görüşən kəlbəcərlilərin gözündəki sevinci, xoşbəxtliyi videolentə almağa nə var ki? Hünər həmin hisslərin qələmə alınmasıdır ki, onu da biz bacarmırıq. Sanki həmin adamların hər birinin canında İstisuyun hərarəti, Murovun görkəmi, Aşıq Şəmşirin sazının səsi var idi.

Haqqında söz açmaq istədiyim ikinci kəlbəcərli isə bu diyarın düşmən tapdağında qaldığı üç onillikdə az qala hər il Kəlbəcər mövzulu bir kitab ərsəyə gətirmiş yazıçı-publisist Məhəmməd Nərimanoğludur. Bu adamın zəhmətkeşliyi, yorulmazlığı bir möcüzədirsə, onun Kəlbəcərin bütün sakinlərinin taleyi ilə maraqlanması, nəinki rayonun hər kəndini, hətta, hər daşını, qayasını tanıması başqa bir heyrətamiz faktdır. M.Nərimanoğlu bir neçə il qabaq ağır xəstəlikdən müalicə olunanda onun haqqında yazdığım məqaləyə bu adı vermişdim: "Xəstənin diaqnozu: Kəlbəcər həsrəti".

Ancaq bu sətirlərdə Məhəmməd Nərimanoğlunu yada salmaqda başqa bir məqsədim var. Bu həmkarımız ulu öndər Heydər Əliyevin 90 illiyi münasibətilə keçirilən müsabiqələrdən biri üçün yazdığı məqaləyə çox maraqlı bir sərlövhə seçmişdi: "Qoşa Zirvə: Heydər Əliyev – Kəlbəcər". 2013-cü il aprelin 27-də "Modern.az" saytında verilmiş həmin yazının az qala bütün tezisləri üç gün əvvəl Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyevanın kəlbəcərlilərlə görüşündə dəfələrlə dilə gətirildi. Görüşdəki səmimiyyət, insani münasibətlər barədə hələ çox yazılacaq.

Ancaq mən həmin tədbirlərin hər birində ulu öndərin siyasi uzaqgörənliyinin, Şərq müdriklərinə xas özünə inam, xalqına etibar hisslərini də görürdüm. Elə ona görə də M.Nərimanoğlu qoşa zirvədən danışarkən xatırladırdı ki, Heydər Əliyev yetmişinci illərin əvvəllərində Kəlbəcər Rayon Partiya Komitəsinin birinci katibinə demişdir: "Mərkəzi Komitədə və Nazirlər Sovetində belə söhbətlər gedirdi ki, Kəlbəcər perspektivsiz bir rayondur, özünü doğrulda bilmir. Yeganə yol, guya onun əhalisini aran rayonlarına köçürmək, ərazini isə yaylaq kimi bölüşdürməkdir. Lakin bu fikir məndə həmişə şübhə doğurub. Səmimi olmasına heç vaxt inanmamışam. Odur ki, bu barədə mənə təklif olunan layihəyə də qol çəkməmişəm...".

Diqqət yetirin, ermənipərəst sovet ideoloqları "Kəlbəcər perspektivsiz bir rayondur"– deyirdilər. İndi isə cənab Prezident İlham Əliyevin avqustun 21-də həmin "perspektivsiz" rayon mərkəzinin bu günü barədə dediklərinə diqqət yetirək: "Bu gün, o cümlədən ona görə tarixi bir gündür ki, ölkəmizin ən böyük rayonu olan Kəlbəcər və onun şəhəri artıq canlanır, buraya həyat qayıdır və əminəm ki, siz burada rahat yaşayacaqsınız. Siz buna layiqsiniz. Uzun illər ərzində ağır şəraitdə – çadırlarda, uyğunlaşdırılmış binalarda, uşaq bağçalarında, yataqxanalarda – müxtəlif yerlərdə yaşamısınız, həyatınız çox ağır olub".

Prezident həmin "perspektivsiz" rayonun həm Azərbaycan, həm də Ermənistan üçün nə qədər əhəmiyyət kəsb etdiyini konkret faktlarla dilə gətirir: "Kəlbəcərin işğalı bizim üçün bütün başqa yaşayış məntəqələrimizin işğalı kimi böyük faciə idi. Kəlbəcərin işğalı həm də strateji nöqteyi-nəzərdən Azərbaycan üçün çox böyük problemlər yaradırdı. Çünki Ermənistanla ovaxtkı Dağlıq Qarabağ Muxtar Vilayəti arasında coğrafi bağlantı yaradılırdı. 1992-ci ilin may ayında Şuşa və Laçının işğal altına düşməsi artıq o bağlantını yaratmışdı və o vaxt "Laçın dəhlizi" adlandırılan yol faktiki olaraq bizim torpaqlarımızın gələcək işğalına yol açmışdı. Kəlbəcərin işğalı isə çox böyük bir coğrafi ərazi üzrə Ermənistanla keçmiş "DQMV" arasında coğrafi bağlantı yaratmış və beləliklə, digər torpaqlarımızın işğalına yol açmışdır".

Təəssüf ki, müasir tariximizin ən kədərli faktlarından olan torpaqlarımızın işğalı ikili standartlardan əl çəkə bilməyən beynəlxalq ictimaiyyətin on illər boyu Ermənistana himayədarlıq etməsi nəticəsində baş vermişdi. Ancaq ulu öndərin dediyi kimi, bunun üçün zaman yetişməli idi. Prezident İlham Əliyevin əzmi, qətiyyəti və prinsipiallığı həmin zamanı yetişdirdi. Ali Baş Komandanımızın da xatırlatdığı kimi, Azərbaycan dövləti və Azərbaycan xalqı yetişən zamandan məharətlə istifadə edərək bir yumruq kimi birləşdi və biz Ermənistanı cəmi 44 gün ərzində kapitulyasiya aktını imzalamağa məcbur etdik.

Bu gün isə başqa bir zaman yetişib. On illər boyu Azərbaycanın haqlı mövqeyinə, ədalətli tələblərinə məhəl qoymayan, erməni işğalını əbədiləşdirmək üçün min bir saxtakarlığa əl atan mənfur Minsk qrupu artıq son günlərini yaşayır. Cənab Prezident Kəlbəcərdə növbəti dəfə xatırlatdı ki, həmin qrup faktiki olaraq heç bir fəaliyyət göstərmirdi və göstərə də bilməzdi. Ancaq hüquqi cəhətdən mövcud idi.

Zaman indi Ermənistana diktə etməkdədir. Bir neçə ay əvvələdək gündə bir bəhanə ilə sülh danışıqlarından imtina edən İrəvan rəhbərliyi indi artıq sülh sazişini bizdən çox istədiyini sübut etməyə çalışır. Halbuki, Vaşinqtonda imzalanmış məlum sənədlərin də, sülh müqaviləsinin də müəllifi bizik. Dövlət başçımız xatırladır ki, paraflanmış sənəddəki bəndlərin tərtibatında bizim mövqeyimiz hər zaman əsas götürülmüşdür: "Bu sənədin paraflanması faktiki olaraq Ermənistan–Azərbaycan qarşıdurmasına son qoyur. Bununla bərabər, bizim tarixi diyarımız olan Naxçıvanla quru bağlantısı da təmin edildi. 2020-ci ilin noyabrından son günlərə qədər biz təkidlə bu məsələni daim gündəlikdə saxlayırdıq və müxtəlif yollarla bu məqsədə çatmaq üçün səylər göstərirdik və nəhayət, biz buna da nail olduq. Artıq Ermənistan bu öhdəliyi də üzərinə götürmüşdür və ümid edirəm ki, yaxın bir neçə il ərzində biz qatar və avtomobillərlə Azərbaycanın əsas hissəsindən Naxçıvana gedə biləcəyik".

Ali Baş Komandan Kəlbəcərə qayıtmış keçmiş məcburi köçkünlərə dedi ki, siz burada əbədi və təhlükəsizlik şəraitində yaşayacaqsınız. Təbii ki, bu qətiyyətin əsasında qüdrətli Azərbaycan Ordusuna olan inam dayanır: "Pilotsuz uçuş aparatlarının ən müasirləri, yeni artilleriya sistemləri ölkəmizə gətirilib. İndi yeni döyüş təyyarələri üzrə kontraktlar bağlanıb və mövcud olan təyyarələr tam müasirləşdirilib. Biz hər an müharibəyə hazır olmalıyıq. Çünki dünyada proseslər elə istiqamətdə gedir ki, bilmək olmaz sabah nə olacaq. Bizim təhlükəsizliyimizin qarantı biz özümüzük – dövlət, xalq və Silahlı Qüvvələrimiz. Ona görə, əgər kiminsə xəstə ağlına Azərbaycana qarşı hər hansı bir təxribat törətmək gələrsə, məncə, yenə də peşman olacaq. Biz isə bundan sonra müzəffər xalq və qalib dövlət kimi yaşayacağıq".

Azərbaycan Prezidenti dəfələrlə deyib ki, mənim bütün uğurlarımın təməlində xalqın inamı, dəstəyi dayanır. Həmin inam, etimad haqqında eşitdiyimiz çoxsalı fikirlərdən biri də Kəlbəcərdə səsləndirildi. Milli Qəhrəman Hökumə Əliyevanın atası Cəlil Alıyev dövlət başçımıza xitabən dedi ki, biz həmişə Sizin yanınızda durmalıyıq. Bir olmalıyıq. Yumruq kimi birləşməliyik: "Böyük Qayıdış"ı başa çatdırmalıyıq. Mənim qızım Hökumənin sözü olmasın, hər şey yaxşı olacaq".

Bu sətirləri cənab Ali Baş Komandanımızın 2021-ci il avqustun 16-da Kəlbəcərdə Azərbaycanın Dövlət bayrağını ucaltdıqdan sonrakı çıxışından seçdiyimiz cümlələrlə tamamlayırıq: "Beləliklə, biz bundan sonrakı əsas hədəfləri düzgün müəyyən edərək, bu hədəflərə çatmağa nail olacağıq. Biz bu gün buradayıq, Kəlbəcərdəyik, Azərbaycanın çox gözəl guşələrindən biri olan Kəlbəcərdəyik və biz bundan sonra burada əbədi yaşayacağıq. Yaşasın Azərbaycan! Eşq olsun Azərbaycan xalqına!".

***İttifaq MİRZƏBƏYLİ***

---

**ABŞ-da imzalanmış sənədlər İran və Ermənistan arasında dəmir yolu əməkdaşlığı üçün yeni imkanların yaranmasına səbəb olub. Bu barədə Ermənistan Baş naziri Nikol Paşinyan bildirib. O, bu sənədləri regionda nəqliyyat kommunikasiyalarının bərpası və iqtisadi inteqrasiyanın gücləndirilməsi baxımından mühüm mərhələ kimi qiymətləndirib və Naxçıvan–Culfa dəmir yolu xətti vasitəsilə İran–Ermənistan–Qara dəniz marşrutunun formalaşmasına imkan yaratdığını deyib. Bu isə İranın ilk dəfə dəmir yolu vasitəsilə Qara dənizə çıxış əldə etməsi deməkdir. Ermənistan öz növbəsində bu layihə ilə regional tranzit qovşağı kimi mövqeyini gücləndirmək niyyətindədir.**

# Reallıq, yoxsa siyasi ritorika?



Onu da qeyd edək ki, Tehran da bu təşəbbüsə maraq göstərir. İranın Yollar və şəhərsalma naziri Fərzaneh Sadeqi bildirib ki, Ermənistan ərazisindən keçməklə Fars körfəzi və İranın cənub sərbəst suları Qara dənizlə birləşdiriləcək. Bu marşrut həm dəmir yolu, həm də avtomobil yolu bağlantısını əhatə edir. Tehran bu dəhlizlə Rusiyaya əlavə çıxış imkanı qazanmaq istəyir.

İlk baxışda hər şey cəlbedici görünür. Amma layihənin reallaşması bir sıra ciddi texniki, siyasi və infrastruktur problemlərlə qarşı-qarşıyadır. Çünki son 30 ildə regionun dəmir yolu kommunikasiya xəritəsi tamamilə dəyişib. Sovet dövründə formalaşmış vahid nəqliyyat sistemi parçalanıb, regional əlaqələr zəifləyib, bir çox hallarda tamamilə kəsilib.

Bu kontekstdə Azərbaycan milli maraqlarına uyğun olaraq yeni dəmir yolu xətləri inşa edib və alternativ marşrutlar formalaşdırıb. Bakı–Tbilisi–Qars dəmir yolu vasitəsilə Azərbaycan Gürcüstan və Türkiyə üzərindən Avropaya birbaşa çıxış əldə edib. Astara–Rəşt xətti isə İran və Hind okeanı limanlarına uzanan Şimal–Cənub nəqliyyat dəhlizinin əsas hissəsinə çevrilib. Həmçinin Qars–İğdır–Dilucu–Naxçıvan layihəsi Zəngəzur dəhlizi üçün əlavə imkanlar yaratmaqla, regionun izolasiya vəziyyətini aradan qaldırmağa yönəlib. Beləliklə, ölkəmiz regionun dəmir yolu xəritəsini təkcə coğrafi deyil, siyasi və iqtisadi baxımdan da yenidən qurub.

Ermənistan isə son onilliklər ərzində regionda baş verən nəqliyyat və infrastruktur dəyişikliklərinə cavab vermək baxımından geri qalıb. Ölkənin dəmir yolu sistemi hələ də sovet dövründən miras qalmış infrastruktur üzərindədir. Bu xətlər uzun müddət texniki baxımdan yenilənmədiyi üçün müasir standartlara cavab vermir. Əksər magistrallar köhnə relslər və texnologiyalarla işləyir, bu da yükdaşıma qabiliyyətini, hərəkət sürətini əhəmiyyətli dərəcədə məhdudlaşdırır. Texniki geriliklə yanaşı, şəbəkənin coğrafi əhatəsi də daralıb. Bir sıra bölgələrdə, xüsusilə Ermənistanın cənub və qərb hissələrində dəmir yolu xətləri ya uzun illərdir fəaliyyətsizdir, ya da tamamilə sökülüb. Bu isə ölkə daxilində və xaricə yönəlik nəqliyyat əlaqələrinin zəifləməsinə səbəb olub. Ermənistan hazırda yalnız Gürcüstanla dəmir yolu bağlantısına malikdir. Tbilisi üzərindən Poti və Batumi limanlarına çıxış təmin olunsa da, bu marşrut tez-tez texniki və logistik çətinliklərlə üzləşir.

*

Müasir regional layihələr, o cümlədən Bakı–Tbilisi–Qars, Şimal–Cənub və Zəngəzur dəhlizi kimi təşəbbüslər Cənubi Qafqazda yeni nəqliyyat arxitekturası formalaşdırdığı halda, Ermənistan bu proseslərdə iştirak etməyib və öz infrastrukturunu bu şəbəkələrə qoşmaq üçün əsaslı təşəbbüs göstərməyib. Əvəzində, ölkənin dəmir yolu sahəsindəki vəziyyət daha çox statik qalıb və geosiyasi reallıqlara uyğun olaraq çevik şəkildə modernizasiya olunmayıb.

Beləliklə, Ermənistanın dəmir yolu infrastrukturu hazırda nə regionun artan tələblərinə cavab verir, nə də yeni beynəlxalq nəqliyyat marşrutlarına effektiv şəkildə inteqrasiya oluna bilir. Bu da ölkənin həm iqtisadi, həm də geosiyasi baxımdan izolə olunmuş vəziyyətinin davam etməsinə gətirib çıxarır.

Bu səbələrdən də İranın Ermənistan üzərindən Poti limanına çıxış əldə etməsi üçün, ilk növbədə, iki ölkənin dəmir yolunu birləşdirəcək Naxçıvan–Yerasx xətti işlək vəziyyətə gətirilməlidir. Maraqlıdır ki, vaxtilə fəaliyyət göstərmiş bu xətt hazırda istifadəyə yararsız vəziyyətdədir. Onun bərpası üçün ciddi maliyyə və texniki resurslar tələb olunur. Əgər Ermənistan bu marşrutu bərpa etmədən İranın Gürcüstan limanlarına çıxışını təmin etmək istəyirsə, bu, texniki baxımdan qeyri-mümkün görünür. Hazırkı şəraitdə bu istiqamətdə yalnız siyasi bəyanatlar səslənib, real layihə icrası müşahidə olunmayıb. Deməli, hər iki ölkənin dəmir yolu şəbəkəsini birləşdirəcək Naxşıvan-Yerasx xətti tikilməli, həm də ciddi yenidənqurma işləri həyata keçirilməlidir.

Bundan başqa, İran yüklərinin dəmir yolu ilə Rusiyaya daşınmasında da problemlər var. Dəmir yolunun Abxaziyadan keçən hissəsi də işləmir. Gürcüstan bu xəttin açılmasına qarşıdır və onu ərazi bütövlüyünə təhdid kimi qiymətləndirir. Bu, həm də Gürcüstan limanlarının iqtisadi əhəmiyyətini azaldır, qaçqınların geri dönüşünü çətinləşdirir.

İranın Ermənistan ərazisindən keçməklə şimala bağlayan iki potensial dəmir yolu xətti də var. Onlardan biri Qazax istiqamətindən keçərək Bakıya və Rusiyaya uzanır, digəri isə Naxçıvan və Zəngəzur dəhlizi vasitəsilə Azərbaycanın cənub hissəsindən keçir. Lakin 1988-ci ildən başlayan münaqişə səbəbindən Qazax istiqaməti faliyyət göstərmir, böyük hissəsi sökülüb. Mincivan–Mehri–Culfa dəmir yolu da işləmir, onun Mehri hissəsi isə tamamilə yararsız vəziyyətdədir. Ermənistan ərazisindən keçən Zəngəzur dəhlizinin bərpası üçün isə 226 milyon dollara yaxın sərmayə tələb olunur. Ümumilikdə ölkənin dəmir yolu şəbəkəsinin tam bərpasına milyardlarla dollar investisiya lazımdır ki, bu da Ermənistanın hazırkı maliyyə imkanlarını üstələyir.

Göründüyü kimi, əvvəllər İranın Rusiyaya və Qara dənizə çıxış üçün istifadə etdiyi üç əsas dəmir yolu istiqaməti – Qazax, Naxçıvan və Gürcüstan xəttləri – bu gün müxtəlif səbəblərdən bağlıdır və istismara yararlı vəziyyətdə deyil. Deməli, hazırda İranın Ermənistan ərazisindən keçməklə Gürcüstan limanına və Rusiyaya çıxışı mümkün deyil. Bu reallıq fonunda İran üçün yeni və etibarlı alternativ dəhlizlərin axtarışı zərurətə çevrilib. Bu kontekstdə diqqətəlayiq marşrutlardan biri Naxçıvan–Culfa dəmir yolu xəttidir. Sözügedən xətt regionun nəqliyyat arxitekturası ilə birləşdirildikdə İranın dəmir yolu vasitəsilə Avropaya çıxışı baxımından real imkan yaradır. Bu marşrutun davamı olaraq Qars–İğdır–Aralıq–Dilucu dəmir yolu layihəsi ön plana çıxır. Layihə üzrə artıq 2,4 milyard avro həcmində xarici maliyyə resurslarının cəlb olunması üçün razılaşmalar əldə edilib. Hədəfi regionda nəqliyyat şəbəkələrini genişləndirmək və ticari əlaqələri möhkəmləndirmək olan bu xətt istifadəyə verildikdən sonra İran üçün Avropaya çıxış daha asan, təhlükəsiz və sabit olacaq. Bundan əlavə, Qars–İğdır–Dilucu xətti texniki və siyasi baxımdan daha real və tez icra oluna biləcək layihədir. Bu yolun inşası Naxçıvan–Yerasx xəttinin bərpasından daha sürətli şəkildə həyata keçiriləcək. Qeyd edək ki, Ermənistan ərazisindən keçən dəmir yolu marşrutlarının istifadəyə verilməsi üçün ciddi infrastruktur yenilənməsi, maliyyə sərmayələri və siyasi razılaşmalar tələb olunur. Görülən işlər beynəlxalq standartlara uyğun həyata keçiriləcək.

Qars–İğdır–Dilucu xətti yalnız Azərbaycan və Türkiyəyə deyil, İrana da uzunmüddətli iqtisadi dividentlər vəd edir. Başqa sözlə, bu layihə İranın xarici bazarlara çıxışı üçün alternativ qapıdır. Marşrutun aktivləşdirilməsi təkcə regional əlaqələrin genişlənməsi deyil, həm də İranın geoiqtisadi maraqlarının təmin olunması baxımından mühüm addım ola bilər.

Beləliklə, İran–Ermənistan dəmir yolu əməkdaşlığı müəyyən siyasi maraqlar və niyyətlər çərçivəsində gündəmdə saxlanılsa da, onun real həyata keçirilməsi üçün Ermənistanın ciddi infrastruktur islahatları aparması, daxili dəmir yolu şəbəkəsini modernləşdirməsi və beynəlxalq investisiyaları cəlb etməsi vacibdir. Əks halda, bu təşəbbüs, sadəcə, diplomatik səviyyədə niyyət olaraq qalacaq.

***Ə.PÜNHAN***
***XQ***

# Mehriban Əliyeva – nüfuzlu dövlət xadimi, humanist insan

**Hər kəs doğulduğu torpağın, mənsub olduğu millətin, məmləkətin boy aldığı soyun bir parçasıdır. Azərbaycan Respublikasının Birinci vitse prezidenti, Birinci xanımı Mehriban Əliyeva məğrurluğu, müdrikliyi, məhəbbət, mərhəmət, nəcibliklə dolu qəlbi, insansevərliyi ilə tarixdə iz qoyan qüdrətli xatunlardandır.**



Tanrı Mehriban xanım Əliyevanın qismətinə üç müqəddəs soyun işığından pay verib. O, iki böyük müəllim və alimin, yazıçı Mir Cəlal Paşayevin və jurnalist-pedaqoq Nəsir İmanquliyevin ocağında dünyaya gəlib. Atası AMEA-nın həqiqi üzvü Arif Paşayev fizika, texnika və kosmonavtika sahəsində qüdrətli alim olmaqla, Azərbaycanda ilk Milli Aviasiya Akademiyasının qurucusudur. Anası görkəmli alim, pedaqoq və ictimai xadim Aida xanım İmanquliyeva ərəb-məhcər ədəbiyyatının dünyada ilk qadın tədqiqatçısıdır. O, AMEA-nın Şərqşünaslıq İnstitutunun ilk qadın direktoru olmuşdur.

Mehriban xanım Əliyeva bütün ömrünü milli dövlətçilik tariximizin yenidən yazılmasına həsr edən, müasir Azərbaycan dövlətinin memarı Heydər Əliyev və insanlara ömrü boyu işıq paylayan Zərifə Əziz qızı Əliyevanın ocağının gəlinidir. Həyat yoldaşı Müzəffər Ali Baş Komandan, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevdir. Üç övlad anası, doqquz nəvənin nənəsidir. Bütün bunlar onun alın yazısı, Tanrıdan tale payı olsa da, həyat yolunu və fəaliyyət dairəsini özü müəyyənləşdirib.

Qloballaşan dünyaya, ümumbəşəri dəyərlərə töhfələrinə görə Mehriban xanım Əliyeva Azərbaycanın və dünyanın bir sıra mükafatlarına layiq görülüb. Yüzilliyin mesenatları Beynəlxalq Xeyriyyə Fondunun Yaqut Xaç ordeni və "Qızıl Ürək" beynəlxalq mükafatları ilə təltif olunan xoşməramlı səfir kimi Şərq və Qərb ölkələrində şöhrət qazanıb. Ən böyük mükafatı ictimai-siyasi xadim kimi qazandığı xalq məhəbbəti, insan sevgisidir.

Sivilizasiyaları dialoqa, bəşəriyyəti birliyə, dostluğa çağıran, Şərqlə Qərbi İpək yoluna səsləyən Mehriban xanım Əliyeva 1995-ci ildə Azərbaycan Mədəniyyətinin Dostları Fondunun, 1996-cı ildə Azərbaycan, ingilis və rus dillərində işıq üzü görən "Azərbaycan-İrs" jurnalının təməlini qoyub. Bu jurnalın kitab seriyasından olan layihələri müxtəlif dillərdə ayrı-ayrı ölkələrdə təqdim edilib. 2002-ci ildə Azərbaycan Gimnastika Federasiyasının prezidenti, 2004-cü ildə Milli Olimpiya Komitəsi İcraiyyə Komitəsinin və Yeni Azərbaycan Partiyası Siyasi Şurasının üzvü, sonrakı illərdə isə sədr müavini seçilib. Göstərilən etimada hər zaman böyük məsuliyyətlə yanaşdığından qısa zaman kəsiyində bütün sahələrdə parlaq uğurlar əldə edib. Onun rəhbərliyi ilə Bakıda gerçəkləşən Avroviziya mahnı müsabiqəsi, Avropa Oyunları və İslam Həmrəyliyi Oyunları, Beynəlxalq konfrans, simpozium və forumlar, muğam müsabiqələri ölkəmizin nüfuzuna nüfuz qatıb.

Mehriban xanım Əliyeva 2005-ci ildə Milli Məclisə deputat seçilib. Həmin ildə müdafiə etdiyi "Eftanaziya və təbabətdə humanizm probleminə həsr olunan namizədlik dissertasiyası ilə elmi humanizmin əsasını qoyub. Onun təsis etdiyi Heydər Əliyev Fondu dünyaşöhrətli dövlət xadimi, ümummilli lider Heydər Əliyevin zəngin irsinin öyrənilməsi və onun yaratdığı milli dövlətçilik ideyalarının, Azərbaycançılıq məfkurəsinin yeni nəsillərə çatdırılması və inkişaf etdirilməsi istiqamətində misilsiz xidmətlər göstərir. Mehriban xanım Əliyeva eyni zamanda Azərbaycan-Amerika və Azərbaycan–İngiltərə parlamentlərarası dostluq qrupunun rəhbəri kimi mühüm xidmətlər göstərmiş, nəaliyyətlər əldə etmişdir. UNESCO-nun 41, İSESCO-nun 51 Xoşməramlı səfirindən biri kimi ilklərə imza atan Mehriban xanım Əliyeva müxtəlif ölkələrin ayrı-ayrı mətbuatında beynəlxalq aləmdə humanist fəaliyyətinə görə M.Rastropoviç, K.Kardinal, L.Məryəm, V.Adamkus, Tereza Ana kimi insanlarla müqayisə edilir.

Ölkənin I vitse prezidenti "Yeniləşən Azərbaycana yeni məktəb", "Təhsilə dəstək" layihələri ilə yüzlərlə müasir orta məktəb binasının tikilməsinə və bərpasına nail olub. Belə möhtəşəm layihələr hətta ən ucqar dağ kəndlərində, çadır şəhərciklərində, indi isə artıq işğaldan azad olunmuş Qarabağda və Şərqi Zəngəzurda gerçəkləşdirilir. Uşaq evləri və internat məktəbləri Birinci xanımın qayğıs ilə yeniləşən Azərbaycanın bir parçasına çevrilib. Bir vaxtlar Xan qızı Natəvan Qarabağın Üzeyir bəy Hacıbəyli kimi istedadlı gənclərini Quran-i-Kərimin altından keçirərək Qori Müəllimlər Seminariyasına oxumağa göndərirdi. Sonralar bu müqəddəs ənənə Azərbaycanın qüdrətli maarifpərvərlərinin – Hacı Zeynalabdin Tağıyevin, Mahmud və Hacı İbrahimxəlil Ağaların, Mirzə Nəsrulla bəy Əmirovun, Cümhuriyyət illərində Cümhuriyyət qurucularının, ötən əsrin 70-ci İllərində isə Azərbaycan rəhbəri Heydər Əliyevin dövlət idarəçilik təliminin əsas prioritetlərindən birinə çevrildi.

Müqəddəs əməlləri amalına çevirən, millətin nicatını elm-ürfanda görən Mehriban xanım Əliyeva vətəndə həyata keçirdiyi genişmiqyaslı layihələrlə kifayətlənmir. Onun "Təhsilə dəstək" layihəsi sərhədləri aşır, dünyanın müxtəlif guşələrində yaşayan soydaşlarımız unudulmur. Eyni siyasət Gürcüstanda Moskvada, MDB və Avropa dövlətlərində də həyata keçirilir. Mehriban xanım müharibənin və təbii fəlakətin acılarını yaşayan Pakistanda Qız Məktəbinin təməlini qoymaqla Hacı Zeynalabdin Tağıyevin ötən əsrin əvvəlində Pakistanda tüğyan edən xəstəliklərin qarşısını almaq məqsədilə verdiyi mənəvi dəstəyi təkrarladı. Həm Hacı Zeynalabdin Tağıyevin, həm də xanım Əliyevanın göstərdiyi diqqəti yüksək qiymətləndirən Pakistan xalqı və dövləti bizim 44 günlük Vətən Müharibəmizdə birliyin, bütövlüyün rəmzinə döndü. Şuşa qalasında 3 əzəmətli bayraq dalğalandı: Azərbaycanın, Türkiyənin və Pakistanın özgürlük rəmzi olan bayraqlar!

Azərbaycan Mədəniyyət Fondunun və Heydər Əliyev Fondunun xətti ilə sənəti və mədəniyyəti himayə edən Mehriban xanım Əliyeva müasir Azərbaycandan əski çağlara cığır açmış oldu. Azərbaycanın tarixi abidələri, muğamları dünyanın maddi-mədəni inciləri sırasına yazıldı. "Muğam" jurnalının təsisçisi kimi şöhrət qazanan ölkənin I vitse prezidenti "Muğam" portalının və Muğam Mərkəzinin qurucusu kimi tarix yaratdı. Mehriban xanımın iradəsi ilə Dənizkənarı Milli Parkda möhtəşəm Muğam Mərkəzi tikildi. Bu möhtəşəm addım "Azərbaycan muğamları" layihəsi ilə müşayiət olundu. Layihə çərçivəsində işıq üzü görən "Qarabağ xanəndələri" albomu ilə ölməz muğam ifaçıları yenidən dünyaya təqdim edildi. "Muğam–Dəsgah" layihəsi çərçivəsində birbaşa konsertlər lentə yazıldı. Mehriban xanım "Muğam Ensiklopediyası" layihəsinin də gerçəkləşdirilməsinə, onun elektron variantının hazırlanmasına nail oldu. "Muğam İnternet" layihəsinin, beynəlxalq konfransların, festivalların, simpoziumların həyata keçirilməsini nəzərdə tutan "Muğam dünyası" layihəsi Mehriban xanımın Azərbaycana, eyni zamanda sənətşünaslığa və musiqişünaslığa bəxş etdiyi ən müqəddəs töhfələrdir.

Tarixin müxtəlif dönəmlərində qüdrətli şəxsiyyətlər, sərkərdə-xaqanlar yetirən Azərbaycan qadını ən ağır döyüşlərdə ərinə, oğluna arxa olmuş, onunla çiyin-çiyinə dayanmışdır. Möhtəşəm Zəfər yürüşündə dövlət başçısı ilə yanaşı inamla addımlayan, sosial şəbəkə hesablarında müjdə paylaşımları edən Mehriban xanım Qarabağın yaralarının sağaldılmasında da ən ön sırada gedir. 30 illik işğaldan, intizardan sonra bərpa olunan "Xarıbülbül" musiqi festivalının, "Vaqif Poeziya Günləri"nin, Molla Pənah Vaqifin dağıdılmış məqbərəsinin tarixi məscidlərin bərpası da onun adına yazılan əsl şərəf və ləyaqət nümunələridir.

Bu gün Azərbaycan qadınının haqq səsinə dönən Mehriban xanım dünyaya sülhün gözü ilə baxır. Qloballaşan dünyanı tolerantlığa, dünyəvi dəyərlərə, insan haqlarına sayğıya çağırmaqla, Azərbaycan qadınının əsl obrazını bəşəriyyətə tanıdır.

Şərqin qüdrətli şəxsiyyətləri, xaqanları, pirlərə, övliyalara, Tanrı evlərinə, üləmalara ehtiram göstərib. Saraylarında fikir və düşüncə sahiblərini himayə etdikləri kimi, onların şərəfinə türbələr, məqbərələr ucaldılıb. Bu gün Azərbaycanın ayrı-ayrı bölgələrində bir çox abidələrin və dini məbədlərin bərpa olunmasında Mehriban xanımın rolu böyükdür. Mehriban Əliyeva kilsələrə, sinaqoqlara da diqqət və qayğı ilə yanaşır.

Versal sarayının önündəki üç abidənin bərpasını məhz Heydər Əliyev Fondu öz üzərinə götürdü. Prezident İlham Əliyevin tapşırığı ilə Əlimərdan bəy Topçubaşovun Fransadakı məzarı üzərində onun abidəsi ucaldıldı. Mərasimdə Azərbaycanın Birinci xanımı da iştirak etdi. Mehriban xanım Əliyevanın dövlətə sədaqət, millətin keçmişinə hörmət hissi bununla bitmir, məhz onun diqtəsi, iradəsi ilə Gürcüstanda torpaq müqəddəsliyinə qovuşan Mirzə Şəfi Vazeh, Mirzə Fətəli Axundzadə, Əhməd bəy Ağayev kimi maarifpərvərlərin, dövlət xadimlərinin məzarları bərpa edildi, qəbirüstü abidələri yaradıldı. Mirzə Cəlilin, Nəriman Nərimanovun Tiflisdəki ev-muzeyləri təmir edildi. Heydər Əliyev Fondunun Gürcüstan nümayəndəliyi fəaliyyətə başladı və eyni siyasət Rusiyada da həyata keçirildi.

Mehriban Əliyevanın cəmiyyətin inkişafı naminə gördüyü müqəddəs işlər Azərbaycan qadınının ictimai-siyasi fəallığını daha da artırır. Bütün bunlar eyni zamanda siyasi proseslərdə milli-mənəvi dəyərlərin, qadın qəlbinin hərarətinin daha çox nəzərə alınmasına və siyasi mühitdə təmiz, saf abı-havanın qorunmasına rəvac verir. Mehriban xanım xalqın mənəvi zənginliyini onun ululuğu ilə bağladığından sənətin və mədəniyyətin himayədarına çevrilir. 2006-cı ildə Azərbaycan–ABŞ parlamentlərarası dostluq qrupunun rəhbəri kimi Amerikaya səfəri zamanı Vaşinqton Tekstil Muzeyində fars xalçası kimi təqdim edilən Şeyx Səfi xalısının Azərbaycan xalqı və onun dövlətçilik tarixi ilə bağlı olması barədə muzey əməkdaşına məlumat verən Mehriban xanım həqiqət carçısı, mənəviyyat elçisi kimi yaddaşlara yazıldı.

Sonsuz qürur, iftixar hissi ilə qeyd etməliyik ki, bu gün milli dövlətçilik və müstəqillik tariximizin yeni və parlaq səhifəsinə ilk dəfə olaraq qızıl hərflərlə yazılmış Birinci Xanım İnstitutu da məhz Mehriban xanım Əliyevanın adı, imzası və onun sərhədlərə sığmayan xoşməramlı fəaliyyəti ilə bağlıdır.

***Şərəf CƏLİLLİ***

# Birinci vitse-prezident: "Yaşıl" mədəniyyət, ictimai diplomatiya və liderlik

**Müstəqil Azərbaycanda Prezidentlik institutu dövlət hakimiyyəti sistemində əsas idarəetmə formasıdır. Zamanın tələblərinə uyğun Prezidentlik institutu da özünün təşəkkülü və inkişafında yeniləşərək, Konstitusiyaya dəyişikliklər və əlavələr nəticəsində daha da təkmil metoda keçibdir.**



2016-cı il sentyabrın 26-da Konstitusiyaya dəyişikliklərlə bağlı keçirilən referendumda dövlət siyasi-ictimai idarəçiliyində ilk dəfə yeni institut – Birinci vitse-prezidentlik yaradıldı. Bu institutun konstitusion əsaslarla təsis olunması Respublikada siyasi dövlət idarəetməsinin təkmilləşdirilməsi paradiqmasıdır.

Prezident İlham Əliyevin 21 fevral 2017-ci il tarixli sərəncamı ilə ölkədə ilk dəfə Birinci vitse-prezident vəzifəsinə Heydər Əliyev Fondunun Prezidenti Mehriban Arif qızı Əliyeva təyin edilibdir. Əlbəttə, Mehriban xanımın bu məsul vəzifəyə seçilməsi onun müasir Azərbaycanın ictimai-mədəni, siyasi həyatında vacib və aktiv rol apardığını, Yeni Azərbaycan Partiyasında sədrin müavini, Milli Məclisin deputatı olaraq səmərəli və əhəmiyyətli işlər aparmasını, çoxistiqamətli beynəlxalq fəaliyyətini, rəhbərlik etdiyi Heydər Əliyev Fondunun həm Azərbaycan, həm də bölgənin ən böyük ictimai təşkilatı olmasını, ölkədəki bir çox qlobal tədbirlərin təşkilində aparıcı rol oynadığını sübut edirdi. Öncüllük, birincilik Tanrı yazısı, İlahi qismətin seçilmişlərindən biri olma şansıdır.

Ötən illər ərzində ölkədə Birinci vitse-prezidentlik təsisatı çevik, formalaşmış funksional yeni bir təsisat olaraq çoxistiqamətli fəaliyyət göstərir. Mehriban xanımın idarəçilik təcrübəsi bu təsisatın formalaşmasında vacib rol daşıyır. Prezident İlham Əliyev bu keyfiyyətlərə nəzər yetirərək vurğulayıb: "Mehriban Əliyeva uzun illərdir ki, ölkəmizin ictimai-siyasi həyatında, mədəni həyatımızda mühüm və fəal rol oynayır. Mehriban Əliyeva çox peşəkar, bilikli, təcrübəli, prinsipial, çox xeyirxah bir insandır. Təsadüfi deyil ki, Azərbaycan xalqı ona böyük rəğbət və sevgi ilə yanaşır".

Bəli, Birinci vitse-prezidentin təşkilatçılıq təcrübəsi, xarizmatik xüsusiyyətləri, milliliyi modernliklə vəhdətdə ehtiva etməsi XXI əsr Azərbaycan qadınının ictimai-siyasi-mədəni LİDERlik obrazıdır.

Xanım Mehriban Əliyeva vurğulayır ki, "Bütün bu illər ərzində mən öz beynəlxalq fəaliyyətimi nizamlamalı olurdum. İlk növbədə, bu, mənim üçün dünya ictimaiyyətinə Azərbaycanın tarixini, mədəni irsini, bununla yanaşı, Azərbaycanın bugünki siyasi və ictimai gerçəkliklərini çatdırmaq imkanı idi. Müasir Azərbaycanın nə demək olduğunu, onun əhəmiyyətini, siyasi mövqeyini, bu ölkənin potensialını dünya ictimaiyyətinə çatdırmaq lazım idi... İstər ictimai, istərsə də dövlətçilik fəaliyyətimdə daim çalışıram ki, sarsılmaz həqiqətlərə söykənim. Əxlaq və mənəviyyat, insaniyyət və şəfqət, inam və məhəbbət, xeyirxahlıq və saf niyyətlər Yaradanın hər birimizə bəxş etdiyi ən gözəl keyfiyyətlərdir".

Birinci vitse-prezidentin mədəniyyətindən irəli gələn vətənkeşlik, torpağa, el-obaya bağlılıq keyfiyyətləri rasional təfəkkürün, ağıllı zəkanın təzahürünün dövlətin ictimai-mədəni idarəetmə sahəsində humanitar "güc" dəstəyidir. Ölkənin Birinci Xanımının mənəvi zənginliyi və geniş dünyagörüşü, zəkasının kreativ məcmusu, universal intellekti, kübarlıq xüsusiyyəti Liderlik komponentidir.

Modern Qadın Lider obrazı Birinci vitse-prezidentin Azərbaycan milli irsinin təbliğindəki yorulmaz əməyi də Xalq+Dövlət Birliyindən qaynaq alan mədəni-diplomatik "güc" amilidir. İftixarla qeyd edək ki, Azərbaycan xalqı Xanım Mehriban Əliyevanı bir güvənc, bir ümid, bir etimad göstərdikləri Qadın Lider Rəhbər kimi sevə-sevə qəbul edir. Hər kəs etiraf edir ki, müstəqil Azərbaycanda Birinci Xanım statusu Mehriban Əliyevanın ictimai-mədəni-diplomatik, yumşaq "güc" fəaliyyəti şəxsində formalaşmışdır. Ölkə Prezidentinin sədaqətli həyat yoldaşı, ən yaxın silahdaşı olan Birinci Xanımın respublikanın humanitar, ictimai-siyasi həyatında, eləcə də beynəlxalq müstəvidə tanınmasında çoxspektrli rolu təkzibolunmazdır. Bu kontekstdən Azərbaycan xalqı Birinci Xanımı bütün hadisə və proseslərin mərkəzində, öz diqqəti, öz münasibəti, öz vətənsevər humanizmi ilə ölkə vətəndaşlarına olan sayğı və qayğısında görür.

Vətən müharibəsində xalq bütün dəstəyi ilə "İrəli, Baş Komandan" amallı Milli Orduya dəstək məsləyində və Prezident İlham Əliyev hərbi-siyasi-diplomatik-informasion savaş meydanında idisə, Birinci vitse-prezident də vətəndaşlara, şəhid ailələrinə, qazilərə diqqət və qayğı cəbhəsində öncül idi, flaqman idi. Elə Böyük Zəfər də məhz dövlətin, Milli Ordunun və xalqın bu vəhdətdən irəli gələn gtüclü Yumruq Birliyi sayəsində qazanıldı.

**(ardı 7-ci səhifədə)**

# Tarix yazan sülh memarı

**Azərbaycanın diplomatiya tarixində böyük önəm kəsb edən Prezidentin Vaşinqton səfəri kimi tarixi bir hadisə ilə bağlı təəssüratımı qələmə almağı bilərəkdən bir qədər sonraya saxladım.**



Çünki elə əhəmiyyətli tarixi olaylar var ki, onları dərhal ifadə etmək, hadisənin yaratdığı dərin mənəvi və intellektual təəssüratları tam şəkildə əks etdirməyə imkan vermir. Belə anlar həm düşünmək, həm də bir-birinə qarışan qürur, fəxarət və həyəcan hisslərini süzgəcdən keçirərək, obyektivliyi qorumaq və ucalığın, böyüklüyün dərki baxımından yazıçıdan vaxt istəyir. Tarixi olaylar zamanın uzağından daha aydın görünür.

Bu səfərə yalnız emosional yox, eyni zamanda analitik yanaşmaq vacibdir ki, onun təkcə zahiri yox, mahiyyət baxımından da tarixi çəkisi doğru qiymətləndirilsin. Tarix yalnız baş verənlərdən ibarət deyil, həm də onların cəmiyyətin yaddaşında necə iz buraxması və gələcək nəsillərə hansı şəkildə ötürülməsi ilə formalaşır. Elə bu səbəbdəndir ki, yaşananların içində yox, bir qədər kənarında duraraq düşünmək və yazmaq bəzən daha doğru olur.

Avqustun 8-dən 9-na keçən gecə ailəmlə birgə zahiri sakitlik içində, amma ürəyimizdə təlaş, həyəcan və səbirsizliklə ekran qarşısında əyləşib Azərbaycan Prezidentinin ABŞ-ın dövlət rəhbəri ilə görüşünü gözləyirdik. Gözlərimiz ümid və inamla okeanın o tayına – Vaşinqtona dikilmişdi. Bu sükuta bürünmüş gözləntinin içində həm də əvvəlki illərin, savaşların, sarsıntıların izlərini daşıyan intizar gizlənmişdi.

Avqustun 8-i gecəsi mənə 5 il əvvəlki son dərəcə həyəcanlı 8 noyabr axşamını xatırlatdı. 44 günlük Vətən müharibəsinin başa çatdığı misilsiz Zəfər gününü! Onda da belə sakitlikdə oturub ürək döyüntüsü ilə nələr baş verəcəyinə diqqətimizi yönəltmişdik. 8 avqust tarixində də belə idi. Döyüş səngərlərində bitən savaşımız diplomatiya masalarında bu gün də davam edir. Çox şükür, artıq torpaqlarımızda şəhid qanı axmır, amma ruhumuz hələ o savaş meydanlarındadır.

Azərbaycan Prezidenti İlham Əliyev Vaşinqtonda təkcə Müzəffər Ali Baş Komandan olduğunu deyil, həm də artıq dünya səviyyəli lider olduğunu sübut etdi. Və bunu yalnız biz yox, həm də dünyanın bir nömrəli fövqəl dövlətinin prezidenti Donald Tramp da etiraf etdi. İki prezidentin arasında baş tutan dialoqlar da bunun göstəricisi idi:

Prezident Donald Tramp: Siz böyük lidersiniz…

Prezident İlham Əliyev: Böyük lider mənim yanımda əyləşib.

Dünyanın ən nüfuzlu və güclü dövləti olan ABŞ-ın 47-ci Prezidenti Donald Trampın Prezident İlham Əliyevin həm xarizmatik şəxsiyyətindən, həm də diplomatik incəliklərlə dolu davranışlarından dərin təsirləndiyi açıq-aşkar hiss olunurdu.

İlham Əliyevin son dərəcə ağıllı, məzmunlu və düşünülmüş fikirləri qarşısında heyran qalan Tramp, onu yalnız bir dövlət rəhbəri yox, həm də qlobal səhnədə nümunəvi lider kimi qəbul etdiyini nümayiş etdirdi. Bu möhtəşəm an Azərbaycanın və onun müdrik liderinin beynəlxalq arenada qazandığı ən yüksək hörmət və etimadın bariz göstəricisi idi.

Elə buna görədir ki, Donald Trampın öz sözləri ilə desək, Ağ Evin nadir və simvolik rəmzi açarlarının İlham Əliyevə təqdim olunması, Prezidentimizin ABŞ lideri üçün nə qədər əhəmiyyətli və xüsusi qonaq olduğunu bir daha sübut etdi.

Ağ Evin rəmzi olan bu açarlar təkcə bir məkanın qapısını açan vasitə deyil, həm də ali etimadın, ən yüksək dəyərin və sarsılmaz dostluğun simvoludur. Onlar keçmişdən gələcəyə uzanan bir körpü, iki xalq arasında qurulmuş hörmət və əməkdaşlığın fiziki təcəssümüdür. Bu nadir və müqəddəs hədiyyə, yalnız ən seçilmiş qonaqlara verilən bir nişanə olmaqla bərabər, həm də qarşılıqlı inamın, strateji əlaqələrin və dostluq bağlarının möhkəmliyini ifadə edir.

Bu anları televiziyada izləyəndə qəlbim qürur və fəxarət hissi ilə dolmuşdu: Prezidentimizə qarşı göstərilən bu dərin hörmət və ehtiram, yalnız rəsmi protokollarla ölçülməyən, həm də insan qəlbinin ən incə tellərinə toxunan səmimi bir təqdir idi.

Belə yüksək qiymətləndirmə onun liderlik keyfiyyətlərinin, müdrikliyinin və xalqına olan sarsılmaz bağlılığının təcəssümü kimi qəlbimizdə dərin bir fəxarət hissi oyadırdı.

Böyük xalqın böyük lideri olur və düz mütənasib olaraq da dahi lider öz millətinin ucalığını da dünyada isbatlayır. Prezidentlərin arasındakı mükalimələr də bunu göstərirdi:

Prezident Donald Tramp: Xalqınız böyük xalqdır. Bizim şəxsi tanışlığımızdan əvvəl belə Siz mənim haqqımda gözəl sözlər söylədiniz. Hətta bizim seçkilərdə qalib gəlməyimizdən əvvəl.

Prezident İlham Əliyev: Bəli, Sizin qalib olmağınızdan əvvəl. Bu mənim səmimi sözlərim idi. Siz ilk prezidentlik dövrünüzdə gördüyünüz işlərə görə Azərbaycan xalqının və beynəlxalq ictimaiyyətin rəğbətinə layiqsiniz. Son bir neçə ay ərzində Siz Asiya, Afrika və nəhayət Cənubi Qafqaza sülh gətirdiniz. İnanılmazdır.

Prezident Donald Tramp: Pakistan və Hindistan arasında qarşıdurma. Bu, ciddi məsələ idi, çünki hər ikisi nüvə silahına malik ölkədir.

Prezident İlham Əliyev: Kamboca və Tailand.

Prezident Donald Tramp: Bəli, böyük işlər gördük. Siz də həmin işləri görərdiniz. Sizin münaqişə də ciddi məsələdir, nə qədər sürdü döyüşlər – 33, 35 il?

Prezident İlham Əliyev: Bəli, münaqişə 1988-ci ildə başlayıb. Lakin hərbi qarşıdurmanın fəal fazası 1991-1992-ci illərdə başlayıb.

Prezident Donald Tramp: Lakin münaqişə həll edilmirdi.

Prezident İlham Əliyev: Xeyr. Müharibə 1994-cü ildə dayandı və sonsuz, mahiyyətdən məhrum olan danışıqlar dövrü başladı.

Prezident Donald Tramp: Bu, çox ciddi bir məsələdir.

Prezident İlham Əliyev: Əlbəttə, Siz möcüzəyə imza atdınız.

Bu dialoqları dinləyəndə siyasi bəsirətlə və dərin intuisiya ilə anlamışdım ki, Prezident İlham Əliyev Donald Trampın Nobel sülh mükafatına namizədliyini ürəkdən dəstəkləyəcək.

Çünki Donald Trampın Nobel Sülh Mükafatı almaq arzusu onun dünyaya sülh gətirmək yolunda atdığı addımların güzgüsüdür.

Hazırkı fəaliyyəti göstərir ki, o, bu nəcib hədəfə sadiqdir və gerçəkdən də bu mükafata layiq bir liderdir. Hər addımı, hər qərarı sülhün inşasına yönəlib və bu arzunun gerçəkləşməsinə bir addım daha yaxınlaşdırır.

ABŞ səfəri zamanı Prezident İlham Əliyevin qazandığı ən böyük uğurlardan biri 907 saylı düzəlişin icrasının dayandırılması oldu. Açığı, bu, çox böyük bir hadisədir. Xatırlayıram, torpaqlarımız hələ işğal altındaykən, 1992-ci ildə ABŞ Konqresi Azərbaycana qarşı bir qərar qəbul etmişdi ki, guya biz Ermənistana blokada tətbiq edirik və buna görə də ABŞ-dan yardım almağımız qadağan olunsun. Sonradan, Bayden-Blinken dönəmində də həmin qadağa yenidən canlandırıldı və bu, Azərbaycan üçün ciddi təzyiq vasitəsi oldu.

Amma indi vəziyyət tamam fərqlidir. Biz artıq güclü bir ölkəyik, özümüz başqalarına yardım edirik, xarici dəstəyə ehtiyacımız yoxdur. Bu baxımdan, Prezident Trampın 907 saylı düzəlişi dayandırması həm rəmzi, həm də ədalətin bərpası kimi qiymətləndirilməlidir.

Məncə, bu həm də ABŞ liderinin Azərbaycana böyük bir siyasi jesti idi.

İlham Əliyev uzun illərdir atdığı bütün tarixi addımlarla ulu öndər Heydər Əliyev siyasi məktəbinin layiqli davamçısı olduğunu, sözün bütün mənalarında Atasının Oğlu olduğunu sübut edir!

Onun hər bir tarixi addımında Heydər Əliyevin uzaqgörənlik, mərdlik və məsuliyyət kimi mənəvi irsi toplanıb. Vaxtilə ömrünü xalqına bağlılıqla yaşamış bir atanın oğlu da bu gün bizə milli qüruru yaşadır.

Vaşinqton görüşündə ABŞ prezidenti, Ermənistan və Azərbaycan liderləri arasında imzalanan Birgə Bəyannamə Ağ Evin rəmzi açarı ilə dünya reallığının paslanmış qapılarını açdı! Biz o qapılardan keçib yeni tarixi epoxaya qədəm basdıq.

Azərbaycan Prezidenti həmişə dünyanı heyrətləndirməyi bacarır.

Türk jurnalistin Vaşinqtondakı görüşdən sonra heyrət içində dediyi cümləni xatırlayıram: İlham Əliyev görüşdən sonra dörd saat boyunca rus, fransız, ingilis və türk dillərində jurnalistlərin suallarına cavab verdi.

Bununla da Azərbaycan lideri özünün diplomatik hazırlığını və geniş perspektivini ortaya qoyub. Bu, sadəcə informasiya mübadiləsi deyil, eyni zamanda fərqli mədəniyyətlər və düşüncə tərzləri ilə anlaşmanın, siyasi və ictimai mürəkkəbliyi dərindən qavramağın canlı nümunəsi idi.

Azərbaycanın dövlət rəhbəri Vətən müharibəsi dövründə dünya mediasına eynən belə bir ustad dərsini vermişdi. Onda da dünya heyrətlənmiş şəkildə onun tükənməz enerjisini, obyektiv cavablarını və lazımi reaksiyasını izləmişdi!

Belə anlar göstərir ki, İlham Əliyev sadəcə bir dövlət rəhbəri deyil, həm də qlobal arenada dialoqun və anlayışın təmsilçisidir. Belə bir təmsilçi ilə beynəlxalq səhnədə çıxış etmək qürurvericidir!

...Və həmin gecə, ekran qarşısında tarixə şahidlik etdiyim o saatlarda bir daha anladım: bizim millətimizin taleyi, yalnız savaş meydanlarında deyil, həm də diplomatiya səhnəsində yazılır. Azərbaycan liderinin dünyaya verdiyi mesajı dinləyərkən, mən həm bir vətəndaş, həm bir insan, həm də bir yazıçı kimi fəxr etdim. Vaxtilə dünyaca məşhur "JZL" seriyasında Ulu öndər haqqında yazdığım kitabım gözümün qarşısında yeni perspektivlə canlandı: "İlham Əliyev. Bioqrafiya davam edir…"

O anlarda dərk etdim ki, biz təkcə torpaqlarımızı azad etməklə kifayətlənmədik, həm də düşüncə sərhədlərimizi aşaraq, dünyaya kim olduğumuzu, necə bir iradəyə sahib olduğumuzu göstərdik.

Avqustun 8-dən 9-na keçən gecə mən bir daha inandım ki, Azərbaycanın yeni tarixi başlayıb.

Noyabrın 8-də olduğu kimi, avqustun 8-də də bizim yeni tariximiz yazılmağa başlandı. Bu tarix sülhün, ədalətin və milli birliyin tarixidir. Və bu tarixi yazan təkcə bir siyasətçi deyil – o, xalqının taleyini öz ürəyində daşıyan, məsuliyyəti yalnız çiyinlərində deyil, ruhunda daşıyan Müzəffər Liderdir və eyni zamanda da Sülh Memarıdır!

Bu yazını qələmə alarkən içimdə bütün duyğuların fövqündə dayanan sonsuz minnətdarlıq və şükranlıq hiss edirəm.

Bizə qürur, qələbə və sülh yaşatdığınız üçün Sizə minnətdarıq, Cənab Prezident!

***Hüseynbala MİRƏLƏMOV***

# Birinci vitse-prezident: "Yaşıl" mədəniyyət, ictimai diplomatiya və liderlik

**(əvvəli 6-cı səhifədə)**

Birinci vitse-prezidentin "diplomatik-mədəni güc" sahəsində fəaliyyət məkanı genişdir. Bu – ictimai diplomatiya, yeni xeyriyyəçilik modeli, milli musiqi, muğam, sazın dirçəlməsi, milli mətbəx və xalçaçılığın dünyada tanıdılması, ölkənin şəhər və rayonlarının, Qarabağın işğaldan azad olan ərazilərinin bərpa-quruculuq işlərində ənənəviliklə modernliyin vəhdətini yaradılmasında iştirak və s. proseslərdir. Birinci vitse-prezidentin işğaldan azad edilən torpaqların, Qarabağın dirçəldilməsinə yönələn səylərinin əsasında xalqa xidmət siyasi fəlsəfəsi, millətin sabahını daha da işıqlı etmək əzmi dayanır.

Mehriban xanımın diplomatik-mədəni "güc" siyasi-ictimai fəlsəfəsinin məğzinə onun özünün məntiqi ilə nəzər yetirək: "Mən əsas diqqəti sosial problemlərin, əhalinin aztəminatlı təbəqələrinin problemlərinin həlli üzərində cəmləşdirmək istəyirəm". Həqiqi mərhəmət real işlər görülməsini, real məsələlərinin həllini, konkret addımlar atılmasını tələb edir. Biganəlik və laqeydlik ən dəhşətli xüsusiyyətdir. Bunlar olmamalıdır. İstər ictimai xadim ol, istərsə də dövlət qulluğunda işləyən adam. İnsanlıq hissini qoruyub saxlamaq lazımdır".

Qadın Lider obrazı, ictimaiyyətçi, xeyriyyəçi olmaq Xanım Mehriban Əliyevanın yumşaq diplomatik-mədəni "güc" siyasi-fəlsəfi xəttidir. Birinci vitse-prezidentin ölkə sərhədlərindən də uzaqlarda təhsil, sağlamlıq, təbii fəlakətlər zamanı yardım və xeyriyyəçilik missiyası həm Qərb, həm də Şərq məkanı ölkələrini əhatə edir, təşəbbüs və rəhbərliyi ilə gerçəkləşdirilən humanitar-mədəni aksiyalar məhz bu qəbildən olan fəalliyyət yolunun Mədəni "güc" siyasi fəlsəfəsidir.

Xanım Mehriban Əliyevanın istər sabiq Milli Məclisin deputatı, istərsə də YAP sədrinin Birinci müavininədək siyasi Yolu Birinci vitse-prezidentlik təsisatında fəaliyyəti Rəhbər Lider idarəçiliyidir. Onun ictimai-mədəni yanaşmasında əsas qayə insana qayğı, diqqətli münasibətdir. Xanım Mehriban Əliyeva vurğulayır: "Mənim məqsədim ondan ibarətdir ki, belə deyək, hətta tənqidə ən çox meyil edən təbəqələrin də müəyyən müddətdən sonra tənqid üçün az əsası olsun". Bu keyfiyyətlər ictimai xadim–alim–Qadın Rəhbər Liderlik siyasi-fəlsəfi "güc" xəttidir.

Azərbaycan vətəndaşları Birinci vitse-prezidentin çoxistiqamətli fəaliyyətini dəstəkləyərək, güvənc və inam yeri sanır, məhəbbətlə etimad bəsləyir, müxtəlif problemlərinin həllində ona müraciət edirlər. Birinci vitse-prezident xalqın müxtəlif qruplarının ən çeşidli məsələlərinin həllinə xüsusi diqqət göstərir, çoxəsrlik mədəni-mənəvi irsimizin təbliğini çoxsaylı sosial-humanitar-mədəni layihələri reallaşdırmaqla həyata keçirir.

Xanım Mehriban Əliyeva siyasi fəlsəfəsinin "güc" xəttinin mühüm məqamı Azərbaycan qadınının siyasi-ictimai, mədəni-diplomatik obrazını öz fəaliyyəti ilə təqdimidir. Onun dünyanın çoxsaylı nüfuzlu adları və mükafatlarına layiq görülməsi zəhmətinin danılmaz halal haqqı, çoxşaxəli fəaliyyətinə verilən obyektiv qiymətdir. Bu mükafatlar savad, zəka və qətiyyətliliyə, idarəetmədə peşəkarlığa, millətinə, ölkəsinə, dünya insanlığına olan



ülvi yanaşmaya cavabdır.

Mehriban xanım Azərbaycan Prezidentinin, Qalib Ali Baş Komandanın ömür-gün yoldaşı, silahdaşı, üç övladının anasıdır. İctimai-siyasi fəaliyyətlə ailə məsuliyyətinin vəhdətini uzlaşdırmaq da Qadın–Dost–Ana xüsusiyyəti, ictimai-diplomatik-humanistik fəaliyyəti də bu keyfiyyətləri cəmiyyətlə uyğunlaşdırma yoludur.

Bəli, Birinci vitse-prezident statusu Azərbaycan xalqı tərəfindən məntiqi qərar kimi qəbul olunaraq, ölkə vətəndaşları tərəfindən müsbət dəstək qazandı. Onilliklər ərzində formalaşan Lider Qadın, Rəhbər, Birinci Xanım və sadəliyin bariz nümunəsi olaraq, xalqının Vətənsevər övladı kimi "Sizin Mehriban" imzasında təsdiq olundu. Ölkə vətəndaşları Birinci Xanımı insanların sırasında, öz yanlarında görməyə alışmışlar. Bu insanpərvərlikdən, genetik xarakterdən, ziyalılıqdan və yüksək kübar keyfiyyətdən irəli gələn elit mədəniyyətdir. Bu komponentlər də Xanım Mehriban Əliyevanı xalqının ümid, inam ünvanına və "Sizin MEHRİBAN" imzalı sevimlisinə çevirmişdir.

Birinci vitse-prezident vurğulayır ki: " Mən Prezidentin etimadını, ən başlıcası isə, mənə inanan, ümid bəsləyən insanların etimadını doğrultmalıyam". Yaxşı xatırlayırıq ki, BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 2024-cü il noyabrda Azərbaycanda keçirilən COP29 tədbirində Birinci vitse-prezident Mehriban Əliyeva ictimai-siyasi və diplomatik-humanitar mətnlə məhz həmin amal naminə çıxış etdi, məruzəsinin də əsas paradiqmaları "ölkələrə sülh və əmin-amanlıq diləməklə" dünyaya BARIŞ siyasi-fəlsəfi çağırışı oldu. Mehriban Əliyeva hamıda və hər kəsdə belə bir möhkəm əminlik yarada bilib ki, suveren Azərbaycanda Birinci vitse-prezidentlik Konstitusion, ilk innovativ və işlək ictimai-siyasi, diplomatik-mədəni "güc" institutudur.

Fikrimizi Birinci vitse-prezidentin – Bizim Mehribanımızın sözləri ilə bitirək: "Gündəlik fəaliyyətimizdə insansevərlik, mərhəmət, qarşılıqlı hörmət, mehribançılıq unudulmamalıdır. Əksinə, məhz bu mənəvi dəyərləri uca tutaraq, ən yüksək qələbələr əldə etmək, ən böyük zirvələrə çıxmaq olar".

***Rəna MİRZƏZADƏ,***
***AMEA Fəlsəfə və Sosiologiya İnstitutunun şöbə müdiri, professor***

# TANAP 83,4 milyard kubmetr qaz nəql edib




**Azərbaycan Dövlət Neft Şirkətinin (ADNŞ) məlumatına əsasən, Trans-Anadolu Qaz Boru Kəməri (TANAP) ilə Türkiyə və Avropaya 83,4 milyard kubmetr Azərbaycan qazı tədarük edilib. Bu həcmlərin 34,2 milyard kubmetri Türkiyəyə, 49,18 milyard kubmetri isə Avropaya çatdırılıb.**

Qeyd edək ki, Türkiyəyə Azərbaycanın "Şahdəniz" yatağından hasil edilən təbii qaz nəql edilir. "Mavi yanacaq" həcmləri Cənubi Qafqaz Boru Kəməri (Bakı –Tbilisi – Ərzurum) və Trans – Anadolu Təbii Qaz Kəməri (TANAP) vasitəsilə Türkiyə bazarına çatdırılır. Bakı –Tbilisi – Ərzurum kəməri ilə ilk qaz Türkiyə bazarına 2007-ci ildə daxil olub. TANAP vasitəsilə Türkiyəyə kommersiya qazının nəqlinə isə 2018-ci il iyunun 30-da başlanılıb.

Azərbaycan və Türkiyənin birgə reallaşdırdığı ən uğurlu enerji layihələrindən biri olan TANAP regionun və Avropanın enerji xəritəsini yenidən formalaşdıran, beynəlxalq əməkdaşlığın uğurlu nümunəsi sayılan Cənub Qaz Dəhlizi layihəsinin əsas seqmentlərindən birini təşkil edir. "Şahdəniz" qazının kommersiya məqsədli nəqlinə başlanmasından indiyədək bu boru kəməri ilə 80 milyard kubmetrdən çox "mavi yanacaq" daşınıb.

"Enerjinin İpək yolu" adlandırılan TANAP layihəsi üzrə saziş 2012-ci il iyunun 26-da İstanbulda imzalanıb. 2015-ci il martin 12-də boru kəmərinin təməli qoyulub. Kəmərin Türkiyə ərazisində doldurulmasına isə 2018-ci ilin yanvar ayının sonunda start verilib. Həmin il iyunun 12-də Türkiyənin Eskişehir şəhərində TANAP-ın Türkiyə hissəsinin açılışı keçirilib. Qardaş ölkəyə ilk kommersiya qazının tədarükü 2019-cu il iyunun 30-da başlayıb. Noyabrın 30-da isə Türkiyənin Ədirnə vilayətinin İpsala şəhərində TANAP-ın Avropa ilə birləşdirilməsinin tamamlanmasına həsr olunmuş təntənəli mərasim keçirilib.

Xatırladaq ki, TANAP Cənubi Qafqaz Boru Kəməri (CQBK) və Trans –Adriatik Boru Kəməri (TAP) ilə birlikdə Cənub Qaz Dəhlizinin əsas seqmentlərini təşkil edir. Bu, həm də uzunluğuna və boruların diametrinə görə Yaxın Şərqdə inşa edilən ən böyük magistral qaz kəməridir. TANAP Gürcüstan – Türkiyə sərhədindən başlayaraq CQBK sisteminə qoşularaq qardaş ölkənin ərazisindən keçməklə Yunanıstanla sərhədə qədər uzanır. Daha sonra isə "mavi yanacağ"ın Avropaya çatdırılması üçün TAP boru kəmərinə qovuşur. Ümumi dəyəri 7 milyard dollara yaxın olan bu boru kəmərinin ilkin ötürmə gücü ildə 16 milyard kubmetr qaz təşkil edir. Gələcəkdə isə bu həcmin 31 milyard kubmetrə qədər artırılması mümkündür.

Trans – Anadolu boru kəməri və bütövlükdə, Cənub Qaz Dəhlizi Azərbaycanın enerji siyasətinin təntənəsidir. Belə ki, ölkəmiz əvvəllər qaz ehtiyatlarını 4 istiqamətdə ixrac etmək imkanına malik olsada, yeni əsrdə daha bir nəhəng enerji dəhlizinin yaradılmasına üstünlük verib. Beləliklə, ulu öndər Heydər Əliyevin yeni neft strategiyasını uğurla həyata keçirən Prezident İlham Əliyevin qətiyyəti və məqsədyönlü fəaliyyəti nəticəsində XXI əsrin ən nəhəng enerji layihələrindən olan Cənub Qaz Dəhlizi ideyadan reallığa çevrilib. Azərbaycan qazının Avropaya nəqli üçün ən etbarlı marşrut sayılan Cənub Qaz Dəhlizinin mühüm, sonuncudan əvvəlki seqmenti sayılan Trans – Anadolu qaz kəməri layihəsi Azərbaycan və Türkiyənin birgə enerji əməkdaşlığının, dostluq və qardaşlıq münasibətlərinin təntənəsidir.

Avropanın enerji təhlükəsizliyi üçün mühüm əhəmiyyət kəsb edən TANAP layihəsi üzrə tikinti işlərinə, təqribən, 5 il vaxt sərf olunub. Azərbaycanı Avropa üçün əhəmiyyətli qaz ixracatçısına çevirən bu layihə üzrə tikinti işlərinə isə 6,5 milyard ABŞ dollarından artıq vəsait xərclənib. Dörd mərhələdə həyata keçirilən layihənin ilk mərhələsi 2018-ci ildə başa çatdırılıb. TANAP-ın Avropaya qaz nəqlini nəzərdə tutan ikinci fazası isə həmin il noyabrın 30-da istifadəyə verilib.

Bununla da, Azərbaycan – Türkiyə iqtisadi əməkdaşlığının tarixində yeni səhifə açılıb. TANAP Azərbaycanın Türkiyə, Gürcüstan və bir sıra Avropa ölkələri ilə enerji sahəsində əməkdaşlığın genişləndirilməsinə, dünyada qaz ixracı marşrutlarının şaxələndirilməsinə, qaz bazarlarına daha çox "mavi yanacağ"ın çıxarılmasına və üçüncü minillikdə dünyada enerji təhlükəsizliyinə mühüm töhfələr verməkdədir.

Sonda Dövlət Statistika Komitəsinin bir məlumatını da xatırlatmaq istərdik. Bildirilib ki, cari ilin əvvəlindəki ehtiyatlar da nəzərə alınmaqla bu ilin ilk yarısında ölkədə əmtəəlik təbii qaz ehtiyatlarının həcmi 21 milyon kubmetr təşkil edib. Ehtiyatların 29,3 faizi ölkə daxilində istehlak edilib, 58,7 faizi isə ixrac olunub, 2,4 faizi itkiyə gedib, 9,6 faizi isə ehtiyatda saxlanılıb. 2025-ci ilin yanvar – iyun aylarında 14 milyon kubmetr və ya keçən ilin müvafiq dövrü ilə müqayisədə 3 faiz az təbii qaz ixrac edilib.

# Azərbaycan dəmir yollarının vaqon parkı yenilənir

## *Daxili yatırım hesabına 200 yarımvaqon, 100 platforma alınıb*

**"Azərbaycan Dəmir Yolları" Qapalı Səhmdar Cəmiyyəti vaqon parkının genişləndirilməsi və modernləşdirilməsi məqsədilə daxili investisiya hesabına 300 yeni vaqon alıb. Həmin vaqonların 200-ü yarımvaqon, 100-ü isə universal platforma tiplidir. Bu barədə XQ-yə "Azərbaycan Dəmir Yolları" QSC-dən məlumat verilib.**



Bildirilib ki, platforma vaqonların yükqaldırma qabiliyyəti 72 ton, istismar müddəti isə 32 ildir. Bu vaqonlar xüsusən konteyner daşımaları üçün yüksək səmərəli, çevik və sərfəli həll yoludur, həm standart 20, həm də 40 futluq konteynerlər üçün uyğundur. Qurumun məlumatına əsasən, vaqon parkında platforma vaqonların artırılması konteyner yüklərinin daşınmasına olan tələbatın qarşılanmasına imkan verəcək. Son dövrlər Çin və Azərbaycan arasında Orta Dəhliz üzrə xüsusilə konteyner yüklərin artması müşahidə olunur. 2025-ci ilin 7 ayında Çindən 225 blok-qatar qəbul edilib. Bu, ötən ilin eyni dövrü ilə müqayisədə 2 dəfəyə yaxın artım deməkdir. İlin sonunadək isə 400-dən çox blok-qatarın qəbulu gözlənilir. 7 ayda, ümumilikdə, blok-qatarlarla 24 min TEU yük daşınıb, bu da ötən ilin analoji dövrü ilə müqayisədə, təxminən, 2 dəfə çoxdur.

Platforma vaqonlarda konteynerlə yanaşı, taxta-şalban, boru, rels, ağır və iriölçülü digər yükləri daşımaq mümkündür. Sadələşdirilmiş dizaynı sayəsində yan və yuxarı hissələrdən yükləmə və boşaltma işləri asan həyata keçirilir, nəticədə, vaqonda aparılan yükləmə və ya boşaltma əməliyyatının müddəti azalır. Yeni yarımvaqon modellər isə iriölçülü və xüsusi formada daşınan yüklərin, o cümlədən taxta, qırmadaş və digər bərk tikinti materiallarının nəqli üçün uyğundur. Yükqaldırma qabiliyyəti 70 ton, həcmi 85 kubmetr olan yarımvaqonların istismar müddəti 22 ildir. Yüksək həcmə və yük tutumuna malik olması bu tip vaqonları kütləvi daşımalarda etibarlı və qənaətcil edir.

Kömür, metallurgiya, tikinti və kənd təsərrüfatı sənayesində əvəzolunmaz daşıma vasitəsi olan yarımvaqonların üstünün açıq olması və mürəkkəb mexanizmlərin olmaması texniki xidmət, boşaltma və təmir işlərini asanlaşdırır. Yüksək texniki göstəricilərə malik yeni yük vaqonları həm daxili, həm də Azərbaycan ərazisindən keçən Şimal – Cənub və Şərq – Qərb beynəlxalq nəqliyyat dəhlizləri üzrə tranzit yükdaşımalarda istismar olunacaq, əməliyyatların daha sürətli və səmərəli həyata keçirilməsinə imkan yaradacaq.

Qeyd edək ki, ölkəmizin ərazisindən keçən beynəlxalq marşrutlar üzrə tranzit yüklərin davamlı artmasını nəzərə alaraq "Azərbaycan Dəmir Yolları" QSC yüklərin təhlükəsiz daşınması məqsədilə lokomotiv və vaqon parkının yenilənməsi və genişləndirilməsi işlərini davam etdirir. Təkcə bu ilin aprel ayında qurum Çin istehsalı olan 7 yeni lokomotiv və ehtiyat hissələrinin alınması haqqında müqavilə imzalayıb. Növbəti mərhələdə isə 14 magistral lokomotivin parka daxil edilməsi nəzərdə tutulur.

# Mingəçevir daha çox içməli su alacaq

**Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramı"na uyğun olaraq Mingəçevir şəhərində əhalinin dayanıqlı və keyfiyyətli içməli su ilə təminatı, kanalizasiya şəbəkə və qurğularının yenidən qurulması işləri həyata keçirir.**

Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyi İri Şəhərlərin Birləşmiş Su Təchizatı Xidmətinin məlumatına görə, Mingəçevir Şəhər Sukanal İdarəsi əhalini içməli su ilə təmin edir, tullantı suları sutəmizləyici qurğulara ötürülür, yağış sularının idarə olunması işlərini həyata keçirir. Bununla yanaşı, içməli su şəbəkəsinə qanunsuz birləşmələrə qarşı mübarizə tədbirləri gücləndirilir. Hazırda idarə tərəfindən texniki şərt əsasında abonent qoşulmaları həyata keçirilir, içməli su xətlərində tullantı su şəbəkəsində baş verən qəzalar aradan qaldırılır, mövcud xətlərdə təmir-bərpa işləri aparılır, yeniləri çəkilir.




Hazırda idarə əhali qrupu üzrə 31 min 978 və qeyri-əhali qrupu üzrə 1598 olmaqla, ümumilikdə 33 min 576 abonentə xidmət göstərir. İdarənin xidmət göstərdiyi ərazi üzrə abonentlərin sayğaclaşma səviyyəsi 97 faiz təşkil edir. Son illər şəhərdə məhsuldarlığı sutkada 55 min kubmetr olan müasir sutəmizləyici qurğusu və tutumu 10 min kubmetr olan mərkəzi su anbarı tikilərək istismara verilib.

Əhalini içməli su ilə təmin etmək üçün xam su Mingəçevir su anbarından diametri 800 millimetr olan boru xətti ilə sutəmizləyici qurğuya ötürülür. Burada su 28 ədəd qum süzgəcindən keçərək asılı hissəciklərdən təmizlənir və maye xlorla zərərsizləşdirilir. Emal olunmuş su qurğunun nasos stansiyasında quraşdırılmış 200 kilovatlıq 3 ədəd nasos aqreqatı vasitəsilə diametri 820 millimetr olan boru ilə mərkəzi su anbarına ötürülür.

Mingəçevir Şəhər Sukanal İdarəsinin sahə rəisi Elçin Salmanov şəhərin sutəmizləyici qurğular kompleksi haqqında məlumat verərək qeyd edib ki, gün ərzində saatda 2 min 500 kubmetr su təmizlənib mərkəzi anbara ötürülür. Buradan isə su diametri 1000 millimetr olan boru ilə özaxımlı rejimdə şəhərə ötürülür. Eyni zamanda, şəhərin sutəmizləyici qurğular kompleksinin laboratoriyasında gün ərzində suyun tərkibinə ciddi nəzarət olunur.

Sahə rəisinin sözlərinə görə, Mingəçevir su anbarından sutəmizləyici qurğulara daxil olan su burada təmizlənərək su anbarına daxil olur. Ümumilikdə, Mingəçevir şəhəri üzrə su şəbəkəsinin uzunluğu 340 kilometrdir. Bunun da 41 kilometrini magistral xətlər, 299 kilometrini isə küçə və məhəllə daxili xətlər təşkil edir. Şəhərə özüaxımlı rejimdə verilən su 1000 diametrlik xəttə vurulur. Suyu ötürmək üçün isə 5,5 kilovatlıq 2 nasos fəaliyyət göstərir.

Şəhərin kanalizasiya şəbəkəsinin ümumi uzunluğu 316,6 kilometr təşkil edir. Bunun da 62,5 kilometri magistral, 254,1 kilometri isə küçə və məhəllədaxili boru xətlərinin payına düşür. Hazırda idarənin istismarında 2 məhəllədaxili tullantı sutəmizləyici qurğusu və 8 kanalizasiya nasos stansiyası var.

Qeyd edək ki, son illər Dövlət Proqramı çərçivəsində şəhərdə 210 kilometr uzunluğunda su xətti çəkilib, 3 kanalizasiya stansiyası tikilib. Mingəçevir şəhərinin su təchizatı və kanalizasiya sistemlərinin yenidən qurulması layihəsi çərçivəsində Xaldan şosesinin yaxınlığında sutkalıq gücü 65 min kubmetr olan yeni çirkab sutəmizləyici qurğusunun tikintisi nəzərdə tutulur. Artıq burada da tikinti işlərinə start verilib.

# BP istedadlı gənclərimizi xaricdə təhsilə qovuşdurur




**BP şirkəti Azərbaycanda yüksək ixtisaslı yerli kadrların yetişdirilməsinə dəstək məqsədli sosial sərmayə layihəsinin üçüncü mərhələsinin uğurla başa çatdırıb. Bu təhsil layihəsi şirkətin dünya səviyyəli yerli mütəxəssislər yetişdirməklə ölkənin dayanıqlı gələcəyinə töhfə vermək öhdəliyinin bir hissəsidir.**

Əvvəlki mərhələlərin uğuruna əsaslanaraq layihənin üçüncü mərhələsində 30 istedadlı azərbaycanlı gəncə dəstək verilib və onların hamısı Avropanın, Asiyanın və ABŞ-ın nüfuzlu beynəlxalq universitetlərinə qəbul olublar. İştirakçılardan 10-u bakalavr proqramlarına, 20-si isə magistr pilləsi üzrə müraciət edib.

Layihə iştirakçıları Bilkent Universiteti, London İmperial Kolleci, Kembric Universiteti, London Universitet Kolleci, Sinqapur Milli Universiteti, Kolumbiya Universiteti, Kaliforniya Universiteti, Berkli, Cons Hopkins Universiteti, Mançester Universiteti, Bolonya Universiteti, Honq Konq Universiteti və Koreya Qabaqcıl Elm və Texnologiya İnstitutu kimi dünyanın ən yüksək reytinqli universitetlərinə və digər nüfuzlu ali təhsil müəssisələrinə qəbul olublar. Bu nəticələr iştirakçıların yüksək akademik potensialını və layihə çərçivəsində göstərilən dəstəyin effektivliyini əks etdirir.

Layihə iştirakçıları aztəminatlı ailələrdən seçiliblər. Layihə çərçivəsində onlara SAT və IELTS testlərinə və qəbul imtahanlarına hazırlıq təlimləri, eləcə də beynəlxalq tələbələrə tam təqaüd təklif edən universitetlərə müraciət etmək üçün təlimatlandırma daxil olmaqla hərtərəfli dəstək göstərilib. Nəticədə, 30 tələbədən 24-ü artıq müxtəlif mənbələrdən təqaüd qazanıb, qalan 6 nəfərin təqaüd müraciətləri isə hazırda nəzərdən keçirilir.

Gənc istedadların nailiyyətlərini qeyd etmək münasibətilə keçirilən tədbirdə layihə iştirakçılarına sertifikatlar verilib və onlar öz gələcək planları ilə bağlı fikirlərini bölüşüblər. Mərasimdə BP-nin Xəzər regionu üzrə vitse-prezidenti Bəxtiyar Aslanbəyli deyib: "Bu təşəbbüsün davamlı uğurlarını görməkdən çox məmnunuq. Layihə Azərbaycanın istedadlı gənclərinə dəstək olmaqla ölkənin parlaq gələcəyinin formalaşmasına töhfə verir. Dünyanın ən nüfuzlu universitetlərinə qəbul olan tələbələrin sayının artması onların istedadını və əzmkarlığını, eləcə də təhsilə sərmayə qoymağın vacibliyini bir daha təsdiqləyir. Biz milli kadrların inkişafını dəstəkləmək və Azərbaycanın dayanıqlı, firavan gələcəyinə töhfə vermək öhdəliyimizə sadiqik."

Xatırladaq ki, ümumi dəyəri 150 min manat (88 min 235 ABŞ dolları) olan üçüncü mərhələ 11 ay (2024-cü ilin avqustundan 2025-ci ilin iyuluna qədər) davam edib. Layihə yerli təşkilat olan "ROOF Academic Training" tərəfindən həyata keçirilib.

# Milli məkan standartları qəbul edilib

**Azərbaycan Respublikasının Prezidenti yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyinin tabeliyində olan Azərbaycan Standartlaşdırma İnstitutu (AZSTAND) yeni dövlət standartları qəbul edib.**




AZSTAND-dan bildirilib ki, yeni standartlar coğrafi məlumatların toplanması, saxlanması, mübadiləsi, idarə edilməsi, modelləşdirilməsi, vizuallaşdırılması, kodlaşdırılması və təqdim olunması, eləcə də zamanla əlaqəli dəyişikliklərin izlənilməsi prosesləri haqqında qaydaları müəyyən edir. Bu standartların tətbiqi ilə müxtəlif qurumlar arasında məlumatların vahid texniki platforma üzərindən istifadəsi, məkan məlumatlarına şəffaf və asan çıxış, habelə rəqəmsal hökumət və rəqəmsal iqtisadiyyat təşəbbüslərinin həyata keçirilməsi imkanları genişlənəcək.

Qeyd edək ki, yeni dövlət standartları "İnformasiya-kommunikasiya texnologiyaları" (AZSTAND/TK 05) standartlaşdırma üzrə Texniki Komitədə müzakirəyə çıxarılıb və institut tərəfindən təsdiqlənərək Standartlaşdırma üzrə normativ sənədlərin Dövlət Fonduna daxil edilib.

# İllik xarici dövlət borcu 4 milyard 874 milyon dollar olacaq

**Maliyyə Nazirliyinin məlumatına əsasən, ölkəmizin xarici dövlət borcunun 4 milyard 874 milyon ABŞ dolları, daxili dövlət borcunun isə 20 milyard 120 milyon manat olmaqla ümumi dövlət borcunun 28 milyard 407 milyon manat təşkil edəcəyi proqnozlaşdırılır.**



Bildirilir ki, 2026-cı ilin 1 yanvar tarixinə xarici dövlət borcunun 57,2 faizinin 5 ilədək, 35,4 faizinin 5-10 il ərzində, 7,4 faizinin isə 10 ildən artıq müddətə kreditorlara ödənilməsi gözlənilir. Xarici dövlət borcu üzrə yeni cəlb olunacaq borc öhdəliklərinin, təqribən, müvafiq istinad dərəcəsi üstəgəl 0,5-1,5 faiz dərəcəsi (marja) ilə cəlb olunması nəzərdə tutulur.

2026-cı ilin 1 yanvar tarixinə daxili dövlət borcunun 55,7 faizini daxili maliyyə bazarlarında emissiya olunmuş dövlət istiqrazlarının təşkil etməsi proqnozlaşdırılır. İlin sonuna dövriyyədə olan dövlət istiqrazlarının 14,9 faizi 1 illik, 57 faizi 2-3 illik, 30 faizi isə 5 il və daha artıq istiqrazların payına düşməsi gözlənilir.

*Səhifəni hazırladılar:*
***Vaqif BAYRAMOV,***
***Mirbağır YAQUBZADƏ***
***XQ***

# III MDB Oyunları Gəncənin adını beynəlxalq idman tarixinə yazacaq

## *Qədim Nizami yurdu bu böyük yarışa hazırdır*

**Bir neçə ay əvvələ qədər bu şəhər sakit, köhnə memarlıq və bir növ sükut şəhəri idisə, indi onun hər daşında, hər fasadında bir ruh – III MDB Oyunlarının nəfəsi var. Bu oyunların Gəncədə keçirilməsi sadəcə idman hadisəsi deyil, şəhərin simasının dəyişməsi üçün ciddi bir təkan oldu. Əvvəllər yalnız tarixi memarlığı, qədim parkları və kəhrizləri ilə tanınan Gəncə indi həm də müasirliyi, dinamikası, ritmi ilə fərqlənir. Avqustun 20-də Prezident İlham Əliyev və Birinci xanım Mehriban Əliyevanın Gəncəyə gəlişi də bu ruhun təsdiqi idi. Bu, sadəcə, yoxlama xarakterli səfər deyildi, həm də dövlətin şəhərə göstərdiyi xüsusi diqqətin, illərdir davam edən qayğının bariz sübutu idi. Hər kəsin şahidi olduğu kimi, Prezidentin rəhbərliyi ilə həyata keçirilən layihələr Gəncəni bir region şəhərindən ölkənin ikinci böyük inkişaf mərkəzinə çevirir.**



### Hər addımda görünən iş

Heydər Əliyev Mərkəzi Meydanı, Bayraq Meydanı, "Gəncəçay" Park-Bulvar Kompleksi, "Xan bağı" istirahət parkı, Fikrət Əmirov adına park, Nizami kinoteatrı və qarşısındakı istirahət zonaları – hamısında genişmiqyaslı təmir-bərpa işləri aparılıb. Bəziləri artıq istifadəyə verilib, digərlərində isə son tamamlama işləri gedir. Bu məkanların hər biri Gəncə sakinlərinin gündəlik həyatında xüsusi yer tutur. Məsələn, Gəncəçay Park-Bulvarı təkcə istirahət məkanı deyil, həm də şəhərin ekoloji nəfəsi sayılır. Buradakı abadlıq işləri həm turistlər, həm də yerli əhali üçün müasir yaşam tərzinin göstəricisidir. "Xan bağı"nın yenidən canlandırılması isə tarixi yaddaşın qorunması baxımından mühüm əhəmiyyət daşıyır. Əsrlərin sınağından çıxmış bu məkan yeni nəfəs alaraq həm gəncliyin, həm də yaşlı nəslin istirahət yeri kimi bərpa olunur.



Prospektlərin yenilənməsi isə, sadəcə, yolun genişlənməsi demək deyil. Burada həm yol hərəkəti təhlükəsizliyi artırılır, həm də şəhərin estetik görünüşü dəyişir. AAYDA və Gəncə Şəhər İcra Hakimiyyətinin birgə həyata keçirdiyi layihələrlə ümumilikdə 1 milyon kv.metrdən çox sahədə 120-dən çox küçənin asfalt örtüyü yenilənib, müasir yol infrastrukturu qurulub. Bu, nəqliyyat axınının asanlaşmasına, şəhərin daxilində tıxacların azalmasına və sakinlərin gündəlik rahatlığına birbaşa təsir edir.

Piyada sakinlərinin yenilənməsi də diqqətdən yayınmır. Artıq şəhərdə körpə arabası ilə gəzən analar, yaşlı insanlar və məktəbli uşaqlar üçün daha təhlükəsiz və rahat mühit yaradılıb.

Son bir neçə ayda şəhərin 637 yaşayış və qeyri-yaşayış binasının fasadı təmir edilib, 1159 binanın dam örtüyü və 49 küçədə, prospektdə işıqlandırma sistemləri, 62 ünvanda fasad işıqlandırılması yenilənib, 27 min kvadratmetr sahədə piyada yolları bərpa edilib.

11 yeni abad məhəllənin salınması isə məhz insanların yaşayış mühitini yaxşılaşdırmaq məqsədi daşıyır. Hər məhəllədə yaşıllıqlar, uşaq meydançaları, idman qurğuları salınıb. Su-kanalizasiya sisteminin müasirləşdirilməsi ilə isə həm ekoloji, həm də sanitar normalar yüksək səviyyədə təmin edilir. Gəncəyə gələcək idmançılar, turistlər və elə şəhər sakinlərinin özləri üçün bu, olduqca mühüm rahatlıq deməkdir.





### Səməd Tomuyevlə qısa müsahibə

Gəncə Şəhər İcra Hakimiyyəti başçısının birinci müavini Səməd Tomuyev oyunlara hazırlıq barədə danışarkən xüsusi vurğulayır ki, iş yalnız fiziki obyektlərin tikilməsi ilə məhdudlaşmır: "Biz şəhərin obrazını yaradırıq. Yalnız stadion, yol, park deyil, həm də insanların həyat tərzini dəyişən bir mühit qururuq. Məqsəd budur ki, Gəncə sakinləri ilə yanaşı, şəhərimizə gələn idmançılar və qonaqlar burada qədim bir şəhərin ritmini, tarixlə müasirliyin vəhdətini hiss etsinlər.

Qeyd etmək lazımdır ki, ümumiyyətlə Azərbaycan müstəqillik əldə etdikdən sonra Gəncənin tarixində heç vaxt bu qədər genişmiqyaslı abadlıq-quruculuq işləri həyata keçirilməmişdir. Görülən bu işlər möhtərəm Prezident cənab İlham Əliyevin və Mehriban xanım Əliyevanın Gəncə və gəncəlilərə göstərdiyi xüsusi qayğının bariz nümunəsidir".

Bu sözlərdən aydın olur ki, şəhər rəhbərliyi məsələni yalnız oyunların keçirilməsi çərçivəsində görmür. Əksinə, bütün layihələr uzunmüddətli perspektiv üçün nəzərdə tutulub. İdman komplekslərinin, istirahət zonalarının, işıqlandırma sistemlərinin, ictimai nəqliyyat qovşaqlarının yenilənməsi yalnız bir tədbirə yox, daha böyük hədəfə – Gəncənin dayanıqlı inkişafına xidmət edir. Tomuyevin sözləri həm də onu göstərir ki, bu prosesdə tibbi xidmət, təhlükəsizlik və mədəniyyət sahəsinə də xüsusi diqqət yetirilir. Çünki şəhərin siması yalnız küçələrin asfaltı ilə deyil, həm də insanların mədəni davranışı, qonaqpərvərliyi ilə tamamlanır.

### Gəncə şəhər stadionu – idman və gənclik üçün yeni nəfəs

Gəncə stadionu MDB Oyunlarının əsas məkanlarından biri olacaq. Prezident İlham Əliyev cəmi bir il dörd ay əvvəl stadionun təməlini qoymuşdu, bu gün isə nəhəng idman qurğusu istifadəyə demək olar ki, tam hazır vəziyyətə gətirilib. Avropa standartlarına uyğun inşa olunan, 15 mindən çox tamaşaçı tutumuna malik arena yalnız idman tədbirləri üçün nəzərdə tutulmayıb. Bu stadion Gəncənin, eləcə də bütün bölgənin gəncləri üçün idman məktəbinə çevriləcək. Burada futbol oyunları ilə yanaşı müxtəlif beynəlxalq turnirlər, konsertlər və ictimai tədbirlər də keçiriləcək.



Belə sürətlə tikilən arena sanki nağıllarda təsvir edilən möhtəşəm tikililəri xatırladır. Ancaq fərq ondadır ki, bu nağıl gerçəkləşib. Dövlətin diqqəti, məqsədyönlü siyasət və peşəkar idarəçilik sayəsində Gəncə qısa müddətdə idman şəhərinə çevrilir. Burada idmanla məşğul olmaq istəyən hər bir gənc üçün şərait yaradılır. Stadionun ətrafında salınan yol infrastrukturunun yenilənməsi, yaşıllıqların artırılması, avtomobil dayanacaqlarının qurulması da onu həm funksional, həm də estetik baxımdan şəhərin yeni simvoluna çevirir.

### Digər müasir idman məkanları

Gəncə İdman Sarayı da şəhərin yeni incilərindən biridir. Basketbol, voleybol, atıcılıq, üzgüçülük və digər idman növləri üçün nəzərdə tutulan bu nəhəng kompleks Qafqazda analoqu olmayan qurğular sırasındadır. Burada hər bir idmançı yalnız məşq etmək üçün deyil, həm də beynəlxalq yarışlarda özünü sınamaq imkanı qazanacaq.

Kompleksin əhəmiyyəti təkcə MDB Oyunları ilə məhdudlaşmır. Gəncə məktəbliləri, idman məktəblərində yetişən gənclər, hətta sağlam həyat tərzini seçən vətəndaşlar üçün də bu saray əlçatan olacaq. Beləliklə, burada həm peşəkar idmançılar, həm də sadə gənclər sağlam və düzgün həyat tərzinə cəlb olunacaq. Bu, bir tərəfdən ölkənin idman uğurlarına töhfə verirsə, digər tərəfdən də yeni nəslin sağlam böyüməsinə xidmət edir.

### Şəhərin səsi: sakinlər danışır

**Nərgiz, 66 yaşlı müəllimə deyir:** "Bu şəhərdə doğulmuşam. Uşaqlıqda "Xan Bağı"na gələndə ancaq ağacların qoxusunu sevərdim. İndi yenidən burdayam və o qoxunun üstünə təzə ümid qoxusu da gəlib. İlk dəfədir ki, dəyişikliklər bu qədər dərin və mənalı hiss olunur." Onun sözlərində sadə bir vətəndaşın illərlə gözlədiyi inkişafın sevincini görmək mümkündür.

**Murad, 25 yaşlı könüllü:** "MDB oyunlarında könüllü olaraq çalışacağam. Bu mənim üçün sadəcə idman tədbiri deyil, Gəncənin Avropa ilə addımlamasıdır. Həm qürur, həm məsuliyyətdir." Murad kimi gənclərin könüllü olaraq proseslərə qoşulması şəhərin sosial həyatına yeni nəfəs gətirir. Bu, həm də gənclərin ölkəyə və doğma şəhərlərinə bağlılığının göstəricisidir.

**Zeynəb, 32 yaşlı gənc ana:** "Körpəmlə gəzmək üçün yeni salınan piyada yolları çox rahatdır. Hər yerdə gül əkildiyini, oturacaqların dəyişdiyini görürəm. Hiss olunur ki, cənab Prezidentimiz, Mehriban xanım bu şəhərə xüsusi sevgi və məhəbbətlə baxırlar." Onun fikirləri göstərir ki, dəyişikliklər sadəcə rəsmi layihələrdə yox, insanların gündəlik həyatında özünü birbaşa göstərir.

**Emil, 19 yaşlı tələbə:** "İlk dəfədir ki, bizim stadion dünya standartlarına uyğun qurulur. Biz də Avropada olanlara bənzəyən arenalarda yarışacaq, azarkeşlik edəcəyik. Bu, Gəncənin gələcəyidir." Bu sözlər gəncliyin arzularının artıq reallaşdığını sübut edir.

Adını öyrənə bilmədiyimiz taksi sürücüsü isə gülümsəyərək deyir: "Sizi inandırım, bu yollar yenilənməsə, maşınım iki ayda bir usta yanına düşürdü. İndi yollarda maşın sürmək zövq verir. Şəhər təkcə turistlər üçün yox, bizim üçün də gözəlləşib." Onun sözlərində gündəlik həyatın real rahatlığını hiss etmək mümkündür.

Bu sadə fikirlərdən göründüyü kimi, Gəncədə görülən işlər təkcə infrastruktur dəyişiklikləri deyil, həm də insanların düşüncələrini, şəhərə baxışını dəyişir.

### Oyunlardan sonra nə qalacaq?

Bəzən belə iri tədbirlər bitdikdən sonra "sonra nə olacaq?" sualı yaranır. Amma Gəncə üçün cavab aydındır: bu şəhər təkcə oyunlara hazırlaşmır, əslində bu oyunların özü olur. Onun küçələri ilə gələcək gəzir, parklarında yeni nəsil nəfəs alır. MDB Oyunları Gəncə üçün sadəcə idman yarışı deyil, həm də mədəni, sosial və texnoloji intibahdır.

İşıqlandırma sistemi tamamilə yenilənib. Müasir LED lampalar gecələr şəhərə xüsusi gözəllik bəxş edir. Minlərlə bina fasadı işıqlandırılıb, 100-dən çox bina əsaslı təmir olunub, 30-a yaxın park yenidən salınıb. On minlərlə ağac və dekorativ kollar əkilib, köhnə və təhlükəli ağacların 500-dən çoxu kəsilərək əvəzlənib. İçməli su şəbəkəsinin yarıdan çox hissəsi yenilənib. Bu, həm ekologiyanın qorunması, həm də əhalinin sağlamlığı üçün ciddi addımdır.

Əslində bütün bunlar sadəcə oyunlara hazırlaşmaq deyil, gələcək onilliklər üçün dayanıqlı inkişaf deməkdir. Yəni bu layihələr birdəfəlik tədbirə sərf olunan resurs deyil, Gəncə əhalisinin gündəlik rifahına yatırılmış sərmayədir. Əgər Gəncənin yarısı dəyişibsə, digər yarısı da bu dəyişikliklərə inanacaq. İnam olan yerdə isə abadlıq, rahat həyat tərzi və gözəllik açılmazdır.

### Prezidentin diqqəti ilə dəyişən şəhər

Görülən bütün işlərin arxasında bir məqsəd dayanır – Gəncə həm Azərbaycanın, həm də beynəlxalq idmanın mərkəzlərindən birinə çevrilir. Prezident İlham Əliyevin diqqəti nəticəsində şəhər təkcə oyunlara hazırlaşmır, həm də uzunmüddətli inkişaf konsepsiyası əldə edir. Mehriban xanımın incə yanaşması isə parkların, istirahət zonalarının daha səmimi və rahat görünməsini təmin edib.

Bu gün Gəncə artıq başqa şəhərdir. Buradakı dəyişikliklər sadəcə boyalı fasadlarla ölçülmür. Bir il 4 aya ucaldılan stadion, işıqlanan prospektlər, yenilənən parklar, abadlaşan məhəllələr – bunlar həm böyük dövlət qayğısının, həm də bu şəhərə inamın göstəricisidir. MDB Oyunları Gəncənin sabahı üçün sınaq yox, artıq qazanılmış uğurun nümayişidir.

Gəncə dünənki Gəncə deyil. Bu dəyişikliklər yalnız təmir-bərpa işi hesab etmək olmaz, şəhərin ruhuna toxunan bir intibahdır. Yeni ucalan idman kompleksləri, parıldayan prospektlər, müasir işıqlandırma sistemləri və abadlaşan parklar – bütün bunlar dövlətin qayğısının nəticəsidir. MDB Oyunları bu şəhərə sadəcə yarış gətirmir, həm də sabaha inam gətirir.



***Həmlet QASIMOV,***
***XQ-nin bölgə müxbiri***
**Gəncə**

# Elm, fəlsəfə və ədəbiyyat



*(əvvəli qəzetin 27 iyul və 3 avqust tarixli saylarında)*

## 3-cü mövzu. Bədii mətnlərdə yuxugörmə fenomeni

Yuxu, elmi informasiyalardan məlum olduğu kimi, fizioloji prosesdir və canlıların əksəriyyətinə xas xüsusiyyətdir. Yəni canlı yatır və bununla da bir növ özünü yenidən bərpa edir. Lakin bizi maraqlandıran yuxugörmə halıdır ki, bu fenomenə müxtəlif elmi, fəlsəfi, mistik yanaşmalar mövcuddur. Bu müxtəliflik də yaradıcılıq üçün kifayət qədər maraqlı və qeyri-adi xammal hazırlayır. Ədəbiyyat müstəvisində yuxugörmədən bədii fənd kimi istifadə təcrübəsi zəngin çalarlara malikdir. Lakin bu fenomendən yalnız yuxuda görünən hadisələri olduğu kimi təsvir etməklə kifayətlənmək bədii əsərin məna qatına az təsir göstərə bilər. Yuxugörmə hadisəsi ilə bağlı bir çox fəlsəfi və mistik məlumatlara malik olmaqla qələmə alınan bədii əsərlər daha dərin mənalara baş vurmağa imkan yaradır.

Ümumiyyətlə, fəlsəfi fikir tarixində yuxugörməyə, əsasən, iki münasibət mövcud olmuşdur: 1. Yuxugörmə – keçmişin, yəni yaşananların nəticəsidir; 2. Yuxugörmə gələcəkdən xəbər verir.

Lap qədim zamanlardan insanlar yuxu zamanı görülən hadisələrə və predmetlərə müəyyən yozum verir, onları gələcək hadisələr barədə işarələr kimi anlayırdılar. Məsələ burasındadır ki, bu tendensiya hazırda da cəmiyyətin bəzi dairələri arasında öz aktuallığını saxlayır. Bu yozumlar nə dərəcədə həqiqətə uyğundur?Gələcəklə bağlı yuxuyozmalar barəsində elmi əsaslandırma olmadığı üçün dəqiq bir söz demək çətindir.

Freydə görə, yuxular gələcəkdən yox, keçmişdən xəbər verir. O,irəli sürdüyü bu tezisin izahını psixoanalizin köməyi ilə verir. Hesab edir ki, yaşam boyu şüuraltına yığılmış istəklər, görüntülər, həyata keçməyən arzular insan yatdığı zaman donunu dəyişib, onun şüuruna yuxular kimi daxil olurlar.

***Yuxuma girir***
***dostlar, doğmalar, yadlar,***
***bəzən də heç tanımadıqlarım,***
***üzünü belə görmədiyim adamlar***
***müxtəlif tanış və yad hadisələrin fonunda.***

***Tez-tez yuxuma girənlər də olur;***
***həyatda artıq olmayan atam, anam***
***və başqa doğma adamlar***
***yenə də tanış və yad hadisələrin içində.***

***Dəqiq bilirəm:***
***yuxu təkcə nə keçmiş, nə də gələcəkdi***
***xatirələrdən və xəyaldan fərqli,***
***yuxu – daha çox gerçəklikdi,***
***ayrı məkan-zaman hadisəsi və reallığın inikası.***

Keçmişi nizamla düzülmüş avtobus dayanacaqları kimi xatırlayıram; hər dayanacaqda adamlar və hadisələr bir-birindən təcrid olunmuş halda, sanki ayrı-ayrı çoxluqlardı heç bir kəsişməsi olmayan. Amma hadisələrin bir-birinə qarışmasının da şahidi oluram hərdən. Bir hadisə başqa hadisə ilə kəsişir özü ilə daşıdığı yad və doğma adamlarla birgə. Məsələn, görürəm: anam ömrünün son günləri çox cavandı – sevinirəm, amma qəfil xəstəlik peyda olur yanında qocalıq libasında, üz alır torpağa sarı; torpaq işıq saçır rəngbərəng çalarlarda.

## 4-cü mövzu. Hərəkət, Zenon paradoksları və ədəbiyyat

**Hərəkət** elm sahələrinin obyekti olmaqla yanaşı, fəlsəfi dünyagörüşünün də daim diqqət mərkəzinə aldığı bir anlayışdır. Hərəkət haqqında elmi informasiyalar fəlsəfi düşüncə sisteminə transfer olunmaqla müxtəlif maraqlı, eyni zamanda ziddiyyətli düşüncə şəbəkəsi yaratmışdır. Eyni zamanda fəlsəfi sistemlərdə hərəkət barədə mövcud fikirlər elmi sahələrin tədqiqat obyektinə çevrilmişdir. Yəni bu anlayış ətrafında həm elmin, həm də fəlsəfənin aşkara çıxardığı bir çox həqiqətlər və mübahisələr uzun bir dövrü əhatə edir. Hərəkət barədə müxtəlif maraqlı və ziddiyyətli fikirlər incəsənətin müxtəlif sahələrinə və bədii əsərlərə sirayət etməklə bir çox fərqli, intellektual əsərlərin yaranmasına səbəb olmuşdur.

Bir halda, hərəkət anlayışı ətrafında yaranan fikir şəbəkəsi ədəbiyyatdan da yan keçməyib, bu anlayışa, qısaca da olsa, həm elmi, həm də fəlsəfi aspektdən yanaşaq. Bu yanaşmalardan istifadə edərək konkret bədii mətnlərin üzərində dayanaq.

*Fizika.* Sadəlik üçün ilk növbədə düzxətli bərabərsürətli hərəkətə nəzər salaq. Cisim A nöqtəsindən B nöqtəsinə hərəkət edir. A-dan B-yə düz xətt boyunca hərəkət zamanı cızdığı xətt onun trayektoriyası adlanır. İki nöqtə arasında trayektoriya hissəsinin uzunluğu qət edilən yoldur. Sürət anlayışını daxil edirik: $v = s/t$; $v$ - sürət, $s$ – gedilən yol – məsafə, $t$ – sərf olunan zamandır.

*Fəlsəfi yanaşma.* Elmi informasiyadan keçək fəlsəfi müstəviyə. Fikrimizin izahı üçün bir fəlsəfi yanaşma ilə kifayətlənirik. Cisim A nöqtəsindən B nöqtəsinə gəldi. Demək, gəlmək üçün ilk növbədə getmək lazımdır. Yəni cisim B nöqtəsinə gəlib çatmazdan öncə A nöqtəsindən getməli idi.

*Bədii təfəkkür* vasitəsilə bunu belə ifadə edə bilərik: bütün gəlişlər gedişdir öncə. Bu ifadə mövzu ilə bağlı həm elmi informasiyadan, həm də fəlsəfi təfəkkürdən bədii ifadə vasitəsi olaraq istifadə texnikasına göstərilən nümunələrdən biridir.

Beləliklə, hərəkətlə bağlı və ya hərəkət anlayışından istifadə etməklə intellektual bədii mətn yaratmaq üçün qurulan modeldən (Eİ – FD – BT) istifadə oluna bilər: elmi informasiya – fizika elminin hərəkət barədə verdiyi məlumat; fəlsəfi düşüncə– hərəkət anlayışına fəlsəfi yanaşma və bədii təfəkkür – hərəkət anlayışına elmi-fəlsəfi yanaşma nəticəsində alınan mənaların bədii mətndə ifadə olunması.

**Gedir: X-ci ildə doğulub**
***Qatar***
***vaqonlardan ibarətdir,***
***vaqon adamlardan,***
***bir də pəncərələrdən.***

***Vaqondakı pəncərələr***
***daha çox göz və əllər deməkdir;***
***göz və əllərdən***
***ibarət olur adamlar***
***ayrılıqlar gəldiyi zaman.***

***Gedər, qatarlar gedər.***
***Qalar, ayrılıqlar qalar***
***qatarların getdiyi yerdə.***

***Vağzallar***
***ayrılıq yeri deyil ki təkcə,***
***görüş yeridir həm də.***

***Gələr, qatarlar gələr.***
***Qalar, ayrılıqlar qalar***
***qatarların gəldiyi yerdə.***

***Hər ayrılıq bir görüş,***
***hər görüş bir ayrılıq nöqtəsi;***
***hər nöqtə***
***son və başlanğıcın sığındığı yer.***

***A nöqtəsindən B nöqtəsinə gəldi,***
***B nöqtəsindən C nöqtəsinə getdi.***
***“Gəldi” və “getdi”lər***
***parça-parça doğrayar yolları;***
***ayrılıq – kəsilən yeri yolların.***

***A nöqtəsindən B nöqtəsinə gəldi –***
***elə A nöqtəsindən getdi deməkdi;***
***bütün gəlişlər gedişdi öncə.***

***Gedir beləcə hər şey:***
***bəzisi sürətlə, bəzisi asta.***
***Bəzisi tərpənmir – gedir amma.***

***Gedir o ağac,***
***gedir***
***o ağacın yanındakı o ev,***
***gedir***
***o evin içindəki***
***o masa, o şkaf, o çarpayı.***

***Çarpayıda***
***illərdi yataq xəstəsi:***
***baxıb ümidsiz-ümidsiz***
***“gedirəm” – dedi.***

***O – nə vaxtsa yaraşıqlı –***
***səyahət etməyi sevərdi qatarlarda,***
***indi – ümidsiz xəstə;***
***X-ci ildə “gəlib” dünyaya.***

### Zenon paradoksları

İndi isə hərəkət barədə qədim yunan filosoflarının köməyi ilə fərqli və bir qədər də gözlənilməz fikirlərlə tanış olaq. Amma bu fikirlər fərqli və gözlənilməz olduğu qədər də ağlabatandır. Bu fikirlər nə qədər məntiqli olsa da, həyatda şahidi olduqlarımızla heç cür uzlaşmır. Fəlsəfi həqiqət gerçəkliyi üstələyir, yoxsa gerçəklik fəlsəfi həqiqəti? – gəlin, əvvəlcə hərəkət barədə bəzi fikirlərlə tanış olaq, sonra mülahizələrimizə meydan verək.

**Parmenidə** görə, varlıqda hərəkət yoxdur. O, hesab edirdi ki, varlıqlar tamdır, bütövdür və onlar hissələrə bölünmür. Əgər varlıq hissələrə bölünərsə, onda hissələrin özlərinin də hissələri olacaq. Eyni zamanda həmin hissələrin də hissələri olacaq və s. Hər bir hissə sonsuz hissələrdən təşkil olunacaq və beləliklə, bütün hissələr bir-birinə və varlığın özünə bərabər olacaqdır. Deməli, hər bir kəsim içində olduğu kəsimin özü boyda olacaq. Bu isə məntiqə ziddir. Yəni varlıq hissəsizdir. Hərəkət üçünsə ən azı iki nöqtə lazımdır. Varlıqsa təkcə bir nöqtədir və nöqtədə isə tərpənişə yer yoxdur.

**Eleyli Zenon** öz müəllimi Parmenidi müdafiə edir: varlıqda hərəkət və çoxluq mövcud deyil. Hərəkəti və çoxluğu qəbul etmək həllolunmaz ziddiyətlərlə nəticələnir.

Onun öz fikrini əsaslandırdığı iki mülahizəsi ilə tanış olaq. Yunan dilində bu paradokslara aporiyalar deyilir:

**Birinci aporiya – dixiotomiya (yarıyabölmə).** Bir nöqtədən digər bir nöqtəyə çatmaq üçün əvvəlcə yolun yarısını qət etmək lazımdır. Amma əvvəlcə yolun yarısının da yarısını keçmək lazımdır. Bundan da əvvəl yarısının yarısının da yarısını keçmək lazımdır və s. Beləliklə, bir nöqtədən digər nöqtəyə gedib çatmaq üçün sonsuz belə hərəkət tələb olunur və nəticə etibarilə heç bir hərəkət baş vermir.

**(ardı var)**

***Əli Şirin ŞÜKÜRLÜ,***
***riyaziyyat üzrə fəlsəfə doktoru,***
***şair-esseist***

*Vəfa Fətullayeva – 80*

# Sənət vəfalısı

**Tanınmış sənətkarlar olan Xalq artisti Hökümə Qurbanovanın və teatr xadimi, rəssam Nüsrət Fətullayevin ailəsində doğulan Vəfa da bu sahəyə könül verərək, milli teatra ömürlük bağlanıb.**



Tamaşaçıların sevimlisi kimi yetişəcək Vəfa Fətullayeva 1945-ci il avqust ayının 25-də anadan olub. Deyilənə görə, o ərəfələrdə anası Hökümə xanım Xalq şairi Rəsul Rzanın “Vəfa” pyesində baş qəhrəman olan Vəfanı oynayırmış. Bu rol aktrisanın könlünə elə yatıb ki, həmkarları arasında deyibmiş ki, qızım olsa, adını Vəfa qoyacam. Elə də olur və sənətçilər ailəsində bir Vəfa boy atmağa başlayır.

Vəfa hələ uşaqlıq illərindən anası ilə birgə teatra gedərək, tamaşalardakı uşaq rollarında çıxış edib. 9 yaşında ikən Şeksprin “Qış nağılı” pyesində kralın oğlu Mamili obrazını bacarıqla canlandırıb, anası ilə tərəf-müqabil olub.

Əvvəlcə Teatr İnstitutunun rejissorluq fakültəsinə daxil olan gənc aktrisa sonra ixtisasını dəyişərək teatrşünaslığa keçib. Təhsilini bitirdikdən sonrakı 20 ildən də az müddətdə Gülgəz (“Mahnı dağlarda qaldı”, İ.Əfəndiyev), Şirin (“Məhəbbət əfsanəsi”, N.Hikmət), Tənzilə (“Sən yanmasan”, N.Xəzri), Şərəfnisə (“Müsyö Jordan və dərviş Məstəli şah”, M.F.Axundov), Beatrice (“Heç nədən hay-küy”, U.Şekspir), Bənövşə (“Kəndçi qızı”, M.İbrahimov), Zeynəb (“Sizi deyib gəlmişəm”, Anar) və s. rolları səhnədə məharətlə ifa edib. Çəkildiyi televiziya tamaşalarında və filmlərində də yaddaqalan obrazlar yaradıb. “Göz həkimi”, “Alov”, “Atayevlər ailəsi”, “Bizim qəribə taleyimiz”, “Firəngiz”, “Göz həkimi”, “Min birinci söz” buna misal ola bilər. Sənət uğurlarına görə Əməkdar artist fəxri adına və Dövlət mükafatına layiq görülüb.

Yeri gəlmişkən, Vəfanın soyadının ona qədərki daşıyıcıları haqqında. Onlar milli mədəniyyətimizdə məşhur nəsil olublar. Nüsrət Fətullayev Azərbaycan teatr tarixinin ən yaxşı rəssamlarından sayılırdı. Vəfanın əmisi Fateh Fətullayev də aktyor idi. Çoxları onu “Ögey ana” filmindəki İsmayılın atası Arif rolundan yaxşı tanıyırlar. Digər əmiləri Nurəddin və Şəmsəddin Fətullayevlər isə teatrda musiqi hissə müdiri, dirijor işləyirdilər. Əmisi oğlu Hafiz Fətullayev teatrlarda və televiziyada rejissor olub. Digər əmisi oğlu Ramiz Moskvada Kinematoqrafiya İnstitutunu bitirib, hazırda İsraildə yaşayır, studiya rəhbəridir. Bütün bunlar istedadlı aktrisanın böyüdüyü münbit mühit barədə aydın təsəvvür yaradır.

Bu da var ki, anası Hökümə Qurbanova ailədə adına uyğun hökm sahibi olub və onun arzusu qızını özü kimi aktrisa görmək imiş ki, belə də olub.

Vəfa 1987-ci ildə – eyni xəstəxanada yatdığı anasından 1 il əvvəl ağır xəstəlikdən dünyasını dəyişib. (Atası Nüsrət Fətullayev isə daha tez – Vəfadan 2 ay sonra onun itkisinin ağrıları ilə həyata əlvida deyib). Vəfanın taleyinə cəmi 42 illik qısa bir ömür yazılıbmış. Əgər çox yaşasaydı, şübhəsiz ki, daha zəngin obrazlar qalereyası yaradar, daha da məşhurlaşardı.



Onun ailə həyatında da bəxti gətirməyib. Orta məktəbi bitirəndən sonra Zaur Nağıyev adlı bir idmançı ilə tanış olur. Onlar böyük məhəbbətlə bir-birlərini sevirlər. Az müddət görüşəndən sonra ailə qururlar. Amma bu evlilik çox kədərli ayrılıqla başa çatır. Dediyimiz kimi, anası Vəfanı özünün davamçısı olan aktrisa qismində görmək istədiyindən, Zaur isə, əksinə, buna razı olmadığından onların izdivacı erkən pozulur. Məhz ərindən boşanandan sonra Vəfa Teatr İnstitutuna girir. Hələ tələbə ikən Akademik Dram Teatrında “Məhv olmuş gündəliklər” tamaşasında Fəridə roluna dəvət alır. Sən demə, Vəfa Fətullayevanın öz həyat “gündəliyi” də məhvə məhkum imiş…

Ömür vəfa etsəydi, avqustun 25-də Vəfa Fətullayevanın 80 yaşı olacaqdı. Vaxtsız getsə də, yaddaşlarda gözəl, yaraşıqlı, parlaq simalı, böyük istedadlı bir xanım sənətkar kimi qalıb.

***Ə.DOSTƏLİ***
***XQ***

# Türkiyədə 1700 illik Roma hamamı

**Türkiyədə aparılan arxeoloji qazıntılar zamanı qədim Roma dövrünə aid 1700 illik hamam aşkar edilib. “Fox News”-un məlumatına görə, tapıntı təsadüfən yerli fermerin ərazisində albalı tingləri əkərkən mozaika naxışlarına rast gəlməsi nəticəsində üzə çıxıb.**

Arxeoloqların apardıqları araşdırma zamanı mozaikanın təxminən 70 metrliyində daha böyük tikili – 75 kvadratmetr sahəyə malik hamam müəyyən edilib. Mütəxəssislər onun eramızın son Roma dövrünə aid olduğunu bildirirlər.

Qədim hamam o dövr üçün yüksək səviyyədə mühəndis həlləri ilə təchiz olunub. Burada döşəməaltı isitmə sistemi mövcud olub, soyuq, ılıq və isti bölmələrə ayrılmış məkanlarda isə bugünkü spa mərkəzlərinə bənzər şərait yaradılıb. Kompleksdə buxar otaqları, hovuzlar, təmiz suyun gətirilməsi və tullantıların axıdılması üçün ayrıca kanallar da olub.

Vilayətin mədəniyyət və turizm direktoru Ahmet Demirdağ bildirib ki, hamam və mozaika bölgədə geniş şəhər məskəninin mövcudluğunu sübut edən zəngin irsin bir hissəsidir: “Qazıntılar davam edəcək və gələcəkdə bu ərazi turistlərin ziyarətinə açılacaq.”



Arxeoloq Emre Çayır isə qeyd edib ki, bu cür abidə bölgədə ilk dəfədir aşkar olunur: “Tikilinin memarlıq planı bugünədək demək olar ki, tam şəkildə qorunub. Soyuq, ılıq və isti bölmələrdə qədim mühəndislik izləri açıq görünür ki, bu da hamamı unikal edir.”

Tapıntı arxeoloqlar tərəfindən regionun tarixini öyrənmək baxımından mühüm kəşf kimi qiymətləndirilir.

***S.ELAY***
***XQ***

# Sus məktəbinin ilk 3 məzunu tələbə adını qazanıb

**Şərqi Zəngəzur Regional Təhsil İdarəsindən verilən məlumata görə, 33 ildən sonra doğma yurdda fəaliyyətə başlamış Laçın rayonunun Sus kənd tam orta ümumtəhsil məktəbini bitirən 3 məzunun hər biri tələbə adını qazanıb.**



Muradlı Pəri Fuad Qızı III ixtisas qrupu üzrə 442 bal toplayaraq Azərbaycan Dillər Universitetinin Alman dili üzrə xarici dil müəllimliyi fakültəsinə qəbul olub.

Atakişiyeva Ayşən Xəqani qızı isə III ixtisas qrupu üzrə 447 bal toplayaraq Azərbaycan Pedaqoji Universitetinin ingilis dili üzrə Xarici dil müəllimliyi fakültəsinin tələbəsi adını qazanıb.

III ixtisas qrupu üzrə 407 bal toplayan məktəbin digər şagirdi Muradzadə Nihat Oqtay oğlu isə təhsilini Bakı Slavyan Universitetinin Azərbaycan-alman dili üzrə tərcümə fakültəsində davam etdirəcək.

***XQ***

# Ağdamın Xıdırlı kəndinə 68 ailə də qayıtdı

**Ağdam rayonundan məcburi köçkünlərin növbəti köçü 32 ildən sonra yenidən salınmış Xıdırlı kəndinə qayıdıb. Bu münasibətlə keçirilən mərasimdə məcburi köçkünlük həyatı ilə vidalaşmış ailələrə yeni tikilmiş fərdi yaşayış evlərinin açarları təqdim edilib.**



Ağdam, Füzuli və Xocavənd rayonlarında Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəliyinin, Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin nümayəndələri iştirak etdikləri şənlikdə doğma yurda qayıdan sakinlər hərtərəfli dövlət qayğısı ilə əhatə olunduqlarına görə Prezident İlham Əliyevə və Birinci vitse-prezident Mehriban Əliyevaya təşəkkür ediblər.

Yurd həsrətinə son qoyulan xıdırlılılar torpaqlarımızı işğaldan azad edən rəşadətli Azərbaycan Ordusuna, qəhrəman əsgər və zabitlərimizə minnətdarlıqlarını da bildirib, bu yolda canlarından keçən şəhidlərimizə rəhmət diləyiblər. 252 nəfərlik 68 ailə onlar üçün tkilmiş abad fərdi evlərdə könül xoşluğu ilə məskunlaşıblar.

Xatırladaq ki, hazırda Qarabağda və Şərqi Zəngəzurda öz yurduna qayıtmış yerli insanlarla yanaşı, bölgədə bərpa-quruculuq işləri aparan, zəruri xidmətləri təşkil edən dövlət və özəl qurumların işçilərindən ibarə 50 mindən çox insan yaşayır.

***XQ***

# Qarabağ Universiteti Türk dünyasına qucaq açdı

## *Xankəndidə keçirilmiş VII Türkoloji Yay Məktəbi ali təhsil sahəsində əməkdaşlığa töhfədir*

**İşğaldan azad edilmiş ərazilərimizdə həyata keçirilən genişmiqyaslı bərpa-quruculuq fəaliyyətinin ən mühüm layihələrindən olan Qarabağ Universiteti bugünlərdə daha bir beynəlxalq tədbirə uğurla ev sahibliyi etdi, Türk dünyasının ortaq elmi gələcəyinin növbəti təməlləri Xankəndi şəhərində atıldı. Elm və Təhsil Nazirliyi, Beynəlxalq Türk Akademiyası və Türkiyə Elmlər Akademiyasının birgə təşkilatçılığı ilə 10-16 avqust tarixlərində keçirilən VII Türkoloji Yay Məktəbi bu ali təhsil ocağının akademik əməkdaşlığının genişləndirilməsinə də böyük töhfə oldu.**




Azərbaycan, Türkiyə, Qazaxıstan, Qırğızıstan, Özbəkistan, Monqolustan, Şimali Kipr və Makedoniyadan 32 gənc alim və doktorantın qatıldığı bir həftəlik yay məktəbi çərçivəsində türkologiyanın dilçilik, ədəbiyyatşünaslıq, tarix, etnoqrafiya və mədəniyyət araşdırmaları istiqamətləri üzrə intensiv dərslər təşkil olundu. Dərslər 5 ölkədən – Azərbaycan, Türkiyə, Qazaxıstan, Qırğızıstan və Özbəkistandan dəvət olunmuş 15 tanınmış alim və mütəxəssis tərəfindən keçirildi.

Yay məktəbinin Xankəndi şəhərində keçirilməsi, Qarabağ Universitetinin müəllim və doktorant əməkdaşlarının proqramda fəal iştirakı 7-ci dəfə təşkil olunan beynəlxalq tədbiri xüsusilə əhəmiyyətli hadisəyə çevirdi, Qarabağ Universitetinin elmi fəaliyyətinin beynəlxalq səviyyədə nümayiş etdirilməsinə də növbəti imkan yaratmış oldu.

VII Türkoloji Yay Məktəbinin avqustun 11-də baş tutan açılış mərasimində Qarabağ Universitetinin rektoru Şahin Bayramov, Beynəlxalq Türk Akademiyasının prezidenti Şahin Mustafayev və Türkiyə Elmlər Akademiyasının prezidenti Muzaffer Şeker çıxış etdilər.

Şahin Bayramov iştirakçıları salamlayaraq, belə nüfuzlu və davamlı bir layihənin Qarabağ Universitetində keçirilməsinə görə bütün tərəfdaş qurumlara təşəkkürünü bildirdi. O, 44 günlük Vətən müharibəsi və sonrakı antiterror tədbirləri nəticəsində Azərbaycanın tarixi ədaləti bərpa etdiyini, suverenliyinin təmin olunmasından sonra Qarabağda həyata keçirilən quruculuq işlərinin ən mühüm layihələrindən birinin Qarabağ Universitetinin yaradılması olduğunu vurğuladı. Qeyd etdi ki, bu, Azərbaycan Prezidenti cənab İlham Əliyevin elm və təhsilin inkişafına verdiyi yüksək dəyərin bariz göstəricisidir. Yay məktəbinin müxtəlif dövlətlərdən gələn alimlərin fərqli tədqiqat baxışlarını gənclərə təqdim etmələri ilə yanaşı, Türk dünyasında türkçülüyün güclənməsinə töhfə verəcəyi vurğulandı.

Beynəlxalq Türk Akademiyasının prezidenti Şahin Mustafayev çıxışında VII Türkoloji Yay Məktəbinin azad Xankəndində yerləşən Qarabağ Universitetində keçirilməsini böyük qürur və xoşbəxtlik kimi qiymətləndirdi. Tarixi fakt və hadisələrə toxunan Ş.Mustafayev Qarabağın işğaldan əvvəl də elmin, mədəniyyətin və incəsənətin beşiyi olduğunu vurğuladı. O, builki yay məktəbini ortaq tarixi köklərə, dilə, mədəniyyətə sahib olan Türk dünyasının elmi inteqrasiyasını gücləndirən, qarşılıqlı anlaşmanı və bilik mübadiləsini təşviq edən mühüm akademik platforma kimi dəyərləndirdi.

Alanya Alaaddin Keykubat Universitetinin pedaqoji fakültəsinin dekanı Özgür Kasım Aydemir Türk dünyasında ortaq əlifba mövzusunda çıxış edərək bildirdi ki, bu məsələnin ilk rəsmi müzakirəsi 131 nümayəndənin iştirakı ilə 1926-cı il fevralın 26-dan martın 6-dək Bakıda keçirilən I Türkologiya Qurultayında baş tutub. Natiq vurğuladı ki, "türk dili isə türk millətinin sivilizasiya dünyasının qalasıdır".

Yay məktəbində Qarabağ Universitetinin Elm şöbəsinin müdiri, filologiya elmləri doktoru Elçin İbrahimov "Türk dünyasında ortaq əlifba problemi", Azıx arxeoloji tədqiqat və analiz laboratoriyasının müdiri Əjdər Babazadə isə "Qarabağın paleoekosisteminin insanın təkamülündəki rolu" mövzularında mühazirələr oxudular. Tədbir növbəti elmi məruzələrlə davam etdi və Qarabağ Universitetinin İncəsənət fakültəsinin əməkdaşlarının çıxışları ilə yekunlaşdı.

Qonaqların mədəni istirahətləri də diqqətdən kənarda qalmamışdı. Belə ki, proqrama uyğun olaraq iştirakçılar üçün gəzinti təşkil edildi, gənc türkoloqlar Şuşaya və İsa bulağına səfər edərək Azərbaycanın zəngin tarixi və mədəniyyət irsi ilə yaxından tanış oldular. Bundan əlavə, iştirakçılardan ibarət 9 komanda – "Dədə Qorqud", "Manas", "Orxon-Yenisey", "Oğuz", "Altay", "Alpamış", "Xəzər", "Göytürk" və "Turan" arasında bilik yarışı keçirildi.

Maraqlı mübarizənin nəticələrinə uyğun olaraq "Göytürk" komandası birinci, "Manas" ikinci, "Dədə Qorqud" isə üçüncü yerin qalibi oldu və müvafiq sertifikatlarla təltif olundular. Yay məktəbinin sonunda iştirakçılara Qarabağ Universiteti, Beynəlxalq Türk Akademiyası və Türkiyə Elmlər Akademiyasının birgə sertifikatları təqdim edildi.



VII Türkoloji Yay Məktəbi iştirakçıları tədbir haqqında və Qarabağda keçirdikləri xoş anların təəssüratlarını "Xalq qəzeti" ilə də bölüşdülər.

**Talqat Moldabay (Qazaxıstan):**

– VII Türkoloji Yay Məktəbi sayəsində Qarabağ Universitetindəyəm və bundan böyük məmnunluq duyuram. Dünyada öz yazısı olan azsaylı xalqlardan biri türk xalqıdır. Biz bilirik ki, ortaq türk yazısı ilə bağlı ilk araşdırmalar Azərbaycanda aparılıb. Belə ki, bu prosesə 1926-cı ildə keçirilən ilk Türkoloji Qurultayda başlanılıb. Bu gün də biz Qarabağ Universitetində həmin ənənənin davamı olaraq dünya türkologiyasında türk yazısının – Göytürk yazısının əhəmiyyətini və onun türk dünyasındakı yerini öyrənməyə çalışdıq. 5 il əvvəl Xankəndidə olacağımızı və belə bir proqramda iştirakımızı heç təsəvvür edə bilməzdik. İndi bu fürsət bizə nəsib olub, azad və yenidən qurulan Qarabağdayıq. Qazaxıstan və bütün türk dünyasının ürəyi hər zaman Azərbaycan xalqı ilə birlikdə döyünüb və Qarabağın yenidən bərpasına yaxından şahidlik etməkdən çox xoşbəxtik.

**Zagarperenlei Tumenbayar (Monqolustan):**

– İştirak etdiyimiz VII Türkoloji Yay Məktəbi xüsusilə gənc alimləri bir araya gətirən çox önəmli layihədir. Bu tədbirin Azərbaycanın Qarabağ bölgəsində keçirilməsi mənim üçün böyük əhəmiyyət kəsb edir və bu xəbəri ilk dəfə eşitdiyim zaman çox sevindim. Çünki bu torpaqlara gəlməyi arzulayırdım. Qarabağ türk dünyası üçün çox önəmli bir bölgədir. Ümid edirəm ki, gələcək illərdə daha gözəl layihələrdə və proqramlarda yenidən bir araya gələcəyik.

**Dilnavoz Abdulazizova (Özbəkistan):**

– Türkoloji yay məktəbində iştirak etmək mənim üçün həqiqətən böyük qürur və sevinc mənbəyidir. Biz fərqli ölkələrdən gəlsək də, ortaq dilimiz, mədəniyyətimiz və tariximiz var. Bu yay məktəbi sayəsində biz yalnız bilik əldə etmədik, eyni zamanda yaxşı dostluqlar qazandıq. Burada olmaq, bu torpaqları görmək və hiss etmək mənim üçün olduqca qiymətlidir. Bu şəraiti yaradan hər kəsə təşəkkür edirik.

**Mehmet Oğuz Şavlı (Türkiyə):**

– Qarabağ bütün türk xalqları üçün əhəmiyyətli bir coğrafi məkanda yerləşir. Bu yerlərin tarixi keçmişi və yaşanılan hadisələr hər birimizin yaddaşındadır. Bu gün Qarabağda infrastruktur sürətlə inkişaf edir. Şəhərdə və binalarda bu inkişaf açıq şəkildə görünür. Buraya gəldiyimiz andan etibarən müşahidələrimiz bunu göstərir. Qısa müddət ərzində Qarabağın bu dərəcədə inkişaf etməsindən təsirlənirik. Buna görə də məsul şəxslərə təşəkkürümü bildirirəm. İnanıram ki, Qarabağ böyük bir sülh simvolu olacaq. Kimliyimiz türkdür, qəlbimizdə isə Qarabağdır!

**Gülnar Tağıyeva (Azərbaycan):**

– Builki proqram çərçivəsində Türk dünyasının tarixi, incəsənəti, mədəniyyəti və arxeologiyası ilə bağlı dəyərli alimlərdən çox mühüm dərslər aldıq və bu bizim üçün böyük əhəmiyyət daşıyır. Digər dövlətlərdən olan iştirakçılarla dostluq əlaqələrimiz yarandı. Bununla yanaşı, yay məktəbinin məhz Xankəndidə keçirilməsi də bizim üçün önəmlidir, çünki biz burada canlı tarixin şahidi oluruq.

Qeyd edək ki, Türkoloji Yay Məktəbi indiyədək Türkiyə, Qırğızıstan və Qazaxıstanda təşkil edilib. Qarabağ Universiteti bu ənənənin davamlılığını təmin etmək məqsədilə gələcəkdə də Beynəlxalq Türk Akademiyası və Türkiyə Elmlər Akademiyası ilə Türk dünyasının ortaq irsinin araşdırılması, öyrənilməsi və təbliği istiqamətində birgə layihələr həyata keçirməyi planlaşdırır.

***Mahir RƏSULOĞLU,***
***XQ-nin Qarabağ müxbiri***

**Xankəndi**

# Özbəkistan səfirliyimizdə dəyirmi masa müzakirəsi

**Azərbaycanın Özbəkistandakı səfirliyi Daşkənddəki Mərkəzi Asiya Beynəlxalq İnstitutu ilə birgə "Özbəkistan və Azərbaycan: Alyans və regionlararası əməkdaşlığın yeni perspektivləri" mövzusunda dəyirmi masa keçirib.**



İki ölkənin ekspert və işgüzar dairələrinin nümayəndələrinin iştirak etdikləri müzakirələrdə Özbəkistan Prezidenti Şavkat Mirziyoyevin Azərbaycana son dövlət səfərinin yekunlarından bəhs olunub. İnstitut direktorunun müşaviri Səidmuxtar Səidqasımov Özbəkistan–Azərbaycan münasibətlərinin etimad və qarşılıqlı dəstək ruhunda dinamik inkişaf etdiyini vurğulayıb. Müttəfiqlik münasibətləri haqqında Müqavilənin bağlanması və Ali Dövlətlərarası Şuranın fəaliyyətə başlaması sayəsində ikitərəfli əməkdaşlığın keyfiyyətcə yeni səviyyəyə yüksəldiyi vurğulanıb.

Azərbaycanın qardaş ölkədəki səfiri Hüseyn Quliyev bildirib ki, bu il oktyabrın 2-də ölkələrimiz arasında diplomatik münasibətlər yaranmasının 30 ili tamam olur. Azərbaycan Prezidenti İlham Əliyev və Özbəkistan Prezidenti Şavkat Mirziyoyevin öz ölkələrində sosial-iqtisadi, humanitar, ekologiya və digər sahələrdə apardıqları islahatlar əhalinin rifah halının yüksəldilməsinə yönəldilib.

Milli Məclisin deputatı Rasim Musabəyov qeyd edib ki, Türkiyə Qərbdə, Özbəkistan isə Şərqdə ən güclü türk dövlətidir. Ortada yerləşən Azərbaycan türk dünyasının iki qütbü arasında bu əlaqələri gücləndirən bir rabitə mərkəzi rolunu oynayır. Yaranmış etimad münasibətləri tərəflərə bütün məsələləri işgüzarcasına müzakirə etməyə və müasir çağırışlarla birgə mübarizə aparmağa imkan verir.

Müzakirələrdə Özbəkistan Prezidentinin Azərbaycanın "Mərkəzi Asiya ilə Avropanı birləşdirən strateji körpü" rolunu oynaması barədə bəyanatının önəmi, eləcə də Daşkənd və Bakı arasında regional miqyasda alyansın artan rolu xüsusi vurğulanıb.

İkinci sessiyada iqtisadi əməkdaşlığın genişləndirilməsi, nəqliyyat və logistika potensialı, birgə enerji təşəbbüslər müzakirə olunub. Ekspertlər nəqliyyat kommunikasiyalarının inkişafına xüsusi diqqət yetiriblər. Transxəzər Beynəlxalq Nəqliyyat Marşrutu (Orta Dəhliz) çərçivəsində əməkdaşlığın hər iki ölkənin və bütün regionun uzunmüddətli maraqlarına cavab verdiyi vurğulanıb.

***Qulu KƏNGƏRLİ,***
***XQ-nin Türküstan üzrə xüsusi müxbiri***

**Daşkənd**

**Beynəlxalq həyat**

# ABŞ-da vizalara nəzarət sərtləşir

**ABŞ Pprezidenti Donald Tramp ölkəni qanunsuz miqrantlardan təmizləmək vədi istiqamətində daha bir addım atıb. Bu həftə məlum olub ki, ABŞ Dövlət Departamenti 55 milyondan çox vizaya sahib olan əcnəbilərin məlumatlarını yoxlamağı planlaşdırır. Məqsəd – qanun pozuntularını aşkar etmək və ABŞ-a giriş və ya burada qalmaq hüququnu itirənləri müəyyənləşdirməkdir. "Associated Press" xəbər agentliyinin məlumatına görə, Dövlət Departamenti bu yoxlamalarda həm hüquq-mühafizə orqanlarının məlumatlarını, həm də açıq və qapalı mənbələrdən əldə olunan digər bilgiləri nəzərə alacaq. Ən xırda pozuntu – müddəti bitmiş viza, yaxud ABŞ-da terrorçu təşkilat hesab edilən qurumlarla əlaqə – vizanın ləğvi və sahibinin deportasiyası üçün əsas ola bilər.**





Bu plan Tramp administrasiyasının miqrasiya siyasətində növbəti sərt addımı sayılır. ABŞ prezidentinin miqrasiyaya qarşı mübarizəni daxili siyasətin əsas istiqamətlərindən birinə çevirdiyi bildirilir. Cəmi iki gün əvvəl ABŞ Vətəndaşlıq və İmmiqrasiya Xidməti yeni qaydalar dərc edib. Bu qaydalara əsasən, viza və ya vətəndaşlıq üçün müraciət edənlər sosial şəbəkələrdəki paylaşımlarına görə də yoxlanılacaq. Söhbət "antiamerikan baxışlardan" və hətta antisemitizmdən gedir. Xidmətin nümayəndəsi Metyu Trageser bəyan edib ki, ABŞ-da yaşamaq və işləmək hüququ bir imtiyazdır və bu, ölkəni hörmətsizlik edənlərə verilməməlidir.

Yeni yanaşma ABŞ-da təhsil alan əcnəbilərlə bağlı əvvəllər qəbul edilmiş qaydaları da xatırladır. İyunda Fələstini dəstəkləyən tələbə aksiyalarından sonra Dövlət Departamenti universitetlərə qəbul üçün müraciət edən əcnəbi tələbələrin də sosial şəbəkələrdəki fəaliyyətini izləməyə başlamışdı. Miqrasiya siyasəti üzrə ekspertlər hesab edirlər ki, nəzərdə tutulan 55 milyon vizə sahibinin əksəriyyəti ölkə hüdudlarından kənarda olduğu üçün real yoxlamalardan kənarda qalacaq. ABŞ-da hazırda onların yalnız üçdə biri yaşayır. Ekspert Culiya Celletin sözlərinə görə, hakimiyyət resurslarını ABŞ-a heç vaxt daxil ola bilməyəcək şəxslərin yoxlanmasına sərf etmək istəməyəcək.

ABŞ Daxili Təhlükəsizlik Nazirliyinin məlumatına görə, ötən il ölkədə 12,8 milyon daimi yaşama icazəsinə (kart) sahib şəxs, 3,6 milyon nəfərdə isə müvəqqəti viza olub. Tramp hakimiyyətə gələndən bəri ABŞ İmmiqrasiya və Gömrük Xidməti kütləvi deportasiya kampaniyasına başlayıb. "New York Times" yazır ki, avqustun əvvəlinə qədər ABŞ-da gündə orta hesabla 1,5 min adam deportasiya olunub. Ümumilikdə Tramp prezident seçiləndən bəri ən azı 180 min insan ölkədən çıxarılıb.

Müşahidəçilərin sözlərinə görə, Tramp administrasiyasının hazırkı miqrasiya siyasəti ABŞ-ın daxili və xarici gündəmini dəyişən amilə çevrilib. Deportasiyalar yaxın illərdə davam edəcək, lakin hədəflənən 1 milyon miqrantın hər il ölkədən çıxarılması real görünmür. Ən real ssenari – deportasiyaların hər il 400–500 min səviyyəsində davam etməsi, sosial şəbəkələrdə və ictimai fəaliyyətlərdə "loyallıq testinin" isə miqrantların ölkədə qalmaq imkanlarını ciddi məhdudlaşdırmasıdır. Bu siyasət ABŞ-ı həm daxildə, həm də beynəlxalq müstəvidə yeni siyasi mübahisələrin mərkəzinə gətirəcək.

ABŞ ilə müqayisədə Çin miqrasiya məsələsində qapalı siyasət aparır və xarici işçi qüvvəsinə çox az yer ayırır. Amma ölkədən çıxan çinli miqrantların sayı sürətlə artır. Yaponiya isə demoqrafik böhran səbəbindən miqrant işçi qüvvəsinə müəyyən yumşalma etsə də, hələ də sərt viza rejimini saxlayır. Buna görə də ehtimal edilir ki, ABŞ-ın sərt miqrasiya siyasəti ilə müqayisədə Asiya ölkələri daha çox iqtisadi maraqlara əsaslanacaq. Onlar işçi qüvvəsi çatışmazlığına görə müəyyən açılımlara məcbur qalacaq, ABŞ isə tam əksinə, "filtrasiya və deportasiya" xəttini gücləndirəcək.

***Səbuhi MƏMMƏDOV***
***XQ***

Xalq qəzeti
XQ
xalqqazeti.az
№ 178 (30872) 24 avqust 2025-ci il, bazar

## İDMAN

### Bolqarıstanda qızıl medal

**Bolqarıstanın Samokov şəhərində U20 dünya çempionatının altıncı günündə Ayxan Cavadov (60 kq) qızıl medal qazanıb.**



Güləşçimiz finalda ermənistanlı Yurik Mxitaryanla qarşılaşıb və inamlı qələbə qazanıb – 12:5. Beləliklə, bu yarışda Ayxan ilk dünya çempionumuz olub.

Qeyd edək ki, DÇ-də Azərbaycan idmançılarının medal sayı 6-ya çatıb. Xəbər verdiyimiz kimi, bundan öncə Ruzanna Məmmədova (62 kq) gümüş, Günay Qurbanova (59 kq), Vasif Bağırov (57 kq), Nurlan Ağazadə (70 kq) və Yusif Dursunov (125 kq) bürünc medal qazanıblar.

### "Sumqayıt"ın 2-ci qələbəsi

**Dünən Misli Premyer Liqasında ikinci turun daha bir oyunu keçirildi. Günün yeganə qarşılaşmasında "Kəpəz" "Karvan-Yevlax"la qarşılaşıb. Qəbələ şəhər stadionunda baş tutan görüş 2:3 hesabı ilə yevlaxlıların qələbəsi ilə başa çatıb.**



Turun əvvəlki matçlarında "İmişli"–"Neftçi" görüşündə hesab açılmayıb–0:0. "Sumqayıt" isə səfərdə "Qarabağ"a qalib gəlib –1:0.

### Uşaq futbolçularımızın Avropa oyunları

**17 yaşadək qadın futbolçulardan ibarət Azərbaycan milli komandasının Avropa çempionatının seçmə mərhələsində keçirəcəyi oyunların tarixi müəyyənləşib.**



AFFA-dan verilən məlumata görə, B Liqasının 1-ci qrupunda yer alan Azərbaycan yığması oktyabrın 24-də Uels, 27-də Kosovo, 30-da isə Moldova futbolçuları ilə qarşılaşacaq. Oyunlar Moldovada təşkil olunacaq.

***Qabil YUSİFOĞLU***
***XQ***

*Şərifov Ağayar Əliyar oğlunun etibarnamə ilə idarə etdiyi marka model VAZ21074 minik avtomobilin AZ10KU805 və AD-304751 seriya nömrəli Qeydiyyat şəhadətnaməsi itdiyi üçün etibarsız sayılır.*

*Elimizdən-obamızdan*

# At arabası



**O günlərin hər işi çətin olsa da, öz ailə ocağımızın istisi də, acı tüstüsü də özümüzə şirin idi. Bu günümüzdə bəzi işlər asan başa gəlir, amma o çətin və mənalı günlərin yerini vermir. O günlərə gün çatmaz, calasan günü-günə...**

Yayın cırhacırında, qışın soyuğunda atamın əli işdən, ayağı yerişdən qalmazdı. Ürəyi nisgillə, həsrətlə dolu olsa da, qabarlı əlləri boşda qalmazdı. Halal zəhmətlə dam-daş qurmağın, külfət saxlamağın at işləməz yollarında atam bir bölük külfətin yükünü at arabası ilə çəkirdi. Boş at arabası ilə hara getsə, ürəyi dolu yüklə qayıdardı. Atamı ömrünün yetmişində də, səksənində də belə gördüm. Yaşlandıqca ömrü sozalsa da, işə, zəhmətə həvəsi azalmırdı.

Atamla birlikdə keçən günlərimin heç birini də unutmamışam. O günləri unutsam, atamı unutmuş olaram. Mən uşaq olanda ailəmizdə bir çox fərəhli və kədərli hadisələr olmuşdu. Lakin uşaqlıq çağlarımın qayğısız günləri də az deyildi. Sevinirdim ki, ata-anam var. Onların hər cür zəhmətə qatlaşmasını görüb öyünürdüm. Həm də ürəyim işə, zəhmətə həvəslə döyünürdü.

Ailəmiz kasıb olsa da, atamın üz-gözündə məğrurluq, qürur hissi açıq-aşkar duyulurdu. Qüvvətli, şücaətli, əyilməz kişi idi atam. Onun kişi qüruru ilə ailə-övlad qayğısı qoşa qanad kimiydi. Həyatın bərkindən-boşundan, müharibənin ağrısından-acısından keçib gəlmişdi. Həmişə atamla təmasda olduğuma görə, onun Şimali Qafqazdan Berlinədək keçib gəldiyi əzablı yolları əzbərdən bilirdim.

Böyük qardaşlarım ailə qurub ayrılmışdılar. Öz ailələrinin qayğıları ilə yaşayırdılar. Atam müharibədə sağ qolundan güllə yarası almışdı. Çiynini yük altına verəndə sağ qolu qalxmırdı. Atamın sağ əli-evimizin dayağı, dirəyi mən idim. Evimizdən at arabası ilə çıxıb uzaq yerlərə iş dalınca gedəndə xırda xərclər üçün pul lazım olurdu. Atı nalbəndə aparmaq, arabanın təkərini düzəltdirmək, atın xamuduna əl gəzdirmək üçün nisyə iş gördürməyi atam öz kasıb qüruruna sığışdırmırdı. Atam məni yanına çağırıb poçtalyon Qulama bir- iki cümləlik məktub yazdırırdı. O məktubun məzmunu həmişə eyni olurdu :

***"Salam, a Qulam!***
***Bu oğul balama pul verərsən.***
***Borcumu pensiyadan tutarsan"***

Bir qayda olaraq, o balaca məktubun altında pulun məbləği, atamın imzası və günün tarixi olurdu. Mən hər dəfə atamın məktublarını poçtalyon Qulama çatdırıb, sevincək pulu götürüb, evə gətirib atama verirdim.

Qulam dayı kəndin poçtalyonu idi. O vaxtlar pensiyaları da poçtalyon verirdi. Poçtalyon Qulamdan pul istəyəndə, bircə dəfə də atamı naümid qoymamışdı. Bilirdi ki, pensiya gələndə verdiyi pulun əvəzini götürəcək. Həm də aralarında dost münasibəti, könül bağı vardı. İkisi də müharibədən qazi kimi qayıtmışdı. Atam sağ qolunu, poçtalyon Qulam da sağ qıçını Vətən uğrunda qurban vermişdi. İkisi də müxtəlif dərəcəli əlil pensiyası alırdılar. O, poçtalyon kimi kəndarası yolları, atam da at arabası ilə çöllərin kol-kosuna sarı uzanan yolları yağır eləmişdi. Hər ikisinin çörəyi yol yormaqdan çıxırdı. Poçtalyon Qulamdan Ağgünlü kəndində hər ev, hər ailə soraq gözləyirdi. Kəndin başsız biçənəklərində saralıb solan otlar da atamı əlində kərənti, oraq gözləyirdi.

Atam at arabası ilə çöllərdən ot, odun daşıyanda Qəmər atımız saf suların güzgü tutan təmizliyində su içə-içə güzgülənirdi. Saf suların aynasında Qəmər atımız öz gözəl camalını görəndə Aylı gecələrdə göylərin işıq yolları ilə uçmaq istəyirdi. Atam atımıza Qəmər adını elə-belə sözgəlişi verməmişdi. Atımızı öz yalı, yopalı- yalmanı, alma gözlü baxışları ilə Qəmər idi ki, Qəmər idi...

Zümrüd meşələrin qoynunda atamın odun yüklədiyi at arabasının təkərlərinin səsi gecələr keçdikcə aydın eşidilirdi. Atamın arabasının təkər nəğməsi Qəmər atımızın ayaqlarının altındakı sal daşların sərtliyini də yumşaldırdı. Təkər nəğməsi, cingiltili nal səsləri əsrlər keçsə də sal daşların, enişli-yoxuşlu yolların yaddaşından silinməz.

Mənim nəzərimdə atamın at arabasının təkərinin səsi dünyanın ən şıltaq və ən şaqraq səsi idi... Arabamızın təkərlərinin izi üstündən qatarlar keçən dəmir yolunun qələmlə çəkilmiş şəklinə bənzəyirdi.

Biçənəklər arabamızın təkərləri altına əlvan xalı sərmişdi. Arabamızın təkərləri o əlvan xalı üzərində elə iz salırdı ki, baş-başa vermiş qönçələrin, bir-birinə qısılmış güllərin ruhu da incimirdi. Əksinə, torpağa gül-çiçək kövrəkliyi hopurdu.

... Həmişə olduğu kimi, atamın at arabasının çağı çağ, bağı bağ yerindəydi. Heç vaxt Qəmərimiz atamı yarıyolda qoymamışdı. Ağır yük altında Qəmər atımız arabanı hünərlə çəkirdi. Sanki azadlıq yolunun yolçusuydu Qəmər atımız. Onun azadlıq yolu güllü-güneyli dağların o üzündən, dünyanın gecəsindən-gündüzündən keçib gəlirdi. Mənzil başına çatanadək nə dayanır, nə dincəlirdi.

At igidin qardaşıdır deyiblər. Amma hər at igidə qardaşı ola bilmir. Qəmər atımız atamın qardaşı, yol yoldaşı, könüldaşıydı... Yəhərlənib mahmızlananda qəhqəhəli kişnərtisi və ceyran yerişi ilə özü də hiss etdirirdi ki, yenə səfər üstədi, yenə hünər üstədi... Atamın Qəmər atı həm minik, həm də qoşqu atı idi. Bu, hər atın hünəri deyil.

Qəmər atımızın belində atam neçə çayı körpüsüz keçmişdi. Neçə dağ yollarını gecənin qıy desən, qulaq batıran çağında qorxusuz-hürküsüz keçmişdi. İndi bu gidi dünyanı anlamaq üçün ömrü at belində keçən, ruzisi at arabasında daşınan kişilərin yeri görünür. Köhnə kişilərin at belində keçdiyi yollardan keçmək üçün gərək köksün altda döyünən kişi ürəyin olsun. Nə olsun ürək hamıda var, amma hamı ürəkli deyil ki...

...O gün aran kəndi Məzrəliyə getmişdim. Qarşıdan gələn at arabasına təpili-tıxılı qarpız, yemiş yükləmişdilər. Yenə şamama qoxusu könlümün ipək yerinə axdı. Arxadakı arabanın yanından keçəndə ot ətri vurdu məni. Otun üstündə oturub at arabasını sürən kişiyə baxdım. Baxdım, baxdım kövrəldim. Sanki atamın at arabasındakı ömür çırağı nurlanırdı.

Ağlaya bilsəydim, bir az ürəyimi boşaldardım...

***Həzi HƏSƏNLİ,***
***şair-publisist***

# Gənclər "Yay Fest"də



**"Konstitusiya və Suverenlik İli" çərçivəsində Şamaxıda təbiət qoynunda təşkil olunan Azərbaycanın ən böyük gənclər festivalı "Yay Fest" çərçivəsində avqustun 18-dən 22-dək keçirilən "Müstəqillik tarixi" düşərgəsi müvəffəqiyyətlə başa çatıb.**

Respublikanın müxtəlif regionlarından olan 250 gənc 5 gün boyunca bir araya gələrək unudulmaz düşərgə təcrübəsi yaşayıblar. Düşərgənin əsas məqsədi gənclərə Azərbaycan xalqının müstəqillik və ədalət uğrunda apardığı mübarizənin qəhrəmanlıq səhifəsini dərindən öyrətmək, onlarda vətənpərvərlik və dövlətçilik prinsiplərinə sadiqliyi aşılamaq, həmçinin gələcəyin liderləri kimi formalaşmaları üçün zəruri bilik və bacarıqlarını artırmaqdan ibarət olub.

Avqustun 29-dək davam edəcək "Yay Fest 2025" çərçivəsində, ümumilikdə 2000-dən artıq gəncin iştirakı ilə "Milli-mənəvi dəyərlər", "Həmrəylik", "Humanizm", "Ədalət və qanun", "İnkişaf", "Vətənpərvərlik", "Müstəqillik tarixi" və "Qalib diplomatiya" mövzularında ardıcıl 8 düşərgə təşkil olunacaq.

Gənclər üçün ənənə halını alan və beşinci dəfədir ki, təşkil edilən "Yay Fest" Azərbaycan Respublikasının Gənclər Fondunun dəstəyi, "IDEA" İctimai Birliyi, Azərbaycan Tələbə Gənclər Təşkilatları İttifaqı, Azərbaycan Könüllü Təşkilatları İttifaqı, "CAVAN" Gənclər Hərəkatı və "Gənc Könüllülər" İctimai Birliyinin təşkilatçılığı ilə həyata keçirilir.

***XQ***

# Orta Dəhliz rəqəmsallaşdırılır

**"Middle Corridor Multimodal Ltd."nin idarə heyətinin sədri Aybek Bijanov bildirib ki, hazırda Transxəzər Beynəlxalq Nəqliyyat Marşrutunda (Orta Dəhliz) rəqəmsallaşmanın tətbiqi ilə bağlı layihələr həyata keçirilir.**




Onun sözlərinə görə, adıçəkilən şirkətin dəhlizdə vahid operator kimi çıxış etməsi planlaşdırılır. Səhmdarları Azərbaycan, Qazaxıstan və Gürcüstanın dəmir yollarıdır. Bütün marşrut boyu bu ölkələrin dəmir yolu qurumlarının maraq və səylərinin birləşdirilməsi, yükdaşıyıcıları üçün şəffaf mühitin yaradılması qarşıya önəmli vəzifə kimi qoyulur.

A.Bijanov qeyd edib ki, hazırda Orta Dəhliz üzrə rəqəmsal həllər tətbiqi əllə aparılan proseslərin minimuma endirilməsinə, yükdaşıma müddətinin azalmasına səbəb olacaq. Bu dəhlizin rəqabətə davamlı, bütöv beynəlxalq marşrut kimi fəaliyyət göstərməsinə şərait yaradacaq.

***XQ***

**Hava**

### Qorabişirən günlər...

**Milli Hidrometeorologiya Xidmətindən mətbuata bildirilib ki, bu gün Bakıda və Abşeron yarımadasında hava yağmursuz olacaq. Mülayim cənub-şərq küləyi əsəcək.**



Havanın temperaturu gecə 21-24° isti, gündüz 29-34° isti olacaq. Atmosfer təzyiqi 756 mm civə sütunu təşkil edəcək. Nisbi rütubət gecə 70-75 faiz, gündüz 45-50 faiz olacaq.

Azərbaycanın rayonlarında hava əsasən yağmursuz olacaq. Mülayim şərq küləyi əsəcək.

Havanın temperaturu gecə 19-23° isti, gündüz 33-38° isti, dağlarda gecə 11-16° isti, gündüz 22-27° isti olacaq.

***XQ***

BAŞ REDAKTOR
ƏFLATUN AMAŞOV

TELEFONLAR:
Reklam və elanlar: 493-82-21
Qəbul şöbəsi: 493-24-75 Mühasibatlıq: 498-85-29
Məsul katib: 493-61-02 Email: xalqqazeti@gmail.com
Texniki şöbə: 493-59-64 info@xalqqazeti.az
+994(51) 280-16-44

"Xalq qəzeti"nin kompüter mərkəzində yığılıb və səhifələnib, "Azərbaycan" nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
Şəhadətnamə 022273

İNDEKS 0282
TİRAJ 3501
SİFARİŞ 1728
QİYMƏTİ 60 qəpik

Növbətçi redaktor
Məsaim ABDULLAYEV
Çapa imzalanmışdır 00:00